Bu bir xalq qəzetidi
ƏDALƏT

## Nazirlik əməkdaşları altı nəfəri xilas etdilər



**Fövqəladə Hallar Nazirliyi (FHN) ötən sutka ərzində həyata keçirdiyi yanğın, qəza-xilasetmə əməliyyatlarının statistikasını açıqlayıb.**

Bu barədə Fövqəladə Hallar Nazirliyi (FHN) məlumat yayıb. Bildirilib ki, FHN-nin "112" qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 19 yanğına çıxış və 6 halda köməksiz vəziyyətdə qalma faktları üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib. Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib. Ümumilikdə, ötən sutka ərzində 6 nəfər xilas edilib, mənzildə 1 nəfərin meyiti isə aşkar olunaraq aidiyyəti üzrə təhvil verilib.

Xatırladaq ki, FHN əməkdaşları həmçinin 9 aprel 2021-ci il tarixində Kür çayının Sabirabad rayonu, Cəngan kəndi ərazisindən keçən hissəsində batmış 2016-cı il təvəllüdlü Hüseynli Hüseyn Şahin oğlunun meyitini aşkar edərək aidiyyəti üzrə təhvil veriliblər.

## Şeyx: "Nəvələrimi Hərbi Qənimətlər Parkına aparacağam"



**Hərbi Qənimətlər Parkını televiziyada gördüm. Ailəm, nəvələrim oranı görmək istəyir. Mən də söz vermişəm ki, onları parka aparacağam. Parkın dizaynı çox gözəl qurulub. Bir çox ölkələrdə olmuşam. Amma belə dizaynda park görməmişəm.**

**Bunu Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə deyib.**

**QMİ sədri bildirib ki, Hərbi Qənimətlər Parkı Vətəni sevmək, Vətəndə baş verən hadisələrə qiymət vermək, torpaqların nəyin bahasına olursa olsun azad olunmasını göstərmək baxımından mötəbər yerdir.**

**”Bura muzeydən çox bir məktəbdir. Bunkerlərdə hərbçilərin maketlərini televiziyada görəndə həqiqi ermənilərin, faşistlərin üzünü gördüm. Parkı yaradanlara minnətdarlığımı bildirirəm. Onlara baxanda insan öz Vətəni ilə fəxr edir. Düşmən dövlətin hərbi sursatının bu gün ayağımızın altında olmasını görəndə fəxr edirəm. Allah bizim dövlətimizi, xalqımızı, Ali Baş Komandanı qorusun. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə sağlamlıq versin”.**

## *Fazil Mustafa: "Məhdudiyyətlərin tətbiqi daha yaxşı olardı"*



**Pandemiya ilə bağlı qoyulan qadağalar Ramazan ayında iftar süfrələrində də özünü büruzə verəcək.**

Bu sözləri Milli Məclisin deputatı Fazil Mustafa "AzTV"nin efirində yayımlanan "Çıxışa doğru" proqramında qonaq olarkən deyib.

O bildirib ki, bu məsələyə müvafiq alternativ çıxış yolu tapılmalıdır:

"Aidiyyəti üzrə məhdudiyyətlərin forması tərtib olunsa, yaxşı olar. Məsələn, iftar süfrəsində bir masa arxasında 3 nəfərdən artıq şəxsin oturmasına icazə yoxdur. Tam qadağa tətbiq etmək olmur. Qadağalar çox olduqca insanlar qeyri-rəsmi yollarla bir yol tapıb, bunu edəcək.

Sahibkarların da vəziyyətini müəyyən qədər anlamaq lazımdır. Ramazan ayıdır".

F.Mustafa onu da qeyd edib ki, Ramazan ayında iftar süfrəsinə toplaşmaq əvəzinə insanlara yardım etmək olar:

**"İftar süfrəsinə çəkəcəyimiz xərclə qida məhsullarını alıb, elə həmin insanların evlərinə aparmaq daha savabdır. Qoy elə evində öz ailəsi ilə iftar etsin. Şərtlər elədir ki, məntiqlə qəbul etməliyik ki, insanın sağlamlığı əsasdır. Digər bütün qaydaları təxirə salmaq mümkündür. Heç nəyi qadağan etmək olmaz, məhdudiyyətlərin tətbiqi daha yaxşı olardı".**

## Aqil Abbas Çingiz Abdullayevi dəstəklədi: "Niyə "Şəhid anaları" medalı təsis edilmir?"



**”Sovet İttifaqı vaxtı bir çox statuslar, o cümlədən ”qəhrəman ana” statusu var idi. Onlara da tətbiq edilən güzəştlər var idi. Çingiz Abdullayev çox maraqlı bir təkliflə çıxış edib ki, niyə bizdə ”Şəhid anaları” medalı təsis edilmir? Çingiz Abdullayevin təklifi çox maraqlıdır”.**

Adalet.az xəbərinə görə, bunu parlamentin plenar iclasında çıxış edən deputat Aqil Abbas deyib.

”Hesab edirəm ki, bu məsələyə baxmaq olar” - deyə, deputat bildirib.

## *Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər keçirilib*



*Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci ilin döyüş hazırlığı planına əsasən Hərbi Hava Qüvvələrinin Zenit-Raket Qoşunlarında döyüş atışlı təlimlər keçirilib.*

*Müdafiə Nazirliyindən Adalet.az-a verilən məlumata görə, təlimlərdə şəxsi heyət şərti düşmən hədəflərini aşkarlayaraq onların S-125 zenit-raket komplekslərindən məhv edilməsi tapşırıqlarını müvəffəqiyyətlə icra edib.*

*Təlimlərin əsas məqsədi şəxsi heyətin praktiki vərdişlərinin təkmilləşdirilməsi və döyüş qabiliyyətinin yüksəldilməsidir.*

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *Gündəlik hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 40 (5872) 15 aprel 2021-ci il | Qiyməti 30 qəpik

# “Azərbaycan-Belarus münasibətləri problemlərdən tamamilə uzaqdır”



Bax:səh-2

## Türkiyə "Bozdoğan" raketini uğurla sınaqdan keçirdi



**Türkiyədə ”Hava-Hava” tipli ”Bozdoğan” raketi uğurla sınaqdan keçirilib.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ”Twitter” hesabında yazıb.

”Türkiyə havadan-havaya raket texnologiyasına sahib nadir ölkələrdən biri olmağı bacardı. ”Bozdoğan” raketi ilk atışda hədəfi tam dəqiqliklə vurdu”, - deyə Ərdoğan qeyd edib.

## Ərdoğan: "Aİ Türkiyəyə qarşı ikili standartlardan imtina etməlidir"



**Avropa İttifaqı (Aİ) Ankaraya qarşı ikili standartlardan imtina etməlidir.**

Adalet.az-ın məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasının yekunları üzrə telemüraciətində deyib.

Onun sözlərinə görə, Ankara ”Aİ-nin bloka qəbul edilmiş digər ölkələrə olduğu kimi Türkiyəyə də eyni proseslər və praktikanı tətbiq edəcəyini” gözləyir.

**T.Ərdoğan qeyd edib ki, pandemiya fonunda Avropa ölkələrində başlayan etirazlara hakimiyyətin reaksiyası, onların Türkiyə ilə əlaqəli ikili standartlarını ortaya çıxarıdı.**

## ÜST: Koronavirusdan ölümlər artıb




*Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Tedros Adhanom Qebreyesus dünyada koronavirusdan ölümlərin artdığını açıqlayıb.*

*Bu barədə ÜST-ün saytında məlumat verilir.*

*"Artıq ardıcıl yeddi həftədir ki, yoluxmada, son dörd həftədə isə ölümlərdə artım müşahidə etmişik", - deyə Qebreyesus bildirib. O, vaksinasiyanın COVID-19 virusu ilə mübarizədə yeganə yol olmadığını söyləyib.*

*ÜST rəhbəri insanları sosial məsafəni qorumağa, qoruyucu maskalar taxmağa, özünü təcrid etməyə və digər tədbirlərə riyaət etməyə çağırıb.*

**Mehman CAVADOĞLU**



## Rusiya Ermənistana möhtac?

***Ukraynayla Rusiya arasında başlayan növbəti gərginlik dalğası nəinki səngimək bilmir, əksinə getdikcə daha da alovlanır. Donbas ətrafında və Qara dəniz hövzəsində Rusiyayla yanaşı Ukrayna və ona dəstək verən ölkələrə məxsus hərbi birləşmələrin yerdəyişmələri, müxtəlif səpgili manevrləri, eləcə də diplomatların gah yumşalan, gah da sərtləşən ritorikaları prosesin geniş miqyaslı müharibəyə çevrilmə ehtimalını gündən-günə artırır.***

***Bu gərgin günlərdə prezident Zelenskinin Türkiyəyə səfəri çox mühüm Anqaranın fəal mövqeyi hardasa onun "öz şəxsi təhlükəsizliyini qorumaq ehtiyacından doğan məcburi addım" sayılırdısa, Liviyaya, Qafqaza və Ukraynaya "giriş" artıq qardaş ölkənin böyük siyasətin əsas subyektlərindən birinə çevrilməsinin etirafı kimi səslənir.***

Bax: səh.3

## Elməddin Sərdardan şəhid və qazilər üçün dua



**ŞƏHİD, QAZİ Şəhid anası, Şəhid atası, qardaşi, bacisi olmaqdan böyük yüksək, şərəfli ad yoxdur. Bu Kərbəla hadisəsindən üzü bəri belə olub və dunya durduqcada belə olacaq. Sizlər VƏTƏNSİNİZ. Adi və özləri VƏTƏN olanlar Ramazan ayinin gəlişi sizə səbr, saglamliq və ruzi bərəkət gətirsin.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## MİLLƏT DEYİLİK EY, KEFİK BAŞDAN-AYAĞA



**Deyir milçək bir şey deyil, ürək bulandırır, amma bu milçəklər təkcə ürək bulandırmır ey, həm də yaralarımıza miz salır, amma düşmən dəyirmanlarına da su tökür. Düşmən tək erməni olsaydı nə dərdimiz vardı ki? Bir deyil, iki deyil, nə çoxdu ermənilərə ağ verən kərtənkələlər. Həmin kərtənkələlərə də bizim kərtənkələlər qoşulub.**

**Qrand yalakaları, qanı qarışıqlar möhtəşəm qələbəmizə bütün gücləri ilə kölgə salmağa çalışırlar.**

**Düzdür, bunlar o qədər də çox deyil, amma varlar. Və sosial şəbəkələrdə tumanlarını başlarına keçirirlər. Və düşmənlər də onlardan çox gözəl istifadə edir.**

Bax: səh.2

## *Şəkər Yusiflidən günün statusu*



*Allahın var günü də içimizdən erməni çıxardırsınız. Heç Ermənistanda o qədər yoxdur.*

## 2293 nəfər COVID-19-a yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 2 293 yeni yoluxma faktı qeydə alınıb, 2 071 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 291 894 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 255 833 nəfər müalicə olunaraq sağalıb, 4 009 nəfər vəfat edib, aktiv xəstə sayı 32 052 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 086, ötən müddət ərzində isə ümumilikdə 3 054 472 test aparılıb.

## “8 Noyabr” prospekti 10 kilometrə qədər uzadıldı

**Bakının "8 Noyabr" prospekti 10 kilometrə qədər uzadılıb. Adalet.az-ın məlumatına görə, keçmiş adı "Nobel" prospekti olan "8 Noyabr" prospekti, Zığ şosesinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qədər olan hissəsinin də bu prospektə qatılması ilə onun uzunluğu 10 km-ə yaxın uzanıb.**

Qeyd edək ki, bu prospektdə son illərdə geniş abadlıq-yenidənqurma işləri aparılaraq əhəmiyyətli dərəcədə dəyişikliklər edilib.

## *GÜNÜN LƏTİFƏSİ*



Vəli Xramçaylını dostlardan biri qonaq çağırır.

Qonaqlığa tez gəlmiş şair süfrə düzələnə kimi dostunun dərs hazırlayan oğlu ilə başını qatmağa çalışır.

Əlini uşağın telinə çəkib qabağındakı riyaziyyat dəftərinə baxır.

**-Nağayrersan?**

Uşaq:

**-Vəli əmi,ən kiçik ortaq böləni axtarıram..**

Şair təəccüblə:

**-Ayə,hələ onu tapbeflarmı,mən uşaq olanda da onu axtarerdılar)**

## “Azərbaycan-Belarus münasibətləri problemlərdən tamamilə uzaqdır”



**Azərbaycan-Belarus münasibətləri hər hansı problemlərdən tamamilə uzaqdır.**

Adalet.az-ın xəbərinə görə, bunu aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü zamanı deyib.

Dövlət başçısı bildirib: "Hörmətli Aleksandr Qriqoryeviç, Sizi yenidən görməyimə şadam. Dünən bizim qeyri-rəsmi formatda ünsiyyət saxlamaq, ikitərəfli gündəliyə aid məsələlərin geniş spektrini, regional problemləri müzakirə etmək imkanımız oldu. Bu gün dialoqumuzu davam etdiririk. Ölkələrimiz arasında münasibətlərin inkişafına görə çox şadam. Sizinlə biz əlaqələrimizə elə dinamizm gətirmişik ki, bütün istiqamətlər üzrə inkişaf olduğunu, razılaşdırdığımız məsələlərin praktiki həllini görürük.

Qarşılıqlı səfərlərimiz müntəzəm xarakter daşıyır. Mən Belarusa səfərlərimi, Sizin Azərbaycana səfərlərinizi yaddaşımda təzələmişəm. Bütün bunlar ölkələrimiz arasında sıx qarşılıqlı siyasi əlaqə, yüksək səviyyədə etimad olduğunu və nəticəyə hədəfləndiyimizi göstərir.

Odur ki, qarşılıqlı iqtisadi fəaliyyət çərçivəsində yaxşı nəticələr görürük. Keçən il pandemiyaya baxmayaraq, bizim əmtəə dövriyyəmiz artıb, Azərbaycandan Belarusa ixrac da artıb. Ona görə bu gün sənaye kooperasiyası ilə bağlı məsələləri də daha ətraflı müzakirə edəcəyik. Sizinlə birgə qərarımıza əsasən artıq çoxdandır ki, Gəncədəki sənaye müəssisəsi fəaliyyət göstərir.

Qarabağın bərpası ilə bağlı məsələləri də Sizinlə müzakirə etmək istərdim. Belarus şirkətlərinin öz ölkənizdə aqrosənaye kompleksləri yaradılması təcrübəsi bizə məlumdur. Buna görə də işğaldan azad edilmiş ərazilərin bərpası baxımından bu mövzu, əlbəttə, xüsusi yer tutur.

Sevindirici haldır ki, biz iştirak etdiyimiz beynəlxalq strukturlarda bundan sonra da bir-birimizi dəstəkləməkdə davam edəcəyik. Yəni, bizim münasibətlərimiz hər hansı problemlərdən tamamilə uzaqdır. Bizim müntəzəm əlaqələrimiz sadəcə görülmüş işlərə yekun vurmağa, növbəti addımları ölçüb-biçməyə və iki dost, iki tərəfdaş kimi irəliləməyə imkan verir. Bir daha xoş gəlmisiniz, Sizi yenidən Bakıda görməyimə şadam".

## Aleksandr Lukaşenko: Azərbaycan öz milli arzusuna çatmaq yolunda böyük addım atıb

**Azərbaycan öz milli arzusuna çatmaq yolunda böyük addım atıb.**

Adalet.az xəbər verir ki, bunu Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək görüşü zamanı deyib.

Belarus Prezidenti bildirib:

"Bütün bu pandemiya və sair ilə bağlı hadisələr fonunda bizim görüşümüz, ola bilsin, müəyyən dərəcədə rəfrən kimi səslənəcək. Lakin həqiqi dostlar vaxtında həyata keçirilməli olacaq tədbirləri ləngitmirlər. Biz də belə edirik və heç bir pandemiya buna mane ola bilməz.

Siz çox düzgün dediniz ki, bizim siyasət, iqtisadiyyat sahələrində konkret istiqamətlər baxımından münasibətlərimiz olduqca çoxşaxəlidir, çox düzgündür və onlara heç nə xələl gətirmir. Biz heç kəsə mane olmuruq və heç kəs də bizə mane ola bilməz. Ona görə ki, əgər sən bir işi görmək istəyirsənsə, buna mane olmaq çətindir.

Həqiqətən, Azərbaycan öz milli arzusuna çatmaq yolunda böyük addım atıb. Lakin bu, yalnız ilk addımdır. Dünən biz bu barədə xeyli danışdıq. Mən çox şadam, Siz Belarus xalqının həqiqi dostu kimi bilirsiniz ki, qarşıda hələ çox işlər var, işğaldan azad edilmiş ərazilərdə həyatın bərpası üçün çox ağır işlər, dinc işlər görülməlidir. Bilməlisiniz ki, Belarusda Sizin etibarlı dostlarınız var. Siz bizim imkanlarımızı bilirsiniz. Bu gün biz onları nazirlər və mütəxəssislərlə bir daha müzakirə edəcəyik. Əgər biz razılığa gəlsək, - bizdə həmişə belə olub, - biz razılaşmaları həmişə reallaşdırırıq və bu gün əmtəə dövriyyəsinin yarım milyarda çatması buna sübutdur.

Ümumiyyətlə, Siz Prezident vəzifəsinə gələnə qədər belə hallar olmayıb. Ona görə də, bu, dinamika baxımından yaxşı nəticədir.

Siyasi münasibətlərimizə gəldikdə isə bizə nəyinsə çatışmadığını və ya hansısa mənfi amil olduğunu demək çətindir. Bizdə belə amillər yoxdur. Bizim münasibətlərimiz əladır və mən buna görə həmişə fəxr edirəm.

Biz hələ Sovet İttifaqı dövründən bütün istiqamətlər üzrə ən səmimi münasibətləri bərpa etmişik. Xüsusən çətin vaxtlarda, elə indi də Belarus üçün karbohidrogen xammalı tədarükündə göstərdiyiniz dəstəyə görə Sizə minnətdaram. Bu gün səhər fikirləşirəm, bəlkə biz münasibətlərimizi məhz bu həssas sahədə dərinləşdirmək məsələsinə baxmalıyıq, ona görə ki, Belarus iqtisadi, siyasi hadisələrin mərkəzində yerləşir. Lakin bununla belə, həll edilə bilməyən məsələlər yoxdur. Sağ olun ki, indicə dediyim kimi Azərbaycan üçün çox gərgin bir dövrdə bu məsələləri müzakirə etmək üçün vaxt tapmısınız".

# ORDUMUZUN MƏNƏVİ ÜSTÜNLÜYÜ DANILMAZDI

**30 il düşmən tapdağı altında qalan, torpaq həsrətində olan bir miyondan artıq məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlarımız, bu illər ərzində ümidlərini üzmədi, Azərbaycan Respublikasının Prezidentinə, onun apardığı siyasətə inandı və dəstək verdi. Bu illər ərzində Prezident İlham Əliyev beynəlxalq səviyyədə Azərbaycanın haqlı tərəflərini ən yüksək tribunalardan səsləndirməklə yanaşı, müasir ordu quruculuğuna da böyük diqqət ayırırdı. Torpaqlarımızın siyasi yolla işğaldan azad edilməyəcəyi təqdirdə, güc yolu ilə alınacağını da heç vaxt gizlətmədi və bu barədə demək olar ki, bütün çıxışlarında bunu açıq şəkildə bəyan etdi. ”Bizim də səbrimizin həddi var...” - deyə həm işğalçı Ermənistana, həm də beynəlxalq aləmə mesajını verirdi.**

Nəhayət, danışıq dilini, məsələnin dinc, siyasi yolla həllini anlamayan, əksinə, hər addımda təxribatlar törədən erməni quldurları xalqımızın səbr kasasını doldurdu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanının əmri ilə Müzəffər ordumuz Azərbaycan xalqı intiqamını düşməndən döyüş meydanında aldı.

44 gün ərzində qəhrəman ordumuz düşmənin demək olar ki, bütün hərbi texnikasını məhv etdi və çoxsaylı itkilərlə üzləşən düşmən məğlub olduğunu etiraf etmək məcburiyyətində qaldı, kapitulyasiya sənədinə qol çəkdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə döyüş zamanı düşmənin məhv edilmiş və qənimət kimi ələ keçirilmiş hərbi texnikasından ibarət, paytaxt Bakı şəhərində acıq Muzey yaradıldı.

Muzeyin açılışında çıxış edən ölkə başçısı bildirdi ki, ***”Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı. Həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin qanını döyüş meydanında aldıq, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamını düşməndən döyüş meydanında aldıq. Biz döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti bərpa***



***etdik, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq”.***

***“Qəhrəman və peşəkar Azərbaycan Ordusunun mənəvi üstünlüyü danılmaz faktdır. 44 günlük Vətən müharibəsi bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdi. Göstərdi ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində bir dəfə də geriyə addım atmamışdılar. Ermənistan bir dəfə də uğurlu əməliyyat apara bilməmişdir. Ermənistan ordusunda 10 min fərari olub, özləri bunu etiraf ediblər. Azərbaycan Ordusunda, Silahlı Qüvvələrimizdə bir nəfər də fərari olmamışdır. Yaralanmış hərbçilər, ağır yaralanmış hərbçilər bir amalla yaşayırdılar ki, tezliklə sağalıb yenə də döyüşə qayıtsınlar. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti yüksək mənəvi ruh göstərmişdir”.***

Şanlı qələbəmizin tarixi əhəmiyyətinə toxunan Prezident İlham Əliyev:

***”İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq. Böyük Qələbə Azərbaycan dövlətinin hərbi gücünün təzahürüdür. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq”*** - deyə çıxışında bildirdi.

Daha sonra İlham Əliyev Azərbaycan Ordusunun təcrübəsi və hərbi strategiyası haqında məlumat verərək, ordumuzun hərbi taktikasının beynəlxalq ekspertlər tərəfindən öyrənildiyini diqqətə çatdırdı: ***”Bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın***



***aparıcı ölkələri, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər”.***

### *Hərbi Qənimətlər Parkı müharibənin miqyasını və Qələbənin möhtəşəmliyini göstərir*

Yaradılmasına bu ilin yanvar ayından başlanılan və 5 hektar ərazini əhatə edən Park paytaxtın Xətai rayonundadır.

Parkdakı eksponatlar arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü 2 mindən çox hərbi avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində ”Qarabağ Azərbaycandır!” şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, o cümlədən döyüş bölgəsindən uzaq olan ərazilərimizin raket zərbələrinə məruz qalması, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış ”İsgəndər-M” raketinin qalıqları var. Burada Vətən müharibəsinin gedişində düşməndən qənimət götürülən hərbi texnikanın bir qismi, ümumilikdə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar, hərbi nəqliyyat sərgilənir.

Təqdim edilən eksponatlar, 10 səddən ibarət müdafiə sistemi, sığınacaqlar, hərbi kazarmalar, Vətən müharibəsinin gedişatı barədə məlumatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

Açıq havada, düşmənin məhv edilmiş və qənimət kimi ələ keçirilmiş hərbi texnikalarının nümayiş etdirildiyi parkın əhəmiyyətinə toxunan Prezident İlham Əliyev bildirdi ki, ***”Hərbi Qənimətlər Parkını ziyarət edən hər kəs Azərbaycan Ordusunun qüdrətinin şahidi olacaqdır. Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər”.***

***”Erməni vandalizmi insanlığa qarşı cinayətdir. Törədilmiş vəhşiliklər dəhşətlidir. Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bütün dünya gördü ki, onların əsas ideoloji amili nə idi. Biz erməni vəhşiliyini heç vaxt unutmamalıyıq”.***

### *Vətən müharibəsində əldə olunmuş Qələbə effektiv ordu quruculuğu siyasətinin və iqtisadi inkişafın nəticəsidir*

Ordu quruculuğunun hər zaman dövlət siyasətinin prioritet istiqaməti olduğunu bildirən Prezident qeyd etdi ki, ***”Biz danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdıq. Bütün bu 17 il ərzində bizim əsas büdcə xərclərimiz hərbi xərclər olmuşdur. Biz istədiyimizə nail olduq. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Biz bir ölkədən asılı olmamaq üçün bu texnikanı bir çox mənbələrdən almışıq.Vətən müharibəsi göstərdi ki, Azərbaycanda silahlanma siyasəti düzgün aparılmışdır. Bunun üçün gərək sənin tərəfdaş ölkələrlə sıx əlaqələrin olsun. Çünki silah bazarı çox həssasdır. Burada ancaq kommersiya, biznes maraqları hər şeyi həll etmir. Siyasi məsələlər hər şeyi həll edir. Biz tərəfdaş ölkələrdən elə texnika, elə silahlar almışıq ki, əgər bir mənbədən olan texnikaya bir şey olarsa, bizim ehtiyat imkanlarımız var və İkinci Qarabağ müharibəsi bunu göstərdi.***

***İkinci Qarabağ müharibəsinin aparılması üçün Azərbaycanda böyük hazırlıq işləri görülmüşdü. Siyasi sabitlik, vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyini hiss edərək çox inamlı islahatlar aparıldı və siyasi müstəvidə artıq vəziyyət sağlamlaşdı. Beynəlxalq müstəvidə, beynəlxalq təşkilatlar tərəfindən bizə sərf edən önəmli qərarlar və qətnamələr qəbul edildi. Qələbinin təminatı və rəsmiləşdirilməsi üçün siyasi və hüquqi baza yaradıldı.***

***Ölkənin iqtisadi qüdrəti qələbə üçün zəmin yaratdı. Azərbaycan inkişaf edərək torpaqları azad etdi. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, lazımi dərəcədə lazım olan müasir silahlar əldə edə bilməzdik. Azərbaycan enerji müstəqilliyinə nail oldu və tarixi layihələri həyata keçirdi. 2006-2007-ci illərdə neft-qaz kəmərləri inşa edildi. Əgər, o kəmərlər tikilməsəydi, bizim bu qədər vəsaitimiz olmazdı. Vəsait yoxdursa, silah da olmayacaqdı. Ona görə iqtisadi müstəqillik əsas idi, bu sahədə də hazırlaşdıq. Ermənistanı dalana çevirməli idik. Bütün nəqliyyat, kommunikasiya, enerji xətlərini elə çəkdik ki, onlardan yan keçdi”.***

### *Gələcək naminə tarixi həqiqətləri bilməli və saxta tarixin girovuna çevrilməməliyik*

Uydurma ”dənizdən-dənizə böyük ermənistan” xülyaları, heç bir tarixi əsaslara söykənməyən mifləri ilə yaşayan erməni xalqı, son yüzillikdə havadarlarının yaxından köməkliyi ilə tarixi Azərbaycan torpaqlarında ilk dövlətlərini 1918-ci ildə yaradıblar.

Çıxışında erməni dövlətinin yaranma tarixinə diqqət çəkən Prezident İlham Əliyev tarixi həqiqətlər barədə də danışdı. **”Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycan xalqı qarşısında böyük xidmətləri var. Ancaq biz tarixi həqiqətləri bilməliyik. 1918-1920-ci illərdəki müstəqilliyimiz yarımçıq idi. İrəvanı verdik Ermənistana. Azərbaycan Xalq Cümhuriyyəti tam hakimiyyəti təmin edə bilmirdi. İngilis generallar burada meydan sulayırdılar. Hətta bizim bayrağımızı təsdiq etmək üçün ingilis generalı gərək əmr verəydi. Hər şey necə olub, elə də deməliyik. Saxta tarix uydurmamalıyıq. Həm sovet dövründə, həm də müstəqilliyin ilk illərində bizim üçün o qədər saxta tarix uydurmuşlar. Biz elə saxta tarixin girovuna çevrilmişik”.**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

*Aqil ABBAS*

# MİLLƏT DEYİLİK EY, KEFİK BAŞDAN-AYAĞA

**Deyir milçək bir şey deyil, ürək bulandırır, amma bu milçəklər təkcə ürək bulandırmır ey, həm də yaralarımıza miz salır, amma düşmən dəyirmanlarına da su tökür. Düşmən tək erməni olsaydı nə dərdimiz vardı ki? Bir deyil, iki deyil, nə çoxdu ermənilərə ağ verən kərtənkələlər. Həmin kərtənkələlərə də bizim kərtənkələlər qoşulub.**

**Qrand yalakaları, qanı qarışıqlar möhtəşəm qələbəmizə bütün gücləri ilə kölgə salmağa çalışırlar.**

**Düzdür, bunlar o qədər də çox deyil, amma varlar. Və sosial şəbəkələrdə tumanlarını başlarına keçirirlər. Və düşmənlər də onlardan çox gözəl istifadə edir.**

**Söhbət 44 günlük zəfərimizin, qələbəmizin təntənəsi kimi şəhərimizdə yaradılmış ”Hərbi Qənimətlər Parkı”nı sınıra bilməyənlərdən gedir. Xüsusilə də boş dəbilqələri və erməni əsgərlərinin müqəvvaları onları çox incidir. Guya bununla biz erməniləri təhqir edir və alçaldırıq. Bütün müharibələrdə qələbələrdən sonra belə parklar, muzeylər açılıb. 1945-ci ildə alman faşistlərinin qənimət kimi ələ keçirilmiş həm dövlət bayraqları, həm də ordu bayraqları, hərbi hissələrin bayraqları Qızıl Meydana gətirilib ayaqlar altına atıldı. Faşist əsirləri Qızıl Meydandan keçirilib bütün Sovet xalqına nümayiş etdirilirdi.**

**Yeri gəlmişkən, Bakıda da alman əsirləri küçələrdən keçirilərək (özü də müharibə zamanı) xalqda bir inam aşılayırdılar.**

**Ramiz Rövşənin 70-ci illərdə ”Azərbaycan” jurnalında çap olunmuş bir povesti var. Gərək ki adı ”Daş”dı. Əsərdə belə bir yer var, alman hərbi əsirlərini küçələrdən keçirib işləməyə aparırlar. Camaat da tamaşa edir. Əsirlər təbii ki, əsir günündədilər - miskin. Və xalq görür ki, bunlar heç də təsvir elədikləri kimi əjdaha deyilmişlər.**

**Bir nəfər bu miskin almanlara baxıb deyir:**

**- Bu nemeslər o nemeslərdən deyil!**

**Gərək biz də döyüşdə götürdüyümüz əsirlərin Bakıda bir nümayişini keçirərdik. Şəhid analarının, qazilərin ürəyinə su səpmiş olardıq. Və millət də görərdi ki, ”bu ermənilər o ermənilərdən deyil” və erməni xalqı beləcə miskin bir xalqdı.**

**Mən müharibənin bütün ağrı-acısını yaşamış adamam. Ermənilərin nə qədər alçaq olduğunu, əsirlərimizə necə, hətta şeytanın da ağlına gəlməyən, işgəncələr verməsinin, meyitlərimizi necə təhqir etməsinin şahidiyəm. Bildiklərimi və gördüklərimi yazmaq istəmirəm, çünki gözümün qabağına gəlir, dözə bilmirəm. Bizim əsirlər o işgəncələrə necə dözüb, bundan heç Tanrının da xəbəri yoxdu. Müharibədə hər şey ola bilər, düşmən hər bir vəhşiliyə əl atır. Amma indiyədək görünməyib ki, hansısa düşmən insanların qəbirlərini dağıdıb meyitlərinə də işgəncə verələr.**

**Ermənilər bu alçaqlığı ilə dünya tarixində bir ilkə imza atdılar.**

**Boş dəbilqələr. Bu da ermənilərə bir görkdür ki, yenidən özlərinə gəlməyib bizimlə müharibə eləsələr dəbilqələri bax, belə boş qalacaq.**

**Və sonda. Alçaqları müdafiə etmək ən böyük alçaqlıqdır.**

*Vaqif Qarayev*

## Ermənilər də qələt elədiklərini etiraf etsələr...



*Qələbəyə qədər həkim qruplarında " erməni millətindən olan xəstəyə baxardınız?" tipli müzakirələr olurdu bəzən....doğmasını, əzizini itirən həkimlərin nifrəti başadüşülən idi...onları qınamaq olmazdı...(erməni həkimləri də avtomatlı ermənidən fərqlənməyib heç vaxt...)*

*Erməni dəbilqələrinə görə utanaqmı?-Məncə, yox! Etmə, eləməsinlər prinsipi var...Tam sülhə qədər belə olacaq. Məntiqlə Avropanı qan gölünə döndərən almanlara hamı nifrət etməlidi...amma almanlar faşist ideologiyasından əl çəkdilər...sivil dünyanın qayda-qanununa tabe oldular...səhvlərini etiraf etdilər...indi hamı ilə sülh şəraitində yaşayırlar...*

*Ermənilər də qələt elədiklərini etiraf edib sülh şəraitində yaşamağa razı olsalar bitəcək hər şey...çünki əbədi düşmənçilik olmur...indi heç olmaz!*

***

*N. Nərimanov....*

*Haqqında birmənalı fikir yoxdur...nəsə demək istəmirəm....amma bir məsələyə toxunmaq istəyirəm....Nərimanovun Borçalıda( Marneulidə) heykəli var...soydaşlarımız üçün mənəvi istinadgahdı... ziyarətgahdı...vaxtaşırı millətçi və dindar kəsim heykəlin götürülməsini tələb edir orda....məqsədləri aydındır...amma bir iş var ki, bu mənasız kampaniyaya bizim burdan da qoşulanlar olur.....özünü qatı antisovet hesab edənlər)))Nərimanovu xalqımıza düşmən hesab edənlər))))Xalqa bir qara qəpik faydası olmayanlar. Siz heç Borçalıda oldunuzmu? Siz ordakı camaatın hansı məşəqqətlə yaşadığının şahidi oldunuzmu? Siz heç yerli hökumətin qarşısında ordakı əhalinin problemlərini qaldırdınızmı? Camaatın isti yerinə soyuq su axıtmayın!!!!*

### *ABŞ F-35-ləri Avropaya göndərir*



**ABŞ Silahlı Qüvvələri bu ilin payızında beşinci nəsil F-35 qırıcı-bombardmançı təyyarələrini Avropaya yerləşdirməyə başlayacaq. Bunu NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters deyib. ”F-35 çox vacibdir. Bizim hərbi planda mövqeyimiz güclüdür, amma ona meydan oxuyurlar. Bu meydan oxumanın əsas hissəsini rusların 5-ci sinif Su-37 təyyarəsi təşkil edir”, - Uolters bildirib.**

**MEHRİBAN**



*Səxavət Məmməd*

## "Döyüş zamanı silahlar sizə qeyri-qanuni verilib"

*Vətən Müharibəsində çağırışçılar, qismən səfərbərliklə ordu sıralarına cəlb edilənlərlə yanaşı, könüllülər də fəal iştirak edib.*

*Könüllülər daha çox Birinci Qarabağ müharibəsinin iştirakçıları, əraziləri yaxşı tanıyan şəxslərdən ibarət olub. Aralarında Birinci Qarabağ müharibəsində iştirak etməyib, səfərbərlik xətti ilə çağırılmayıb, öz istəyi ilə cəbhəyə yollananlar da az deyildi. Ağdam, Füzuli, Xocavənd, Laçın və digər rayonlardan olan könüllülər cəbhənin demək olar, bütün istiqamətlərində gedən döyüşlərdə iştirak ediblər. Onların müəyyən hissəsi birbaşa döyüş əməliyyatlarına qatılmasalar da, bütün hallarda ön xətdə xidmət keçiblər.*

*Füzuli rayonundan olan könüllülərin bir qismi Zahir Həsənovun komandirliyi altında Vətən Müharibəsində iştirak ediblər. Bunu xüsusi vurğulamağın səbəbi odur ki, Füzuli rayonundan olan könüllülər döyüşçü kimi qeydiyyata alınıblar və onların hərbi biletlərinə müharibə iştirakçısı qeydi yazılıb.*

*44 günlük müharibənin gedişində Ağdamdan olan 44 könüllü hər gün düşmənlə üzbəüz postlarda döyüş növbəsi tutublar. Ağdamdan olan könüllüdən 2 nəfər şəhid olub, 1 nəfər isə yaralanıb. Müharibə vaxtı hər gün saat 16:00-dan posta çıxan könüllülər səhərə qədər oranı tərk etməyiblər. Həmin ərazidəki zabitlər də həmin könüllülərin fəaliyyətin yüksək qiymətləndiriblər.*

*Bəzən deyirlər ki, Ağdam könüllüləri ancaq postlarda dayanıblar və bu faktdan onların xidmətini kiçiltmək üçün istifadə edirlər. Lakin məsələ ondadır ki, Ağdam istiqamətində demək olar, hər gün mövqe döyüşləri gedib, bir neçə dəfə düşmənin diversiya qrupları postlara basqın edib və bu hücumların hamısının qarşısı alınıb. Təbii ki, düşmən hücumunun dəf edilməsində könüllülərin böyük rolu olub. Yeri gəlmişkən, həmin könüllülər postlara çıxarkən bölüklərdən onlara silahlar verilib.*

*Bütün bunları niyə yazıram? Ona görə ki, Ağdam könüllüləri hələ də heç bir yerdə qeydiyyata alınmayıblar. Müraciət etmədikləri dövlət qurumu qalmayıb. Müdafiə Nazirliyində yaradılmış komissiyaya bəlkə də 20 dəfə gediblər və hər dəfəsində də onlara "həll ediləcək" cavabı verilib. Məsələ ilə bağlı bir dəfə Müdafiə Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxadıqda rəsmi şəkildə bildirdilər ki, komissiya bu məsələni araşdıracaq. Aylardır, hər kəsin gözü qarşısında olan bir məsələyə komissiya niyə reaksiya vermir? Bəlkə verə bilmir?*

*Yaxşı, müharibənin gedişində onlara silah verərkən, şəhid olarkən, yaralanarkən, şəxsi maşınları mərmidən məhv olarkən o könüllülər yaxşı idilər, müharibə bitəndən sonra pis? Bu, nə münasibətdir?*

*Bir neçə gün əvvəl könüllülərdən aldığım məlumata görə, Müdafiə Nazirliyindən onlara zəng edilib və bildirilib ki, müharibənin gedişində sizə silah verilməsi qeyri-qanuni olub (!?!) Adama sual verərlər, 44 gün qeyri-qanuni əməl olar? 44 gün döyüş postuna çıxmaq qədər qeyri-qanuni iş olar? Məntiq hanı? Təxminən bir ay öncə könüllülərin şəxsiyyət vəsiqələri yığıldı. O zaman bir ümid yarandı ki, artıq məsələ öz müsbət həllini tapıb. Bir neçə gün öncə isə məlum olur ki, könüllülərə "Fəxri fərman" yazılıb. "Fəxri fərman"ın tarixi isə 2021-ci il yanvarın 22-ni göstərir. Necə olur ki, o "Fəxri fərman" sahiblərinə 3 ay sonra təqdim edilir?*

*"Fəxri fərman"da yazılır:*

*"Vətən Müharibəsində könüllü iştirak edərək fədakarlıq göstərdiyinə və arxa cəbhədə döyüş təminatı tapşırıqlarınının yerinə yetirilməsində fərqləndiyinə görə Təltif Olunur".*

*Əgər könüllü işitak qeyd olunubsa, həmin şəxslərin hərbi biletlərinə niyə zəruri qeydlər yazılmır? Yəni bu "Fəxri fərman" onu göstərir ki, korpus komandiri Hikmət Həsənovun belə o könüllülərin məsələsindən xəbəri var. "Fəxri fərman"da diqqət çəkən digər məqam isə "arxa cəbhə" ifadəsidir. Düşmənlə üzbəüz qurulmuş postlar nə zamandan arxa cəbhə olub? Ön cəbhə təkcə əməliyyatların getdiyi ərazi sayılmır axı…*

*Əsgərlərə yardım aparanlara da "arxa cəbhədə fəaliyyətinə görə" "Fəxri fərman" verilsin, düşmənlə üzbəüz dayananlara da? Bu, nə qədər ədalətlidir? Könüllülər arasında özəl şirkətlərdə və dövlət qurumlarında işləyənlər var. Prezidentin sərəndamı ilə onlar həmin ərazidə xidmətdə olduqları üçün maaşları verilməkdə davam edib. Müharibə bitib, şirkətlər də maaşları verdikləri üçün haqlı olaraq onlardan müvafiq sənəd tələb edirlər. Adamlr medal, ya da "Fəxri fərman" yox, Vətən Müharibəsində iştiraklarını təsdiqləyən rəsmi arayəş istəyirlər. Bu, yəni belə çətin işdir?*

*Həmin könüllülər arasında artıq intihar həddinə çatan şəxslər var. Müdafiə Nazirliyinin, "N" saylı Ordu Korpusu komandanlığının borcudur ki, həmin könüllülərə o arayışı versiin. Doğrudur, onlar heç bir təmənna güdmədən Vətən uğrunda döyüşüblər. Ancaq insanların xidmətini düzgün qiymətləndirək lazımdır. O zaman heç kimə medal verilməsin, maaşları ləğv olunsun ki, Vətən üçün xidmət edirsiniz. Absurd deyil?*



*Zaur Əliyev*

## Liboşlara demək istərdim ki...

**Xocalı soyqırımını ilk lentə alan operatorlardan biri Seyidağa Mövsümlü ora Milli Qəhrəman Allahverdi Bağırovun səyi və təkidi ilə gedib. Mərhum Seyidağa müəllim deyirdi ki, Xocalı soyqırımından bir gün sonra Əsgəran ərazisinə Azərbaycanlı operator və bir neçə hərbiçi gedib ki, meyidlərin çıxarılmasını həyata keçirsinlər və çəksinlər. Ermənilər Azərbaycanlıların gəldiyini bilərək yol boyu 40-a yaxın azərbaycanlının başını kəsib payaya keçirib düzmüşdülər. Gözləri çıxarılan azərbaycanlıların başlarının çoxunun üz dərisi belə soyulmuş idi....**

**Onlar bizə bu gündən sonra çox belə acınacaqlı halları nümayiş etdirdilər. Əsir qızları qışda lüt küçədə düzərək bizlərə salam göndərməkdən tutmuş orqanları çıxarılan uşaqlar daxil olmaqla əsirləri sıraya düzərək qışda ayaqyalın Əsgər marşını oxutdurmasına qədər.....**

**Bax bunu dilə gətirməyən liboşlar, no warçı zatıqırıqlar indi Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkında fotosunu paylaşıb ağız büzürlər...**

**Qələt edirsiz! Bizim xalqa qansızlıq edən ermənilərin nəinki boş hərbi papaqlarını hətta diri diri əsirləri orda göstərmək lazım idi...**

**Ali Baş Komandan düz edib! Hətta az edib! Ermənilərə gücü belə yüksək səviyyədə göstərdiyinə görə ona təşəkkür edirəm**

**Xocalını, Ağdabanı, Qaradağlını, Malıbəylini unudan belə liboşlara demək istərdim ki, bu ərazilərdə soyqırıma məruz qalan azərbaycanlıların ahı tutsun sizləri.**

# Komandir

## Qurban Qurbanovun ad gününə

**Biz Qarabağı geri aldıq. Vaxtı çatdı Azərbaycan ordusu öz sözünü dedi. Görüləsi işlərimiz, deyiləsi sözümüz hələ çoxdu. Bundan sonra da Vətən müharibəsindən əvvəl apardığımız mücadiləni yeni reallıqlar çərçivəsində davam etdirəcəyik.**

Vətən müharibəsinə qədər səngərdə dayanan oğullarla yanaşı informasiya savaşında da hər an ayaqda olanlar, bir an belə bu mücadiləni dayandırmayanlar təkcə xalqın qələbəyə olan inamını qoruyub saxlamadı, həm də "Qarabağ münaqişəsi" adlandırılan bu ölüm-dirim savaşında dünyanın gözünü açmaqda, Qarabağ həqiqətlərini dünyaya car çəkməkdə davam elədi.

İnformasiya savaşının 3 əsas istiqaməti var - daxili auditoriya, xarici auditoriya, düşmən auditoriyası.

Və İnformasiya savaşının aparılması üçün 3 əsas müstəvi var - Beynəlxalq təşkilatlar, beynəlxalq mədəniyyət və idman tədbirləri, kütləvi informasiya vasitələri.

Qarabağ işğal altında olduğu illərdə informasiya savaşında uğur qazandığımız ən mühüm müstəvilərdən biri məhz kütləvi idman tədbirləri idi.

Sözsüz ki, bu cəbhədə uğurlarımızın ən ciddi səbəbinin adı - "Qarabağ" idi.

Özü işğal altında olan bir şəhərin futbol klubu "Qarabağ".

Klubun prezidenti Abdulbari Gözəlin 2015-ci ildə "Qarabağ" çempionluğu bayram edən zaman verdiyi müsahibədə maraqlı bir fikir söyləmişdi:

"Ümummilli lider Heydər əliyev mənə dedi ki, bu komandanı götür və "Qarabağ"ı dünyaya tanıt".

Sözsüz ki, bu informasiya savaşı üçün düşünülmüş çox unikal bir əmə-



liyyyat planı idi. Amma planın olması hələ hər şey demək deyil. Meydana çıxacaq 11 nəfər və bu 11 nəfəri idarə edəcək komandir olmadan bu savaşa girişmək mümkün deyildi. "Qarabağ"ı ölkə daxilində qalib etmək minimal tələb ola bilərdi. Əsas məsələ "Qarabağ"ı Avropaya çıxarmaq və maksimal nəticə isə "Qarabağ"ı dünyaya təqdim etmək idi.

Avropa klubları qarşısında boynunu büküb dayanan bir komanda lazım deyildi bizə. Uduzmağı ilə də yaddaşlarda qalacaq bir komanda lazım idi Azərbaycana.

Bəli, bəli. Belə bir komanda təkcə Ağdama yox, təkcə Abdulbari Gözələ yox, təkcə klubda çalışanlara yox, bütövlükdə Azərbaycana lazım idi.

Azərbaycanın haqq səsini Avropaya, dünyaya car çəkəcək bir ordu yaratmaq lazım idi

Ordu o zaman qalibiyyət ordusu olar ki, onun öz işini bilən komandiri, sərkərdəsi olur.

Vaxt gəldi, zaman yetişdi "Qarabağ"ın da sükanı sərkərdə iradəli bir şəxsə həvalə olundu.

Yorulmadan, usanmadan, addım-addım, təmkinlə irəli apardı bu komandir "Qarabağ"ı. Onun uğuru təkcə "Qarabağ" üçün deyildi, həm də Qarabağ üçün, Azərbaycan üçün idi. Hər oyuna yeni bir əməliyyata, döyüşə girirmiş kimi girdi "Qarabağ". Avropadakı oyunlarında bəzən uduzanda da dünyaya Qarabağ mesajı verdi.

Bax beləcə komandanın sükanını əlində inamla saxlayan komandir informasiya savaşında öz sözünü dedi, düşmənin acı röyasına çevirdi, "Qarabağ"ı.

Bu gün o komandirin - informasiya savaşında "Qarabağ" batalyonuna rəhbərlik edən komandirin, nisgilli vaxtlarda bu xalqın qəlbində ümid çırağının sönməməsi üçün əlindən gələni edən, klubun baş məşqçisi Qurban Qurbanovun doğum günüdür.

**Yaxşı ki, varsan Qurban Qurbanov, yaxşı ki, "Qarabağ"ın sükanı arxasındasan!!!**

**Asəf Quliyev**

## Ermənistanla dövlət sərhədində daha bir hərbi hissə fəaliyyətə başladı



**Aprel ayının 14-də Qubadlı rayonu ərazisində Ermənistanla dövlət sərhədində yeni hərbi hissə - sərhəd komendantlığı xidməti-döyüş fəaliyyətinə başlayıb.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən Trend-ə bildirilib ki, bununla əlaqədar təşkil olunmuş mərasimdə Dövlət Sərhəd Xidməti rəisinin müavini general-leytenant İlham Mehdiyev çıxış edərək yeni hərbi hissənin fəaliyyətə başlaması münasibətilə Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırmışdır.

Çıxışda ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və dövlət sərhədlərinin işğaldan azad olunmasından sonra Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq bu ərazilərdə sərhəd mühafizə bölmələrinin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili məqsədilə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılmasının davam etdirilməsi qeyd olunmuş, işğaldan azad olunmuş müqəddəs sərhədlərimizdə xidmət etməyin hər bir Azərbaycan sərhədçisi üçün böyük şərəf və qürur mənbəyi olması vurğulanmışdır.

Yeni hərbi hissənin açılışını bildirən rəmzi lent kəsildikdən sonra tədbir iştirakçıları sərhəd komendantlığının şəxsi heyətinin xidməti-döyüş fəaliyyətinin təşkili üçün yaradılmış şəraitlə tanış olmuş, o cümlədən xidməti otaqlara, kazarma və yeməkxanaya, hamam-camaşırxana, anbar, silah və texniki vasitələrə, avtomobil texnikasına baxış keçirmişlər.

**Tədbirin sonunda xidməti fəaliyyətində fərqlənmiş hərbi qulluqçular təltif olunmuşlar.**

## Putin növbəti dəfə vaksinasiya edildi



**Rusiya Prezidenti Vladimir Putinə koronavirus infeksiyası əleyhinə ikinci doza peyvənd vurulub.**

**Bu barədə Rusiya Prezidenti Rusiya Coğrafiya Cəmiyyətinin Rəyasət Heyətinin iclasında məlumat verib.**

**"Ümid edirəm ki, hər şey yaxşı olacaq. Nəinki ümid edirəm, hətta buna əminəm", - deyə V.Putin qeyd edib.**

**Rusiya prezidenti ölkə vətəndaşlarına müraciət edərək onları vaksinasiyadan keçməyə dəvət edib.**

**Rusiya dövlət başçısı məhz vaksinasiya nəticəsində COVID-19 pandemiyasının tezliklə yoxa çıxacağına ümid etdiyini bildirib.**

**MEHRİBAN**

## Səlcuq Bayrakdar Kanadanın Türkiyəyə sanksiyasına münasibət bildirib



**"Embarqo sanki yeniymiş kimi sevinənlərə söyləyirəm: yenə də Şam şeytanı (yuyulmamış qaşıq mənasına gəlir - red.) kimi təpinməyə davam edə bilərsiniz". Bunu Türkiyənin "Baykar" şirkətinin texniki direktoru, "Bayraktar" pilotsuz uçuş aparatının ixtiraçısı Səlcuq Bayraktar Kanadanın silah satışı ilə bağlı ölkəsinə tətbiq etdiyi məhdudiyyətlə bağlı tvitter səhifəsində yazıb.**

**Səlcuq Bayrakdar Kanada istehsalı olan sistemin illər əvvəl ASELSAN tərəfindən tətbiq edildiyini xatırladıb.**

**Xatırladaq ki, Azərbaycanın Qarabağ bölgəsinin işğaldan azad edilməsində "Bayrakdar"dan istifadə edilib. Bu, aparatda Kanada texnologiyası da tətbiq olunub. Kanadanın Xarici İşlər Nazirliyi "Bayrakdar"dan istifadəyə görə Türkiyəyə silah satışına dair məhdudyyət tətbiq edib.**

**MEHRİBAN**

## Qubadlıda 750-ə yaxın ağac əkilib

**IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") çərçivəsində jurnalistlərin iştirakı ilə işğaldan azad olunan Cəbrayıl və Qubadlı rayonlarında keçirdiyi növbəti ağacəkmə aksiyası zamanı ərazidə 750-ə yaxın ağac əkildi.**



Adalet.az-ın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev deyib. O bildirib ki, bu ərazilər 30 il ərzində bizim üçün əlçatmaz olub:

"Amma qəlbimiz həmişə bu torpaqlarla döyünüb. Bir həftə əvvəl Zəngilana səfər etmişdik.

Bu dəfə Cəbrayıl və Qubadlıya səfər etdik.

Məqsədimiz ondan ibarətdir ki, bu barbarların, vəhşilərin törətdikləri ekolpji terroru sizlər öz gözlərinizlə görəsiniz və dünyaya çatdırasınız".

Nazir müavini qeyd edib ki, ağac əkilən ərazidə 1970-ci illərin sonlarında böyük trut plantasiyaları olub:

"Bu diyar ölkəmizdə ipəkçiliyin, baramaçılığın inkişafı ilə bağlı münbit zəmin olan diyardır.

İl ərzində burada 100 tona yaxın barama istehsal olunurdu. Burada Şərq çinarı, palıd, tut ağacı əkildi". F. Əliyev ermənilərin törətdikləri vandalıqla bağlı beynəlxalq qurumlara müraciət edib. Bildirib ki, erməni vandalları işğal etdikləri ərazilərdə ekosit törədib:

**"Onlar bilirdilər ki, bu torpaqlar onların deyil və onlara qalmayacaq. Ona görə də burada təbiətə, ekologiyaya qarşı bu vəhşilikləri törədiblər. Bu hərəkət onu deməyə əsas verir ki, ermənilər hələ də mağara təfəkküründə qalıb, Azərbaycanın ekologiyasına qarşı da vəhşiliklər törətməkdə çəkinməyib. Beynəlxalq təşkilatlar bu cür vandallıqları qiymətləndirməlidir".**

*Mehman Cavadoğlu*

## Rusiya Ermənistana möhtac?

**Ukraynayla Rusiya arasında başlayan növbəti gərginlik dalğası nəinki səngimək bilmir, əksinə getdikcə daha da alovlanır. Donbas ətrafında və Qara dəniz hövzəsində Rusiyayla yanaşı Ukrayna və ona dəstək verən ölkələrə məxsus hərbi birləşmələrin yerdəyişmələri, müxtəlif səpgili manevrləri, eləcə də diplomatların gah yumşalan, gah da sərtləşən ritorikaları prosesin geniş miqyaslı müharibəyə çevrilmə ehtimalını gündən-günə artırır.**

**Bu gərgin günlərdə prezident Zelenskinin Türkiyəyə səfəri çox mühüm Anqaranın fəal mövqeyi hardasa onun "öz şəxsi təhlükəsizliyini qorumaq ehtiyacından doğan məcburi addım" sayılırdısa, Liviyaya, Qafqaza və Ukraynaya "giriş" artıq qardaş ölkənin böyük siyasətin əsas subyektlərindən birinə çevrilməsinin etirafı kimi səslənir.**

**Məsələ ilə bağlı Rusiya xarici işlər naziri Sergey Lavrovun açıqlamasına fikir verin: "Rusiya Türkiyə və digər ölkələri Ukraynada militarist ab-havanı qızışdırmaqdan çəkinməyə çağırır. Kiyevdəki rejim ağılsız addımlar ata bilər ki, bunun da axırı pis qurtaracaq".**

**ABŞ kimi super güc, aparıcı Avropa ölkələri, üstəlik, NATO, AB kimi dünyanın ən güclü hərbi və siyasi mərkəzləri Ukraynanın yanında qərar tutduğu bir vaxtda Lavrovun bu anti-Rusiya cəbhəsini "Türkiyə və digər ölkələr" şəklində qruplaşdırması yəqin ki, üslub yanlışlığı deyil. Bir az da dərinə getsək, xarici siyasət idarəsi rəhbərinin yüksək mənsəbli bir dövlət rəsmisi olmasına rəğmən Kremlin üslubuna da oxşamır. Heç son dövrlər yaranmış və getdikcə dərinləşən, unikal çalarlarla zənginləşən Rusiya-Türkiyə münasibətlərinin məntiqinə də uyğun gəlmir.**

**Bu iki qonşu ölkə təpədən-dırnağa zidd maraqların fonunda ortaq nöqtələr tapıb ikitərəfli münasibətləri az qala strateji tərəfdaşlıq səviyyəsinə çatdırıb. Suriyada, Liviyada dalaşa-dalaşa, Dağlıq Qarabağda danışa-danışa uğurlu əməkdaşlıq modeli tapıblar. Hərbi-iqtisadi sahədə özündə böyük geopolitik gəlişmələri ehtiva edən meqalayihələr gerçəkləşdiriblər və bu prosesi indi də uğurla davam etdirirlər.**

**Hər iki ölkənin prezidentinin zaman-zaman bir-birinin ünvanına söylədiyi ittihamlar və xoş sözlər onları günümüzün mehriban düşmənlərinə çevirib. Birinin öz müttəfiqləri, digərininsə rəqibləri tərəfindən aşırı dışlanması zorən əməkdaşlığı qaçılmaz eləyib.**

**Ukrayna prezidentinin bu gərgin günlərdə Türkiyə səfər etməsisə Rusiyadan çox Ermənistanı "narahat edib". Lavrovun yuxarıda misal çəkdiyimiz cümləsinin quruluşu da daha çox onun görəvindən yox, qanından gəlir. Erməni mətbuatının Türkiyə və Ukrayna əleyhinə növbəti kampaniyası isə Rusiyaya yarınmağın bariz nümunəsidir. Halbuki, bu səfərdə qeyri-adi bir hadisə baş verməmişdi, tərəflər ənənəvi münasibətlər çərçivəsindən kənar heç bir addım atmamışdı. Türkiyə lap əvvəldən də Ukraynanın ərazi bütövlüyünü tanıdığını müxtəlif səviyyələrdə bildirmiş, Donbasın da, Krımın da işğalının yolverilməz olduğunu bəyan eləmişdi.**

**Düzdür, indiki gərgin dövrdə Türkiyənin Ukraynaya yönəlik bu köhnə-yeni demarşı Kremldə müəyyən qıcıq yaratdığı üçün o dərhal həm Azərbaycana, həm Türkiyəyə, həm də digər vazkeşilməz tərəfdaşlarına qarşı, məsələn, pomidor qadağası kimi dəfələrlə sınaqdan keçirdiyi ucuz təzyiq vasitəsinə əl atdı. Amma təcrübə göstərir ki, bu pomidor, şərab və s. bu qəbildən olan təzyiq vasitələri, sadəcə, əsəbləri sakitləşdirmək vasitəsindən başqa bir şey deyil. Ona görə də indi Türkiyəyə qarşı tətbiq edilən turist qadağasının da ömrünün çox uzun çəkməyəcəyi şübhə doğurmur. Çünki iri strateji layihələr kimi avtoritar təfəkkürlər üçün ikinci dərəcəli hesab olunan bu cür əməkdaşlıq formatları da qarşılıqlı maraq prinsipinə əsaslanır.**

**"…Əvvəlcədən də məlum idi ki, Rusiya ilə Türkiyə arasındakı "ittifaq" (dırnaq sitat müəllifinindi-red.) qeyri-təbii idi. Bəli, biz Putinlə Ərdoğanın bir-birinin ünvanına söylədikləri xeyli komplimentlər eşitmişik. Biz həm də Əliyevin Rusiya prezidentinin ünvanına söylədiyi xoş sözləri eşitmişik. Ancaq aydın idi ki, bütün bunlar, sadəcə, zahiri hörmət əlamətiydi. Və biz mütləq Rusiyanın sözün siyasi anlamında ağlının başına gələcəyinin şahidi olacağıq".**

**Bu, "ArmenianReport" saytının "nikbin" bir müəllifinin "Rusiya-Türkiyə" və "Rusiya -Azərbaycan" münasibətlərinin gələcəyilə bağlı "proqnoz-arzusu"du.**

**Bunu əsaslandırmaq üçünsə ən böyük tutarqası Vladimir Zelenskinin Anqara səfəri və İlham Əliyevin "İskəndər" raketləriylə bağlı Rusiyadan izahat istəməsidi. Halbuki, yuxarıda da dediyimiz kimi bu səfərdə ənənəvi münasibətlərdən kənar elə bir yeni gəlişmə olmamış, İlham Əliyevin "İskəndər-M" raketiylə bsğlı gec-tez Rusiyadan izah istəyəcəyini elə rus ekspertlərinin özü, o cümlədən sözü gedən yazıda müəllifin informasiyalı şəxs kimi sitat gətirdiyi Aleksey Venediktovun özü söyləmişdi.**

**Bütün bu "romantik" şərhin "məzəsi" isə əlinə qələm alan hər bir erməni yazarı kimi sözünə "qədim Roma"dan başlayan müəllifin sonda gəldiyi qənaətdi: "…Rusiya birdəfəlik başa düşməlidi ki, "Arcax"da (dırnaq bizimdi-red.) müharibə ona qarşı müharibəydi. Onun Ermənistandan başqa müttəfiqi olmayıb, yoxdu və heç vaxt olmayacaq. Odur ki, onu özünü müdafiə etdiyi kimi müdafiə eləməlidi".**

**Xatırladaq ki, yazının dərc edildiyi sayt sırf Qərbyönümlüdü və hər fürsətdə Rusiyanı sərt şəkildə tənqid eləyir, onun Ermənistanın müstəqilliyinə və inkişafına ciddi təhlükə sayır, hətta rus qoşunlarının ordan çıxarılmasını da vacib sayır. Məğlubiyyətdən sonra ara-sıra ünvanına tənqidlər səsləndirsə də Paşinyanı Qərbçi baxışlarına görə müdafiə eləyir.**

**Amma işin "əmması" bu deyil. Tutalım, rus siyasətini müəyyənləşdirənlər Ermənistanı özlərinin yeganə, həm də əzəli və əbədi müttəfiqi elan edir və bütün dünyaya qarşı cəbbəxana açır. Bəs, Ermənistan onun hansı yaralı barmağına "əlac" eləyəcək. Müttəfiqlik kimlərisə boynuna yük eləmək üçün yox, qarşılıqlı maraqlar ətrafında qurulur, Pulu yox, silahı yox, geopolitik mövqeyi yox, qədim Romayla bəhs eləməkdən aşağı iddiaları da yox. Rusiya Ermənistana olsa-olsa vassal kimi baxa bilər və elə də baxır. Özü də itaətkar vassal kimi. Ermənilərsə, bir tərəfdən qırsaqqız olub süzerenin ətəyindən yapışır, digər tərəfdən də ruslar və rus mədəniyyətiylə bağlı nə varsa hamısını yox edirlər. Elə saytdakı həmin yazı dərc edilən günlərdə ölkədə daha bir antirus aksiyasının keçirilməsi, metro stansiyalarından rus dilindəki yazıların ləğv edilməsi də bunun son nümunəsidi.**

**Görünür, vassalını xəbəri yoxdu ki, Putini bir çox avtoritar liderlərdən fərqləndirən ən mühüm keyfiyyət təkcə başında durduğu dövlətin hərbi, siyasi və geopolitik maraqlarını yox, həm də rus dili və mədəniyyətini qorumaq, təbliğ eləmək, geniş yaymaq istəyidi. Xüsusilə hələ də "özününkü" saydığı postsovet məkanında.**



*Eminquey*

## Ramiz Rövşən üstündə dalaşanlar

*Yazımı çoxdanın, bəlkə də hamınızın bildiyi lətifə ilə başlamaq istəyirəm ki, yazının sonrakı hissəsinə şirinlik qatsın.*

*İki adam dalaşır. Polislə molla bunları izləyir. Polis istəyir ki, gedib bu dalaşan adamları aralasın, molla polisin qolundan tutub saxlayır:*

*- Mənim balam, ayaq saxla.*

*Polis dayanır. Biraz keçir, dözmür, yenə getmək istəyəndə molla qolundan tutub saxlayır:*

*- Mənim balam, demədim, getmə.*

*Bu dəfə polis əsəbi halda:*

*- Molla əmi, niyə də, niyə? Bu dəqiqə bir-birilərini öldürəcəklər.*

*Molla saqqalına tumar çəkib:*

*- Səbr elə, mənim balam, səbr elə.*

*Bu dəm adamlardan biri bıçağı çıxarıb o birini vurur.*

*Polis təlaş içində:*

*- Molla əmi, niyə qoymadın gedib ayırım? Bu o birini öldürdü axı?!*

*Molla qımışa-qımışa:*

*- Bax, mənim balam, ruzini verən Allahdır, niyə Allahın işinə mane olursan? Bu o birini öldürdü, lap yaxşı. Ölən mənim ruzimdir, öldürən sənin. İndi get, neynirsən elə!*

*İndi bu lətifədə dalaşan adamlardan bir tərəfdə Orxan Saffaridir, o biri tərəfdə Ulucay Akifə Nadir Rzalı. Polis də mənəm, molla da. İşin elə qəribə tərəfi də budur. Bu iki pullu peşəni arıq bədənimdə necə gəzdirim, bilmirəm.*

*Söz-söhbət Orxan Saffarinin Ramiz Rövşən haqqında "lağ-lağı" yazısından sonra meydana gəlib. Hər üç yazını oxumuşam.*

*Əvvəla bir polis baxışı ilə deyim, yaxşı olardı ki, ədəbi mühitdə bu cür münaqişələr olmasın, ictimai asayişə riayət olunsun. Amma olmur. Dünyada hər növ adam olduğu kimi ədəbi mühitimizdə də hər növ adam var.*

*Açığı, mən dəfələrlə bir masada elə Ulucayın, Nadirin, Orxanın özünə də demişəm. Ki, belə yazılar zaman itkisidir. Dəxi neynək, sözləri çap gəlib də.*

*Vətəndaş Orxan Saffari.*

*Bu, onun tutduğu ilk "xuliqanlıq" əməli deyil. Dəfələrlə kimlərəsə sataşıb, dalaşıb və bunun üstündə tutub gətirmişik hüzurumuza. O, təkcə yazılarında yox, elə gündəlik həyatında da bu ideya ilə yaşayır.*

*Əminliklə deyə bilərəm ki, vətəndaş Orxan Saffarinin yazı üslubu tənqid yox, təhqirdir və o, özü bundan boyun qaçırtmır. Özü də etiraf edir ki, onun tənqidi yazmağa nə başı var, nə də qələmi. Öz həyati təcrübəsindən və yaşından çıxış edib adamlarla yalnız məzələnə bilər. Bu səbəbdən də Ramiz Rövşən haqqında yazdığı yazıda Ramiz Rövşənin şeiriyyatına dediyi sözlər havada qalır və haqlı olaraq da digərlərinin - yəni Nadir Rzalının, Ulucay Akifin və eləcə də oxucuların allergiyasına səbəb olur.*

*Vətəndaş Nadir Rzalı və Ulucay Akifin yazıları Orxan Saffarinin "lağ-lağı"sı, təhqiri müqabilində daha tutarlı, daha mədənidir. Onlar sevdikləri şairlərin müdafiəsinə qalxıblar. Və ya haqsız edilən təhqirə. Və yaxud da Ramiz Rövşənlə xüsusi bağları olduqlarına görə.*

*Bu yaxınlarda rastıma çıxmışdı, Ramiz Rövşənə Ulucayın şeirini oxumuşdular, o da (açığı buna çox təəccübləndim, çünki Ramiz Rövşənin dilindən gənc nəsil haqqında üç-dörd sözlük bir yaxşı cümlə eşitməmişəm) tərifləmişdi. Ola bilər, Ulucay Akif Ramiz Rövşənə həm də vəfa borcunu ödəyir.*

*Vətəndaş Nadir Rzalı da aşağı-yuxarı Ulucayla eyni şeyi yazıb və eyni mövqedədirlər. Ki, Ramiz Rövşən haqqında yazı yazmısan, amma bircə dənə də olsun arqumentin yoxdur. Bu vətəndaşların müzakirəsi (əslində bir-birilərini ittiham etməsi, təhqir etməsi) hələ də yazıdan qıraqda davam edir. O bunu yaltaq adlandırır, bu onu.*

*Bu üç adamın üçü də şeir yazırlar. Bu üç adamın üçü də yeri gələndə bir masa ətrafında bir çörəyi bölüşürlər, bir fikri bölüşə bilməsələr də. Bu üç adamın üçü ilə də təxminən eyni ladda münasibətim var. Və bu üç adamın üçü də hal-hazırda mənasız bir işlə məşğuldurlar.*

*Birincisi, Ramiz Rövşən o qədər "gücündən" yıxılıb ki, hələm-hələm başı kəsik kötüklər onun boynunun altına yastıq ola bilməz. Onun haqqında mən də bir neçə dəfə yazmışam, yazdıqlarımın altından imzamı götürmürəm. Yazmışam! Amma yazmışam da, təhqir etməmişəm.*

*Ramiz Rövşən bundan sonra nə qədər medal alsa da, yazdığını yazıb, dediyini deyib, sevilib, oxunub. Bu gün arxivdə bizə nostalji yaşadan, ləzzət verən televiziya tamaşalarında, filmlərdə Ramiz Rövşənin imzası var.*

*Orxan Saffari etiraz istəyirsə, məsələn, "Ac həriflər"ə, "Şəbih"ə, "Özbaşınalıq"a baxsın. Məsələn, "Nə hirslə oxuyur bu quş", "Dərd" şeirlərini oxusun. Ramiz Rövşənin 2000-lərin əvvəlində seçkilərdəki çıxışlarına qulaq assın. Adam illərlə efir qadağası gördü, mükafatlardan məhrum qaldı, başqa neyləməlidir? Ömrünün 74-cü baharında mitinq təşkil etməlidir? Siyasətlə məşğul olmalıdır? Adam şairdir, şair.*

*Və Ramiz Rövşəni tənqid edən və tərəfini tutanlar da şeir yazır, yazı-pozu əhlidir. Ramiz sizi niyə narahat edir? Xalq sevir? Sevir. Bu sevgi sizdən nə alır? Ramiz Rövşəni sevən nə qədər oxucu tanıyıram ki, məni oxuyur, sevir, kitabımı alır. Bunda mənim nə zərərim var?*

*Öz işığınız varsa, ona güvənin, başqalarının işığına çöp soxmaqla nəsə əldə olunmur. Ədəbi mühitdə "n" qədər müti adam var, niyə o adamları təhqir etmirsiniz? Ona görə ki, Ramiz Rövşən qədər məşhur deyillər? Ona görə ki, istədiyiniz vaxt tapıb bir çay içə bilirsiniz?*

*Həqiqət budur ki, bu söz-söhbətin heç bir yerində Ramiz Rövşən yoxdur. Nə Orxanın yazısında, nə ona yazılan cavablarda, nə də... Hə, Ramiz Rövşən öz yerindədir, heç bu tərəflərə qulağını belə vermir. Dostlara bir gün bu məqamı arzu edirəm, o zaman əl çəkəcəklər belə söhbətlərdən.*

*Hələliksə, polisliyimdən əl çəkib bu uşaqların belə şeylərə vaxt itirməyinə və belə bir yazı yazdığıma özümə təəssüf edirəm. Bu yazını yazana kimi birtəhər də olsa, bir kitabımı sata bilərdim.*

*Bir Molla kimi bu söz-söhbətin "Fatihə"sini oxumaq da mənim boynuma düşür. Hər üçündən də yaşca böyüyəm, yəqin dinləyərlər.*

*Xülasə, yuxarıdakı lətifəni boş-boşuna misal çəkmədim. Siz nə qədər ki, bu cür bayağı, öz yaradıcılığınıza xeyir verməyən söhbətlər edəcəksiniz, həmişə o dava-dalaşdan hansınızsa ölü çıxacaqsınız.*

*Və adamlar da sadəcə, ya polis kimi, ya da molla kimi qıraqdan sizi seyr edəcəklər.*

*Sonda biriniz mollanın, biriniz də polisin ruzisi!*

# PİYADALAR HƏYATLARINI TƏHLÜKƏYƏ ATIRLAR

## Qaydaları pozan 96 piyada barəsində inzibati protokol tərtib edilib

**Hər bir hərəkət iştirakçısı evdən çıxıb harasa gedəndə bir şeyi dərindən düşünməlidir: mən işə sağ-salamat gedib, işdən də evə salamat qayıtmalıyam! Yəni bunu düşünən və yaddaşında saxlayan hər bir piyada təbii ki, elə istədiyi kimi də günü başa vuracaq. Amma nə etmək olar ki, bəzi piyadalar bu barədə çox bəsit düşünür və hətta sürətlə gələn avtomobillərə məhəl qoymur və onların hərəkət etdiyi yerdən qaça-qaça keçməyə cəhd edirlər. Təbii ki, bu da bir çox halda ölümlə nəticələnən və ya xəsarətlə bitən hadisəylə qurtarır.**

Təsadüfi deyil ki, xeyli vaxtdır Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmriylə hərəkətin təhlükəsizliyi ilə bağlı respublikanın bütün şəhər və rayonlarında yol polisinin gücləndilirmiş iş rejimində fəaliyyət göstərməsi, kobud qayda pozuntularına qarşı mübarizənin daha da geniş vüsət alması və eləcə də digər hərəkət iştirakçıları üçün təhlükə törədə biləcək halların aradan qaldırılması üçün xüsusi tapşırıq verilib.

### Bu tapşırıq

***bütün polis orqanları tərəfindən və o cümlədən yol polisi tərəfindən diqqət mərkəzində saxlanılıb və hər gün demək olar ki, həm şəhərlərdə, həm də qəsəbələrdə hərəkətin təhlükəsizliyi ilə bağlı yol polisi reydlər keçirir.***

Əlbəttə, kobud qayda pozuntusu deyəndə ilk növbədə avtoxuliqanlar, sərxoş sürücülər və eləcə də qaydaları davamlı olaraq pozan digər intizamsız insanlar yada düşürlər. Bununla yanaşı, cənab nazirin əmrində piyadaların təhlükəsizliyi ilə bağlı və eləcə də "Dayanma" "Durma" qaydalarının pozulması və digər məsələlər də diqqət mərkəzində saxlanılıb. Bayaq dediyimiz kimi, hərəkətin təhlükəsizliyi ilə əlaqədar artıq bir həftədən çoxdur ki, həm Bakı şəhərində, həm də rayonlarda reydlərə start verilib.

Abşeron rayonu da Bakının bir addımlığında yerləşir. Daha doğrusu, Xırdalan yaşayış sahəsi şəhər statusu alandan sonra burada həm əhalinin sayı artıb, həm də nəqliyyat vasitələri əvvəlki vaxtlara nisbətən daha da çoxalıb.

### Nəqliyyat vasitələrinin çoxalması

hərəkətin intensivliyini artırmaqla yanaşı, bir çox problemlərin də baş verməsinə şərait yaradır. Ona görə də Abşeron rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsinin üzərinə bu mənada böyük məsuliyyət düşür. Başqa sözlə demiş olsaq, Xırdalan şəhərində də digər yaşayış sahələrində hərəkətin təhlükəsizliyinin təmin edilməsi çox önəmli əhəmiyyət kəsb edir.

Hərəkətin təhlükəsizliyini təmin etmək üçün isə yol polisi şöbəsi birmənalı olaraq 24 saat işləməli, mövcud problemlərin vaxtında aradan qaldırmalı və hərəkət iştirakçılarının təhlükəsizliyini təmin etmək üçün qabaqlayıcı tədbirlər görməlidir.

***Əlbəttə, ilk növbədə mövcud qanuna, yəni "Yol hərəkəti haqqında" Qanuna həm sürücülər, həm də piyadalar əməl etməyə borcludular. Aydındır ki, əgər yol hərəkəti qaydalarına hamı əməl etsə, nə qəzalar baş verər, nə də bu qəzalar zamanı ölənlər və xəsarət alanlar olar. Amma hadisələr isə göstərir ki, hər yerdə olduğu kimi, bu rayonda da həm sürücülər, həm də piyadalar mövcud qaydalara əməl etmirlər. Və nəticədə dediyimiz həmin hadisələr baş verir.***




Artıq Abşeron Rayon Dövlət Yol Polisi Şöbəsi bir həftədən çoxdur ki, müxtəlif qayda pozuntularına qarşı reydlərə başlayıb.

***Bu reydlər Heydər Əliyev prospektində, Mehdu Hüseynzadə, Nizami küçələrində və eləcə də Novxanı-Binəqədi yolunda keçirilib. Piyadalarla bağlı keçirilən bu reydlərdə 96 qayda pozuntusuna yol verən hərəkət iştirakçısı barəsində inzibati protokol tərtib edilib. Onu da qeyd edək ki, reyd zamanı çoxlu sayda qaydanı pozan piyadalar maarifləndirilib, onlarla səmimi söhbətlər aparılıb.***

### Bu söhbətlər zamanı

hərəkət iştirakçılarının diqqətinə çatdırılıb ki, yolu keçərkən təyin olunmuş yerdən istifadə eləsinlər, avtomobillərin hərəkət etdiyi yerdən keçməsinlər. Abşeron Rayon Dövlət Yol Polisi Şöbəsinin baş inspektorları, polis baş leytenantı Tural Şəkərov və polis baş leytenantı Amil Səmədov bu cür piyadalarla səmimi söhbətlər edərkən bir daha onlara diqqətli olmalarını məsləhət bilib. Əlbəttə, bir çox piyadalar yol hərəkəti qaydasını pozduğunu etiraf edib və təkrarən belə qayda pozuntularına yol verməyəcəklərini bildiriblər. Üstəlik də onların təhlükəsizliyini qoruyaraq dəyərli məsləhətlər və tövsiyələr verən polis əməkdaşlarına öz minnətdarlıqlarını bildiriblər. Aydındır ki, yol polisilə hərəkət iştirakçıları arasında səmimi münasibətin yaranması çox önəmlidir.

Bu mənada hər iki tərəf bir-birini anlayır və bir-birinə hörmətlə yanaşır.



### Şöbənin əməkdaşları

***"Dayanma" və "Durma" qaydalarını pozulması ilə bağlı reyd də keçiriblər. Heç kimə sirr deyil ki, bir çox sürücülər həm də yol nişanlarına məhəl qoymur, avtomobilləri harda gəldi saxlayırlar. Məsələn, yol nişanında göstərilir ki, filan yerdə dayanmaq qadağandır. Amma bir də görürsən ki, qadağanedici nişanın yanında avtomobil saxlanılıb. Elə şöbənin əməkdaşları da keçirilən reyd zamanı "Dayanma" və "Durma" qaydalarını pozan 108 sürücü barəsində inzibati protokol tərtib edib. Üstəlik də qaydanı pozan bir neçə sürücü ilə maarifləndirici söhbətlər aparılıb.***

Dünən isə Abşeron Rayon Dövlət Yol Polisi Şöbəsi əməkdaşları təhlükəsizlik kəmərindən istifadə etməyən, işıq siqnallarını yeri gəldi-gəlmədi yandıran və eləcə də qaydaları pozub qəza vəziyyəti yaradan motosiklet və eləcə də mopedləri idarə edərkən təhlükəli şərait yaradan sürücülərə qarşı reydlər keçirib. Bu reyd zamanı da kifayət qədər qayda pozuntusu aşkar edilib. Və həmin sürücülər də təbii ki, inzibati məsuliyyətə cəlb olunublar. Abşeron Rayon Dövlət Yol Polisi Şöbəsinin rəisi, polis kapitanı Cəmin Abasov görülən işlərlə bağlı bir daha bizə məlumatlar verdi. Rəis bildirdi ki, cənab nazirin imzaladığı əmr polis idarəsinin rəisi tərəfindən diqqət mərkəzində saxlanılıb və bu barədə bizə bir daha konkret tapşırıqlar verilib. Həmin tapşırıq da ondan ibarətdir ki, bütün kobud qayda pozuntularına qarşı, eləcə də piyadaların təhlükəsizliyi ilə əlaqədar mübarizəni daha da gücləndirməliyik. Artıq hər gün rayon ərazisində reydlər keçirilir. Bu reydlərə KİV əməkdaşları və televiziyalar dəvət olunur. Bu da onunla bağlıdır ki, yol polisinin gördüyü işlər ictimaiyyətə çatdırılır.

### Və cəmiyyət də görür ki,

yol polisi hərəkətin təhlükəsizliyi üçün öz üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir. Təkcə yol polisi ilə qayda pozuntularının qarşısını tamamilə almaq mümkün deyil. Bu işdə KİV-lərin və televiziyaların çox böyük köməyi var. Və bununla yanaşı, digər bir məsələ ondan ibarətdir ki, hərəkət iştirakçıları da məsulıiyyətli olub, qaydalara əməl etməlidilər. Sizi inandırım ki, hamımız bir yerdə olsaq, baş verə biləcək qəzaların və hadisələrin sayı minimum həddə enə bilər.

**Göründüyü kimi, Abşeron rayonunda və eləcə də Xırdalan şəhərində hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün yol polisi bütün maarifləndirici tədbirləri vaxtında həyata keçirir. Çünki bu qabaqlayıcı tədbirlərin gerçəkləşdirilməsi hərəkətin təhlükəsizliyi üçün ən yaxşı çıxış yolu və maarifləndirici bir məqamdır. Bu məqamı birmənalı olaraq hər bir hərəkət iştirakçısı dəyərləndirməli, özünün də digərinin həyatını mövcud təhlükədən xilas etmək üçün qaydalara əməl etməlidir.**

**Faiq QİSMƏTOĞLU**



*Rauf Qərib Alagöz*

## Müsəlmanları ikiyə bölürlər, sonra kənarda düşmən axtarırlar

### *İLLƏRDİR MƏNİ BİR MƏSƏLƏ DÜŞÜNDÜRÜR*

**İranla Türkiyə arasında 1 saat yarım fərq var və Azərbaycan ikisinin arasında qalırsa, biz Ramazana nə vaxt başlamalıyıq?**

Ümumiyyətlə niyə bütün müsəlmanlar Ramazana eyni gündə başlamır?

Arada 12 saat fərq yoxdur ki, deyəsən orda ay 1 gün sonra göründü, burda 1 gün tez. Aradakı 1 saat 1 gün fərqə necə səbəbiyyət verə bilər?

Nə edək biz?

Hansı düzdür?

Əvvəlcədən proqnoz verən Astronomiya, yoxsa mollaların ayı gözlə görməsi?

O deyir o səhvdi, bu deyir o səhvdi.

Ona görə də mən hər il Ramazana Türkiyə ilə başlayıb İranla bitirirəm ki, nə ondan olsun, nə bundan. 1 gün artıq tutaram, ən azından səhv etməmiş olaram.

**Özləri müsəlmanları ikiyə bölürlər, sonra kənarda düşmən axtarırlar.**

## *Türkiyə yeni raketini uğurla sınaqdan keçirib*



**Türkiyə "hava-hava" raketini uğurla sınaqdan keçirib.**

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tvitter səhifəsində yazıb.

"Türkiyə "hava-hava" raket texnologiyasına sahib azsaylı ölkələrdən biri olmağı bacardı. Gənc texnoloqlarımız və mühəndislərimizin GÖKTUĞ layihəsi çərçivəsində inkişaf etdirdikləri "hava-hava" raketimiz BOZDOĞAN ilk atəşdə hədəfi tam vurdu", - o deyib.

**MEHRİBAN**

## *"Rusiya III Dünya müharibəsi başlada bilər"*



***Kreml başa düşməlidir ki, Ukraynanın daha çox ərazisini ələ keçirmək üçün Rusiya qoşunlarının yeni bir hücumu III Dünya müharibəsinə səbəb ola bilər.***

***Bu açıqlama ilə Donbasla bağlı üçtərəfli təmas qrupundakı Ukrayna nümayəndə heyətinin rəhbəri Leonid Kravçuk çıxış edib.***

***"Zelenskinin sözlərini eşitdim, Ukraynanın təcavüzü dəf etməyə hazır olduğunu söylədi. Məsələ burasındadır ki, yeddi il üçün hazır olduğunu dedi. Ancaq Rusiyanın nə zaman təcavüzkar ritorikasını reallaşdıracağını söyləmək çətindir. Rusiya birbaşa Ukraynanın suverenliyini təhdid edir. Hər şeyə hazır olmalıyıq.***

***Müharibənin sabah başlayacağını söyləmək mümkün deyil, amma belə ritorika ilə sərhədə bu qədər qoşun cəmləşdirməsi və Donbasdakı aqressiv hərəkətlərinə hazır olmalıyıq", - Kravçuk qeyd edib.***

**MEHRİBAN**

# Xeyirxah insan



**Yaşadığımız bu fani dünyada özündən sonra yaxşı ad, yadda qalacaq xatirə qoymaq hər insana qismət olmur. Sağlığında hörmət və ehtiram qazanan, ən başlıcası isə cismani yoxluğundan sonra çoxlarının xatirələrində yaşayan şəxslərdən biri də Xızı rayon Ağsaqqallar şurasının fəal üzvü Havadar Gülverdi oğlu Cəbiyev idi.**

Havadar Cəbiyev 1932-ci ildə Xızı rayonunun Zərgərli kəndində anadan olmuşdur.

Elə kənddəki IV illik məktəbi bitirmişdir. 1941-1945-ci illər müharibəsində onların da ailəsi çox əzab -əziyyət çəkmişdir. Atası Gülverdi kolxozda işləməklə böyük ailəsini güclə dolandırardı. Havadar dayı danışardı ki, müharibə vaxtlarında atama köməyə gedərdim, hamı kimi mən də taxıl biçimində , dəyirmanda çalışardım.

Havadar dayının şən zarafatlarından , şirin söhbətlərindən doymaq olmazdı. Onun musiqiyə-muğamata böyük marağı vardı. Bütün ifaçıları səsindən tanıyardı. Hər iki gözü tutulsa belə hamını səsilə tanıyardı.

Keçən il Havadar dayının ailəsində ağır itki oldu. Ömür gün yoldaşı Solmaz xanım dünyasını dəyişdi. Onun qəfil ölümü ailəsi üçün , onu tanıyanlar üçün çox ağır itki idi. Baxmayaraq övladları , nəvələri onun qulluğunda dayanır, amma Solmaz xanımın itkisi ona çox təsir edirdi.

Sonuncu dəfə onunla noyabrın 8-də telefonla əlaqə saxladım. Torpaqlarımızın işğaldan azad olunmağı münasibətilə onu təbrik etdim, onunla hal-əhval tutdum. Dedi ki, bərk darıxıram, televizordan yaxşı təzə xəbərlər eşidəndə biraz əhvalım yaxşılaşır.

Xızı rayonunda böyükdən kiçiyə hamı onu xeyirxah insan kimi tanıyardı. Elə xeyir-şər məclisi olmazdı ki, Havadar dayı orada iştirak etməsin. Xızı rayonu Ağsaqqallar şurasının ən fəal üzvü kimi rayonda keçirilən ən mötəbər tədbirlərdə yaxından iştirak edərdi, öz məsləhətlərini verərdi.

**Havadar dayı həmdə çox qonaqpərvər adam idi. Xüsusilə yay mövsümündə Bakıdan və digər yerlərdən onun evinə gələn qonaqların sayı-hesabı olmazdı. Oğlu Cəbi də atası kimi çox hörmətcil adamdır, qəlbi təmiz, saf adamdır. Mən həmyerlim Hacı Rəhimlə tez-tez bu evin qonağı olmuşam. Həmişə də bu ailədən böyük hörmət görmüşəm. Cəbigilin həyətyanı sahəsi çox gözəldir, yay vaxtlarında burada istirahət etməyin xüsusi yeri var. Havadar Gülverdi oğlu mənalı ömür yaşadı. Ömrünü ailəsinə, nəvələrinə həsr etdi. Ən dar anında Tanrıdan kömək istədi, ona əl açdı. Elə ona görə də Tanrı ucalığına yol tapdı . Tanrının sevimli bəndəsi kimi hər zaman ucalıqlarda qalacağına əmin oldu və bu əminliklə də bizləri tərk etdi. Allah rəhmət eləsin, ruhu şad olsun.**

**Ruhuna dərin ehtiramla**

**Elşad Qasımov,**
**"Cabir Novruz" Mədəniyyət Fondu mətbuat xidmətinin rəhbəri**
**AJB-nin üzvü**



ŞÖHRƏT EYVAZOV

# "Yarımçıq qalmış oyun"

***Ekranda yazılır: 26 fevral 1992-ci il***

***Hadisə Xocalıdan Ağdama gedən yolda olan meşədə açıq talada baş verir. Azərbaycanlıları əsir alan erməni silahlılarının bir qrupu şahmat damasını xatırladan kvadrat yerlər qazırlar. Mayor Şahnazəryan Samvellə söhbət edir.***

**Şahnazaryan:** Bilirsən buranı niyə qazdırıram? (Yaralanmış Vaqifi göstərir) Bax o zabiti görürsən? Onunla mən Rusiyada Milis akademiyasında bir oxumuşuq. Zalım oğlu yaman şahmat oynayırdı. Mən hamını udurdum, o da məni... Axırıncı yarışda da onnan oynadım, gördüm uduzuram, hirsimdən fiqurları vurub dağıtdım.

Samvel ətrafa boylanır, torpaqda qazılmış şahmat taxtasını xatırladan kvadrat yerlərə diqqətlə baxır.

**Samvel:** İndi neyləyəcəksən? Yenə də şahmat oynayacaqsınız?

**Şahnazaryan:** Hə, canlı şahmat. Onda az qala qovurdular məni Milis akademiyasından, (yenə Vaqifi göstəriri) məni satmadı. Dedi ki, əli dəyib dağıtdı fiqurları. Məğlub oldum o vaxtki şahmat yarışında Vaqifə. İndi isə qalibəm. Noyambeyran rayonunda rahat rəis kabinetimi qoyub gəlsəmdə, onu əsir almışam. Vaqif Xocalının milis rəisidir,(qımışır) rəisiydi.. (ikrahla əli bağlı azərbaycanlı döyüşçüləri göstərir) 5-6 silahları vardı, onlar da içi boş idi. Elə bil ki, kinoya çəkilirlər.

Şahnazaryan və Samvel gülüşürlər.

**Samvel:** Birdən yenə uduzarsan?

**Şahnazaryan:** *(hirslə)* İndi uduzmaq olar? O, artıq oyuna başlamamış uduzub. Tək Vaqif yox, bütün turklar bu oyunda uduzub. Axı, Qarabağ müharibəsi də bir şahmat oyunudu.

**Samvel:** Düz deyirsən. Turkların başı piyadalarını vəzirə çevirməyə qarışıb. Fərqimiz də bundadır: bu turklar özləri ilə şahmat oynayır, bizsə onlarla! Onlar bir-birlərini udurlar, bizsə onları uduruq!

*(şahmat lövhəsinə bənzər yerləri işarə edərək)* Yaxşı, şahmat taxtasını gördük,bəs fiqurlar hanı?

**Şahnazaryan:** *(Azərbaycanlı yaralıları göstərir)* İndi bunlar hamısı fiqurdu da... *(qəh-qəhə çəkir)* Hər halda çoxdurlar - canlı şahmat oynamağa yetər.

Vaqifin yanına çatırlar.

**Şahnazaryan:** Kursant Vaqif Qasımov, bağışla, karıxdım, *(istehza ilə)* yoldaş mayor, keçmiş illəri yada salaqmı? Canlı şahmat oynayaq? Sizə nə fərqi var kı, onsuz da elə bil ölmüsünüz. Amma oyunu udsan sağ qalan "fiqur"larını götürüb, gedərsən... *(gülür)*

**Vaqif:** *(zorla)* Sizin özünüz də kimlərinsə əlində bir fiqursunuz... Amma elə bilirsiniz ki, özünüz oynayırsınız.

**Şahnazaryan:** *(gizlədə bilmədiyi həsədlə)* O vaxtda beləydin - iddalı və məğrur. İndi görəciyik, iddanı əlindən almışam, qalıb məğrurluğun. *(erməni silahlılarına tərəf dönür, azərbaycanlıları işarə edərək qışqırır)* Düzün fiqurları. *(əliylə Vaqifi göstərir)* Şahın yerinə bunu qoyun, qalanlarını özləri bilər.

Erməni silahlıları əsirləri şahmat damasına bənzər yerlərə düzürlər. Oğlunu tapmayan Sevda dayanmadan öz-özünə "Turan" adını pıçıldayır.

Ekranın sol güncündə L.Ter-Petrosyanın şəkli görsənir.

Aşağıdakı ifadə ermənicə deyilir və azərbaycanca yazılır.

"Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qutarana və orada öz sivilizasiyanızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir" L.Ter-Petrosyan

Ekranda yazılır: ***"...anamı güllələdilər, qızlarım Sevinc və Hicranı yaraladılar, güllə mənə də dəydi, gənc qadınlar və uşaqlar qarın üstündə ölürdülər"*** Sənubər Ələkbərova, Xocalı sakini

***II səhnə***

***Ekranda yazılır: 23 fevral 1992-ci il***

Xocalıda kapitan Əliyevin evi. Neft lampası otağı güclə işıqalndırır. Sevda öz-özünə danışır.

**Sevda:** Görəsən bu harda qaldı? Gecə yarı olub, hələ gəlməyib. Axı, bu gün gəlməliydi.

**Turan:** *(otağa gəlir)* Ana, atam niyə gəlmədi? Onsuzda o həmişə belə eləyir.

**Sevda:** Sən hələ yatmamısan? Get yat, gələndə oyadaram.

**Turan:** *(yaşına yaraşmayan ötkəmliklə)* Yox, yuxum gəlmir. Atamnan işim var. Həmişə deyir sənə avtomat atmağı öyrədəcəm, öyrətmir.

**Sevda:** *(oğlunun başını sığallayır)* Turan, sən axı hələ balacasan. Avtomat sənin üçün tezdi, oğlum.

**Turan:** Eeeey, ay ana, odey Əli dayının oğlu Səməd...

**Sevda:** Nə Səməd, döyüşür, yoxsa avtomat atır? Sənin indi dərs oxuyan vaxtındır.

**Turan:** Məktəbimizi "qrad" snaryadı dağıdıb da...

Qapı açılır, kapitan Əliyev çinində avtomat içəri daxil olur.

**Turan:** ***(atasına tərəf qaçır)*** Atam gəldi!

**Telman:** Ay mənim qoçaq oğlum, kişi balam. *(Turanı öpür)*

**Sevda:** Ay allah, gəldin, şükür Allaha!

**Telman:** Vəziyyət ... *(Turanın ona diqqətlə baxdığını görüb, sözünü yarımçıq saxlayır)* Get oğlum, get yat, artıq gecdir. *(Turan o biri otağa keçdikdən sonra yavaş səslə davam edir)* Vəziyyət yaxşı deyil. Ermənilər yaman qudurub. Bu tək onların işi deyil. Bu dığalar Xankəndindəki 366-cı alaya güvənirlər. Ey, nə fərqi, ya burdakı erməniyə satılan rus, yada erməni.

**Sevda:** Telman, sən allah ürəyimi qoparma, onsuz da ürəyimiz üzülüb...

**Telman:** Yox, daha qorxmaqdan keçib. Vəziyyət gərgindir, Bakıdan da bir xəbər yoxdu. Bir aydı vertolyot da gəlmir. Kömək gələsydi, hələ də gəlib çıxmayıb. Hava əlaqəsi də kəsilib...

**Sevda:** *(lap astadan tələşla deyir)* Telman, bəlkə Turanı Ağdama göndərək?

**Telman:** Nə danışırsan? Camaat nə deyər? Mən ki döyüşçüyəm! Mən oğlumu burdan çıxartsam, camaatın olan-qalan inamı da itər.

**Sevda:** Axı, Bakıdan nə deyirlər?

**Telman:** Heç özləri bilirlər ki, nə deyirlər? Yaman yerdə axşamlamışıq... Bizim işimiz Allaha qalıb.

**Turan:** *(otağa qayıdır)* Ana, yuxum gəlmir, çay istəyirəm. Həm də o otaq soyuqdur

**Telman:** *(gülərək Turanı özünə tərəf çəkir)* Sənin susamağını bilirəm. Yaxşı, gəl otur yanımda.

**Turan:** Ata, mənə müharibədən danış.

**Telman:** Nə danışmaq, oğlum, müharibə çox pis şeydir, amma başqa yolumuz yoxdur.

**Turan:** Bəs mənə avtomat atmağı nə vaxt öyrədəcəksən. *(dodağını büzərək ərköyünlüklə gileylənir)* Axı söz vermişdin ...

**Telman:** Oğlum, bu dəmir parçası çox təhlükəlidir.

**Turan:** Ata, təhlükəldirsə sən onu niyə gəzdidirsən?

**Telman:** *(qımışaraq)* Deyəsən, sənə avtomat atmağı öyrədəcəm.

**Sevda:** Telman, sən Allah qoy dursun, uşağın əlindən xata-zad çıxar.

Telman avtomatı götürür, güllə darağını çıxarıb boşaldır, silahı yoxlaya-yoxlaya Turana başa salır.

**Telman:** Hə oğlum, bax, bunu belə edirlər. Bunu belə çəkirlər, hazır olur.Sonra qoruyucunu açıb, tətiyi çəkirlər.

**Turan:** *(sevincək)* Hə! Ata, artıq bildim... Qoy məndə edim.

Turan boş daraqla avtomat atmağı yoxlayır.

**Telman:** Ay mənim qoçaq oğlum! Mən deyirəm kişisən, anan deyir uşaqdı - əlindən xəta çıxar. Hə, indi siz gedin yatın, mən də Hüseyn dayıgilə dəyib gəlirəm. Asifin salamın çatdırım.

Telman çıxanda Hüseyn dayıyla rastlaşır.

**Hüseyn dayı:** Axşamız xeyir! Gördüm sizdən səs gəlir, bildim ki, gəlmisən...

**Telman:** Hə, Hüseyn dayı, biraz olar gəlmişəm. Xanım xala necədi? Sizə gələcəydim - Asif salam göndərmişdi

**Hüseyn dayı:** *(qəhərlənir)* Salam göndərən də sağ olsun, gətirən də... Özü necədir? Orda vəziyət nətəhərdi?

**Telman:** Yaxşıdı, Hüseyn dayı. Asif də sizdən nigaranıydı. Dedi, mən yaxşıyam, narahat olmasınlar. Gələn dəfə o gələcək.

**Hüseyn dayı:** Narahat deyəndə, ay bala, mən elə anadan narahat doğulmuşam.

**Telman:** Elə niyə deyirsən, ay Hüseyn dayı?

**Hüseyn dayı:** Oğlum, axı sən bilirsən biz Dərələyəzdən gəlmişik, Sallı kəndindən. Gözümü açandan, ağlım kəsəndən nənəm mənə bu dığaların qansızlıqlarından danışıb. Anamın üzünü də görməmişəm. Babam onu erməniyə əsir düşməsin deyə, tüfənglə özü atıb. Aşıq Cəlil eşitmisənmi, tayqulaq Andronuk onun belinə qaynar samovar bağlayıb və sazı verib ki, indi çal. O da biz tərəflərdə olub. "Cəlili" mahnısıda o vaxtdan qalıb.

**Telman:** İndikilər, guya ondan insaflıdırlar ki? Eyni toxumdurlar. Bir yandan da Qarabağda olan rus zabitlərinin çoxun ələ alıblar. 85-ci ildə 366-cı alayın Xankəndinə gəlməsi də elə-belə olmayıb. Sovet quruluşu 2 aydı dağılıb, amma ordusu burdadıguya MDB-nindi, amma ermənilər tərəfdədi. O günləri bir özbək, bir türkmən əsgər qaçmışdı ordan.

**Hüseyn dayı:** Nə deyirlər?

**Telman:** Deyirlər ki, yüzdən çox zabit var, onların yarısı ermənidi. Birini nağdı tanıyırıqSeyran Ohanyan- ikinci batolyonun komandiridi. Havadarı olmasa, ermənini yerində oturtmağa nə var ki?

***Ekranda yazılır:*** "Xocalı üzrinə hücuma mayor Seyran Ohanyan, *(sonralar o, Ermənistanın Müdafiə naziri oldu),* Yevgeni Naboxin, Valeri Çitçiyan və erməni əsilli 50-dən artıq zabit və praporşik rəhbərlik etmişdir". "Xocalı faciəsi" kitabından

***III səhnə***

***Ekranda yazılır: 24 fevral 1992-ci il.***

Xankəndində olan 366-ci alayin zabiti podpolkovnik Nikolay İvanovun iş otağı. Podpolkovnik Nikolay İvanov kitelin yaxası açıq oturub. Stolun üstündə müxtəlif növ yeməklər düzülüb, işkilər qoyulub. İçəridəkilər yarısərxoş vəziyyətdə rus dilində söhbət edirlər.

**Samvel:** *(Aşota)* Ara, burda bizim nə işimiz var, mən oturmuşdum gül kimi Parisdə, Nikolayda ki, Rusiyada. Gördük ki, sizin - Qarabağa gəlmiş ermənilərin turklaran müharibə etmək fikriniz yoxdu. Hətta Marağa kəndində Qarabağa gəlməyinizin 150 illiyinə abidə də qoymuşdunuz, onu da biz partladıb məhv elədik. Dünyaya car cəkirik ki, 1500 il əvvəl Arsaxda böyük erməni xalqı olub. Bu yandan da deyirik ki, 150 il əvvəl bizi bura ruslar gətirib (gülür) sağ olsunlar! Bunu siz rusların sağlığına içirəm, ona görə ki, sizin köməyiniz olmasa bizim burdakı qardaşlarımız bu turkların öhdəsindən gələ bilməzlər. (əliylə yemək-içməyi və Asmiqi göstərir) Hər şeyimiz sizə qurban.

Asmiq nifrət dolu baxışlarla Samveli süzür. Hiss olunur onu zorla gətiriblər. Yeniyetmə qız erməni dilində nəsə pıçıldayır.

**Nikolay:** *(Əliylə qızın çənəsindən tutur)* Bu gözəlçə nə deyir?

Aşot qıza hirslə baxaraq, ermənicə danışır.

**Aşot:** Asmiq, sənə nə demişdim? İstəyirsən səni "Haydat" məhkəməsi güllələsin? (Nikoloya tərəf dönür və rusca davam edir) Deyir ki, sizsiz bizim bir günümüz olmasın!

**Nikolay:** Onda gəlin erməni gözəllərinin sağlığına içək! Bizi burda darıxmağa qoymayan onlardı.

**(ardı var)**

# Ziyalılar Prezident Administrasiyasına yenidən müraciət edib

## "Bakı əcnəbi dillər tərəfindən "işğal olunub"

**Bu ilin fevral ayında 30-u professor olmaqla 100-dən çox alim, incəsənət xadimi, ümumilikdə mindən artıq ziyalı Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh xanım Əliyevaya müraciət edərək Bakının əcnəbi dillərin "işğalından" azad edilməsinə yardım etməsini xahiş etmişdi. Həmin müraciət Bakı Şəhər İcra Hakimiyyətinə göndərilib. Amma Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin əməkdaşlarından ibarət komissiya problemin həlli istiqamətində heç bir addım atmadığı üçün müraciəti imzalayan ziyalıların nümayəndələri Prezident Administrasiyasına yenidən müraciət edərək humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva ilə görüşmək istədiklərini bildiriblər. Müraciətdə deyilir:**

**Hörmətli Fərəh xanım!**

İctimaiyyətimizi, ziyalılarımızı narahat edən bir məsələ ilə əlaqədar Sizə təkrar müraciət edirik. Bu il fevral ayının 21-də 30-u professor olmaqla 100-dən çox alim, incəsənət xadimi, ümumilikdə mindən artıq ziyalı Sizə yazılı müraciət etmişdi. Müraciətdə Bakının əcnəbi dillərin "işğalından" azad edilməsinə yardım etməyiniz xahiş edilirdi.

Ötən il Azərbaycan Yazıçılar Birliyinin sədri, Dövlət Dil Komissiyasının sədr müavini Anar Rzayevə, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevaya, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova, yüzdən artıq millət vəkilinə eyni məzmunlu müraciətlər edilmişdir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova müraciətimiz 2020-ci ilin iyununda BŞİH-in kollegiya iclasında müzakirə edildi və iyul ayının 3-də Bakı Şəhər İcra Hakimiyyətində məsələ ilə bağlı tanınmış ziyalılarla görüş keçirildi. Görüşün sonunda qərara alındı ki, növbəti müzakirədə Əqli Mülkiyyət Agentliyi və İqtisadiyyat Nazirliyinin əlaqədar şəxsləri də iştirak etsin, praktik fəaliyyət üçün addımlar atılsın. Aradan 10 aya yaxın vaxt keçməsinə baxmayaraq, bu istiqamətdə heç bir addım atılmayıb.

**Hörmətli Fərəh xanım!**

Elə buna görə məcbur olub bu il fevral ayının 21-də Sizə müraciət etdik. Sizə ünvanlanan məktub Bakı Şəhər İcra Hakimiyyətinə göndərilib. Bu il mart ayının 17-də BŞİH və Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin (ADRA) nümayəndələri bizimlə paytaxtın Rəsulzadə küçəsində monitorinq keçirdilər. Qeyd edək ki, Rəsulzadə küçəsində 42 ticarət və xidmət obyektindən 40-da (!) Azərbaycan dilindən istifadə edilməyib. ADRA nümayəndələri sahibkarlıq subyektlərindən problemi aradan qaldırmaq, "Azərbaycan Respublikasında dövlət dili haqqında" AR qanununa (maddə 7.1.) əməl edilməsini tələb etmək əvəzinə, bütün bu pozuntuların qanuni olduğunu izah etməyə çalışdılar. Məlum oldu ki, bu strukturun əməkdaşları bəlli qanun pozuntularını aradan qaldırmaq üçün heç bir tədbir görmək niyyətində deyillər.

Belə ki:

**1.** "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanununa görə (maddə 7. Dövlət dilinin xidmət sahələrində, reklam və elanlarda işlənməsi, 7.1.), Azərbaycan Respublikası ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili işlənilir. Əcnəbilərə xidmət göstərilməsi ilə bağlı müvafiq xidmət sahələrində dövlət dili ilə yanaşı digər dillər də tətbiq oluna bilər. Zəruri hallarda



elanlarda (lövhələrdə, tablolarda, plakatlarda və sair) dövlət dili ilə yanaşı, digər dillərdən də istifadə oluna bilər. Lakin onların tutduğu sahə Azərbaycan dilindəki qarşılığının tutduğu sahədən böyük olmamalı və Azərbaycan dilindəki yazıdan sonra gəlməlidir". Qanunun bu tələbinə əməl edilmir. Rəsulzadə və Əziz Əliyev küçələrində dövlət dilinə etina edilməyən obyektlər 90-95%, şəxsən monitorinq keçirdiyimiz Nizami, Şərifzadə, Füzuli, Şıxəli Qurbanov, Haqverdiyev. B.Vahabzadə küçələrində, Azərbaycan və Cavid prospektlərində 70-80 faizdir.

**2.** ADRA nümayəndələri ticarət və digər xidmət müəssisələrinin lövhələrindəki yazıların əcnəbi dillərdə olmasını Paris Konvensiyası ilə əsaslandırmağa çalşırlar. Bu isə yanlış yanaşmadır. 2005-ci il oktyabrın 20-də Paris şəhərində qəbul edilmiş "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiya, adından da göründüyü kimi, mədəni müxtəlifliyin qorunması üçün qəbul edilib və sənədin preambulasında "dil müxtəlifliyinin mədəni müxtəlifliyin fundamental elementi olduğu" xüsusi vurğulanır. Həmin sənədin "Məqsədlər və rəhbər prinsiplər" adlı fəslində (maddə 1 (h)).

"dövlətlərin öz ərazilərində mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi üçün uyğun hesab etdikləri siyasət və tədbirləri dəstəkləmək, qəbul etmək və həyata keçirmək kimi suveren hüquqlara malik olduqları" təsdiq edilir. Aydındır ki, heç bir konvensiya bu və ya digər dövlətə öz rəsmi dövlət dilində reklam və digər lövhələrin yazılmasını qadağan edə bilməz və etməyib.

**3.** Həmin Konvensiyaya qoşulan və bizə yaxın olan postsovet ölkələrində nüfuzli beynəlxalq əmtəə nişanları qorunsa da, əvvəlcə dövlət dilində və ya transliterasiya edilərək yazılır (bu barədə fotomateriallar ADRA-ya iki dəfə təqdim edilib). Amma qarşı tərəf bunu həmin ölkələrdə (Rusiya və Gürcüstan) fərqli əlifbalardan istifadə edilməsi, azərbaycanlıların isə latın qrafikası ilə olan lövhələri oxuya bilməsi ilə (!) izah etməyə çalışdılar.

**4.** Azərbaycanın dövlət dilinə etina edilməyən ticarət və xidmət obyektlərinin çoxunda təkcə brend və firma adları yox, xidmət növü və s. ilə bağlı digər yazıların da əcnəbi dillərdə yazılması geniş hal alıb və bu, "Azərbaycan Respublikasında dövlət dili haqqında" AR qanunun icra edilməsinə nəzarət edən müvafiq icra hakimiyyəti orqanı mənsublarını bu pozuntuları aradan qaldırmaq üçün də tədbirlər görmür.

**Hörmətli Fərəh xanım!**

"Dövlət dili haqqında" qanuna etina edilməməsi, Bakının, eləcə də artıq digər şəhərlərimizin millilik elementlərinin get-gedə yoxa çıxması, ayrı-ayrı şirkətlərin öz biznes maraqlarını önə çəkib Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən biri, bəlkə də, birincisi olan dilimizi sıxışdırması heç cür qəbul edilə bilməz. Yuxarıda sadalananlar təkcə ədəbi dilə qarşı hörmətsizlik deyil, həm də dövlətimizin rəsmi azərbaycançılıq ideologiyası ilə daban-dabana ziddir. Sanki bu təhdid nəzərə alınaraq hələ 18 iyun 2001-ci ildə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanında qeyd edilirdi: "Şəhər və qəsəbələrimizin görkəminə xələl gətirən əcnəbi dilli lövhələr gənc nəslin Azərbaycançılıq ruhunda tərbiyəsinə mənfi psixoloji təsir göstərir".

Dil dövlətçiliyin mühüm atributlarından biri, mədəniyyətin mövcudluğunun şərti, onun yaşamasının spesifik üsulu, mədəni kodların formalaşması faktorudur. Bakının küçələrində müşahidə edilən dil mənzərəsi qeyd-şərtsiz mədəni-linqvistik ekspansiyadır və əsas məqsəd xalqın öz dövləti ilə identikləşmə mexanizmlərini zəiflətməkdir. Dövlətinə, xalqına, onun dəyərlərinə bağlı bir şəxs kimi səlahiyyətlərinizdən istifadə edərək müvafiq tədbirlər görməyinizi, eləcə də dövlət dili haqqında qanunun tələblərinə əməl edilməməsi barədə əlavə məqamlara aydınlıq gətirmək üçün müraciəti imzalayanlardan bir neçə nəfəri şəxsən qəbul etməyinizi xahiş edirik.

**Hörmətlə,**
**1. Aida Qasımova, Bakı Dövlət Universiteti, "Ərəb filologiyası" kafedrası, professor**
**2. Könül Bünyadzadə, AMEA-nın müxbir üzvü, Asiya Fəlsəfə Assosiasiyasının vitse-prezidenti**
**3. Vasif Sadıqlı, "Filoloji Araşdırmalar və Dil Monitorinqi Mərkəzi" İctimai Birliyinin sədri**

# LERİK ŞƏHİDLƏRİNDƏN BƏHS EDƏN KİTAB ÇAP OLUNDU

**Lerik rayonunun vətənpərvər oğulları 1-ci və 2-ci Qarabağ savaşlarında fədakarlıqla döyüşmüşlər. Leriklilər 213 şəhid oğlunun xatirəsini həmişə əziz tutur. Məhz bu ehtiramın təzahürüdür ki, bu günlərdə tanınmış lerikli yazar Xalid Mahmud Lerik şəhidlərindən bəhs edən 444 səhifəlik "Əbədiyyət yolçuları" kitabı ilə oxucuların görüşünə gəlib.**

Xatırladaq ki, Xalid MAHMUD (Xalid Qədiməli oğlu Ağayev) 22 dekabr 1982-ci ildə Lerik rayonunun Şivlə kəndində ziyalı ailəsində anadan olub. Atası Qədiməli Əhməd respublikanın tanınmış qələm adamlarından biridir. Bir çox nəzm, nəsr, elmi və publisistik əsərlərin müəllifidir.

### *Xalid Mahmud hələ orta məktəbdə oxuduğu illərdə*

***poeziyaya böyük maraq göstərmiş və ilk şeirlərini də elə bu illərdə qələmə almışdır. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətdə olmuş, milli ordudan tərxis edildikdən sonra bir müddət ayrı-ayrı qəzet və jurnallarla əməkdaşlıq etmişdir. İlk şeirləri "Lerik", "Bizim era", "Azərbaycan gəncliyi", "Ədəbiyyat naminə" qəzetlərində, "Məşəl" jurnalında çap olunmuşdur.***

2006-cı ildə yüksək balla Azərbaycan Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində ictimai fəallığı ilə seçilmiş, onun təşəbbüsü ilə universitetdə təşkil edilmiş poeziya məclisinin aparıcı üzvlərindən olmuşdur. İlk şeirlər kitabı olan "Həsrət qoxulu sevgi" 2007-ci ildə "Açıq dünya" nəşriyyatı tərəfindən 500 tirajla nəşr edilmişdir. Elə həmin ildə"Qar yağır" şeirinə görə "Qarabağ harayı" fəxri fərmanı ilə təltif edilmişdir. Sonralar "Azərbaycan", "Ulduz", "Mars", "Sənət", "Kaspi" və digər qəzet və jurnallarda əsərləri çap olunmuşdur. "Həsrət qoxulu sevgi" (2007), "Bu mənim dünyamdı" (2008), "Ovcumda açılan sabah" ( 2009), "Yalnızlığın rəsmi" (2014)şeirlər və poemalar, "Sözün Əli Kərim zirvəsi" (Elmi),(2011), "Mənalı yaşanan ömür", (Xatirə povest), (2015), "Əbədiyyət yolçuları", (Qısa ensklopedik toplu), (2016), "Hər ömürdən sətirlər", II cild.(2020) adlı kitabların müəllifidir. Şeirləri ingilis və rus dillərinə tərcümə olunub.

Xalid Mahmud İctimai fəallığına və bədii yaradıcılığına görə gənc yazarlar arasında 2010-2011-ci illərin "Prezident təqaüdçüsü" olmuşdur. 2018-ci ildə Azərbaycan Xalq şairi Məmməd Arazın 85 illik yubleyi münasibəti ilə lll "Məmməd Araz Poeziya Günü" çərçivəsində keçirilən şeir müsabiqəsinin qalibi olmuş, 1-ci dərəcəli diplomla təltif edilmişdir. 2009-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

***

***Xalid Mahmudun bu yaxınlarda Lerik şəhidlərindən bəhs edən "Əbədiyyət yolçuları" kitabının yenidən işlənmiş və təkmilləşdirilmiş variantı çapdan çıxıb. 444 səhifə 330 tiraj olan kitab Lerik rayonunun Çayrud kəndində doğulan***




***I Qarabağ Müharibəsinin Rembo ləqəbli əfsanəvi qəhrəmanı Elxan Əlibəylinin həyat yoldaşı, hazırda Nederland krallığında yaşayan Vəsilə Əfladdun qızı Almasovanın maddi dəstəyi ilə işıq üzü görüb. Kitabda biri 20 Yanvar, biri Xocalı şəhidi olmaqla bərabər 213 lerikli şəhidin qısa tərcümeyi-halı, keçdiyi döyüş yolu öz əksini tapmışdır.***

Birinci Qarabağ savaşı şəhidləri arasında Müslümov Valeh Əlizaid oğlu, Şahbazov Fəxrəddin İbrahim oğlu, Abdulayev Rövşən Əbdülhüseyn oğlu, Ağayev Fərhad İslam oğlu, Əliyev Əsgər Ələkbər oğlu Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına laiq görülmüşlər. Xaqani Xanıbəy oğlu Rüstəmov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, Pələngov Bünyadəli Qulam oğlu ölümündən sonra "İgidliyə görə qızıl medal"ı ilə təltif olunublar. Cəbrayıl Atamalı oğlu Ağayevə isə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi üçün hərbi hissə komandiri tərəfindən təqdimat yazılsa da, məlum olmayan səbəblərə görə bu məsələnin icrası həllini tapmamışdır.

### *2015-2016-cı illərdə*

***Tovuz və Aprel döyüşlərində də Lerik rayonu üç şəhid vermişdir. Həmin döyüşlərdə şəhid olan Ruslan Qalib oğlu Ağayev, Vüsal Əmir oğlu Əliyev və Natiq Namiq oğlu Tahirli Azərbaycan Respublikası Müdafiə Naziri general-polkovnik Zakir Həsənovun sərəncamı ilə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalı ilə təltif edilmişlər. İkinci Qarabağ savaşına kimi Lerik rayonu ümumilikdə 150-dən çox şəhid vermişdir.***

27 sentyabr 2020-ci ildə başlanan, 44 gündən sonra qələbə ilə başa çatan İkinci Qarabağ savaşında da Lerikin minlərlə sakini döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərib vətənə sədaqətlərini bir daha nümayiş etdirdilər. Bu döyüşlərdə Lerik rayonu 60-dan çox şəhid verdi.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci ildə imzaladığı sərəncama əsasən Füzuli cəbhəsində tank komandiri olan mayor Amid Rəbbil oğlu Heydərova ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

*Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə döyüşlərdə qəhrəmancasına şəhid olmuş Polkovnik-leytenant Mehman Mirəziz oğlu Şirvanov "Qarabağ" ordeni, baş-leytenant Əliqismət Mükafat oğlu Yaqublu "Azərbaycan Bayrağı" ordeni, leytenant Murtuz Çingiz oğlu Abbasov "Azərbaycan Bayrağı" ordeni, Xüsüsi Təyinatlı Qüvvələrin giziri Tarzən Qəhrəman oğlu Həşimov "Cəsur döyüşçü" medalı, Xüsüsi Təyinatlı Qüvvələrin giziri Vasif Gülhəsən oğlu Mehbalıyev"Azərbaycan Bayrağı" ordeni, Xüsüsi Təyinatlı Qüvvələrin giziri Babək Süleyman oğlu Mahmudov "Zəfər" ordeni, Dövlət Sərhədd Xidmətinin kiçik giziri Təbriz Məhərrəməli oğlu Talıbov "Vətənə xidmətə görə"ordeni, Hərbi Dəniz Qüvvələrinin miçmanı Elvin Ramiz oğlu Səfərov "Qarabağ" ordeni, Xüsüsi Təyinatlı Qüvvələrin əsgəri Firdovsi Balaxan oğlu Tahirov "Cəsur döyüşçü" medalı, əsgər Rəşad İlham oğlu Mikayılzadə "Döyüşdə fərqlənməyə görə" medalı, əsgər İmaməli Elman oğlu İbrahimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və bir sıra medallarla təltif edilmişlər.*

Döyüşdə iştirak edərək qəhrəmancasına şəhid olan digər şəhidlər də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə müxtəlif adda medallara laiq görülüblər. Müəllifin verdiyi məlumata görə kitab İkinci Qarabağ savaşı şəhidlərinin ailələri üçün pulsuz nəzərdə tutulub. Kitabdan əldə olunan gəlirlə kitabın yenidən nəşi nəzərdə tutulur. Məqsəd şəhidləri daha geniş oxucu auditoriyasına tanıtmaqdır.

**Hazırda birinci və ikinci Qarabağ savaşında döyüşərək qəhrəmanlıqlar göstərən qazilər haqqında kitabın çapı üşün hazırlıq işləri gedir.**

**ƏBÜLFƏT**



Saffari

# "Bir tikə ətin tamarzıları"

*Gənclik insanın elə bir dönəmirdir ki, sən nə etsən, nə desən, ancaq bu çağında qəbul olunacaq. Səhvin də, düzün də.*

*25 yaşında deməli olduğun sözü gedib 50-də desən, əlbəttə maymaq kimi görünəcəksən. 25 yaşında etdiyin səhvi 50-də etsən, əlbəttə düşük kimi görünəcəksən. Bu yaşda etdiyin səhvlər də yaşına keçiləcək. Odur ki, qorxma, ey gənc, cəsarətli ol. Qurban verməyi bacar. Sən ancaq bu halda yaşlana biləcəksən. Bəsdir həyatı ot kimi yaşadın, bəsdir toyuq kimi gün sovurdun.*

*Düzdü, hazırda özüm də bir gəncəm.*

*25 yox, hələ 23 yaşım var. Ona görə də özümü qoymuşam "bomba oğlanlığa". Yəni, bunlar da mənim "gəncyanə" istəyim, tövsiyyələrimdir. Amma əfsuslar olsun ki, bir gənc ziyalı olaraq görmək istədiyim gəncliyi görə bilmirəm. İstənilən sahədə.*

*Siyasət deyirik, yenilənmə deyirik, cavan-cavan uşaqlar partiyalaşıb zibilləri çıxır, musiqi deyirik, gənc oğlanlar, qızlar bayağılaşır,"hacıləşir", ədəbiyyat deyirik, burda da mundar olurlar.*

*İlahi, heyrət ey büt, nə edək, necə edək?!*

*Düzdü, bütün bunların bir xeyli ictimai-siyasi səbəbləri də var, amma nə olur olsun, gənclik başqadır, gənclik gözəldir, bunun dəyərini bildin bildin, bilmədinsə, qocalanda ən yaxşı ehtimalla olacaqsan "ağçaqqal". Bəs, mənsubu olduğumuz ədəbiyyat gəncləri niyə belədir? Doğurdanmı hər şey madiyyata hesablanıb ? Düzdür, bizdə gəncli-qocalı əksəriyyət bir parça çörəyin umuduna qalıb, bir tikə ətin tamarzılarıdır. Amma yenə də, bir şey etmək olmazmı?*

*Söhbət madiyyatdan gedirsə, əgər həqiqətən belədirsə, məsələn, mən niyə yaltaqlıq etmirəm? Mənim pulamı ehtiyacım yoxdur? Yoxsa, mənmi özümü sayt köşələrində köşəyə qurban vermirəm? Ömrümün ən enerjili vaxtlarında çiyinlərimə elə bir yük düşüb ki, gəl görəsən. Olmayım mən, olsun başqa adamlar. O qədər var ki, ac da qalsalar, yenə də ədəbi aləmlərini təmiz saxlaya biliblər. demək ki, olanda olur, istəyəndə olur. Asan yola qaçmağın da öz çətinlikləri var.*

*Allah qoymasa, deyirik ki, gənclər yenilikçi olsun, kreativ olsun, etiraz ruhlarını unutmasınlar, səhv də olsa, yeni addımlar atılsın, köhnə, mənasız estetikalar rədd edilsin, bu dəmdə, elə bu yerdə gənclərin özü gəlir ki, bəs, məsələn, AYB sənə neyləyib? Qarşını kəsir ki, yazma? Bu yerdə də deyirsən ki, daş elə başua. Allah sənin o boş başını qoyb, ayağına daş salmasın. Bədbəxt gənc, gərək Anar fiziki olaraq əlimi tutsun ki, yazmayım? Anar ədəbiyyata bunca ildir ki, xəyanət edir, özü və ətrafı illərdir ki, sözün çörəyini yeyir, başqa nə olmalıdır? Əslində, bu yaltaq-yultaq cızma-qaraçılar hər şeyin fərqindədir, sadəcə, özlərini qoyublar artistliyə. Nə qədər izah edirsən, nə deyirsən, xeyri yoxdur, elə özünə qalır. Söhbət tək AYB-dən getmir, ümumi olaraq belədir. Məmur yazarlara ədəbi və fərdi münasibətlər, daha nələr-nələr. İçim yanır, and ola, içim yanır.*

*Bir dəfə bir keçmiş "ədəbi müxalifətçi" mənə etdiklərimin, yazdıqlarımın mənasız olduğunu, fayda verməyəcəyini dedi. Dedi ki, onsuz sən də bezəcəksən. Biz yazdıq, etdik nə oldu? Cavabım gecimkədi. Dedim, səncə, mən bunların fərqində deyiləmmi? Elə bilirsən ki, düşünürəm, mən yazmaqla düzələcək? Anar gedəcək, yerinə gələndə ədəbiyyatı inkişaf elətdirəcək? Əsla. O qədər də hərif deyiləm. Mən sadəcə gənclik ruhumu təzə saxlayıram. Bir də nail olmaq istədiyim şeylər var, bəlkə oldu? İcazə ver, bir ümidə tutunub yaşayım, icazə ver, mən də səhvlər edim, qocalanda görüm, deyim ki, "bu ömür alınmadı". İcazə verin, mənə yazılmış bu bialoji ömrü təmiz başa vurum, vücudum, ruhum əyilməsin. Mən sınmaq istəmirəm, adamlar, sınmaq istəmirəm. Gəncliyi də sınmış görmək istəmirəm.*

*Odur ki, möhkəm ol, ey gənc, möhkəm ol. Sınma, əyilmə, bir az da ac qal, bir az da əziyyət çək. Ədəbiyyatda pul yoxdursa, başqa yerdən qazanmağa çalış, nə bilim, nə edirsən et, amma özünü təmiz saxla. Arena düzəlməyənə qədər rəsmiyyətə can atma. Burda rəsmiyyətlər rəzil gündədir. Beynində bütün bunların mənasız olduğu həqiqətinə çat. Onsuz da, bir gün sən də öləcəksən, ey gənc. Hamı yaxşı yaşamaq istəyir, amma qəbullan ki, hamı yaxşı yaşayacaq deyə bir qayda yoxdur.*

*Bəlkə, bədbəxt olası adamlardan biri də sənsən?!*

# XV ƏSR AZƏRBAYCAN TARİXİ: BƏDİİ GERÇƏKLİKLƏR

***(Tahir Kazımov. Hiylə və zəka. Tarixi roman, epopeya. I kitab, Bakı, "Elm və təhsil", 2017, 508 s.; Qardaşlar: əqidə mübarizəsi. Tarixi roman, epopeya, II kitab, Bakı, "Elm və təhsil", 2017, 345 s.; Həsən Padşah Bayandur. Tarixi roman, epopeya, III kitab, Bakı, "Elm və təhsil", 2017, 384 s.; İmperiyanın süqutu.Tarixi roman, epopeya, IV kitab, Bakı, "Elm və təhsil", 2017, 313 s.)***

**Türk ədəbiyyatının inkişafındakı xidmətlərinə görə Türk Dünyası araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının "Türk ədəbiyyatına xidmət" mükafatı laureatı, "Kino xadimi", "Əməkdar Mədəniyyət işçisi" tanınmış yazıçı Tahir Kazımovun çoxsaylı, irihəcmli, müxtəlif janrlı pvest və romanları oxucular tərəfindən həmişə sevilmişdir. İstedadı, sənətkarlıq imkanları, mövzu-ideya zənginliyi ilə fərqli görünən qələm sahibi Tahir Kazımovun yaradıcılıq yolu ucuz şöhrət qazanmaq üçün deyil, mənəvi ehtiyacdan, bədii tələbatdan irəli gəlmişdir. Onun yazmış olduğu bütün əsərləri ("Səsin sehri", "Sənsiz səninlə", "Müsibət", "Geçikmiş məketublar, əsirlik düşüncələri", "Etirapf", "Ürək fəryadı", "Taleyin qisməti beləymiş yəqin…", "İntiqam", "Qisas", "Qönçə və yadplanetlər" və s.) sözün əsl mənasında Azərbaycan cəmiyyətini saflaşdırmağa, tərbiyələndirməyə doğru yönəldilmişdir.**

Deyirlər, sənətkar sənətkarlığının bütün keyfiyyətləri ilə öz zamanının yetişdirməsidir və bu cəhət onun sosial-estetik niyyətindən irəli gəlir. Bu, sənətkarın fikir və düşüncəsi, seçdiyi ədəbi janr, işlətdiyi dil və üslubla sıx bağlıdır. Yazıçı əgər fəaliyyətini uzun yüzillikləri arxada qoymuş tarixin müdhiş hadisələrinə, insanlarına, daha doğrusu, mühüm bir dövlətçilik işlərinin təsvirinə və təhlilinə həsr edirsə, böyük bir missiyanı yerinə yetirmiş olur.

## Bir tanınmış yazıçı kimi

Tahir Kazımovun güclü realizmini, obyektivliyə sadiqliyini, tarixi həqiqətlərin necə cəsarət və ustalıqla əks etdirməsi haqqında anlayış və mülahizələrimizi daha da zənginləşdirmək üçün barəsində danışasağımız kitabların (4 kitab) üzərində bir qədər geniş dayanmaq istərdik.

***XV yüzillik Azərbaycan tarixində yeni keyfiyyətləri ilə fərqlənən bir mərhələdir. Sözügedən yüzildə bütün Azərbaycanda Şirvanşah İbrahim və onun övladlarının, Qaraqoyunlu və Ağqoyunlu hökmdarlarının hakimiyyəti altında siyasi-tarixi, sosial-mədəni və iqtisadi həyatda müəyyən uğurlar qazanılır. Dövrün ümumi vəziyyəti bütün cəmiyyətə, xüsusən də hakim təbəqələrə öz təsirini göstərir.***

Qaraqoyunluların adlı-sanlı hökmdarlarından biri olan Mirzə Cahan şah ölkədə böyük abadlıq işləri gördürür, körpülər, yollar, məscid və mədrəsələr tikdirir. Sözügedən yüzillik Azərbaycan şəraitində, mühitində bütöv bir dövlətçilik tarixinin təməlinin qoyulduğu bir dövrdür. "XV əsrin ciddi, mürəkkəb hadisələri haqqında tarixi həqiqətlər hansı yolla olur-olsun Türk dünyasına çatdırılmalıdır" (prof. O. Əfəndiyev)

***Həmin ciddi və mürəkkəb hadisələr tarix kitablarında, monoqrafik əsərlərdə mütəxəssislər tərəfindən müəyyən səviyyələrdə öyrənilmişdir (professor Tofiq Nəcəflinin əsərlərinə bax)***

Bəs, bədii ədəbiyyatda yazıçılarımız həmin proses və hadisələri necə əks etdirmişdir? Bu suala cavab axtarmaq üçün Tahir Kazımovun yuxarıda adını çəkdiyimiz epopeyasını oxumaq lazım gəlir. Baxın, hadisələr necə də çoxplanlı, çoxsəpkili olub ki, müəllif bu bütöv dövrə 4 kitab həsr etmişdir.

Alimlərimizin apardığı təhlillər göstərir ki, XX əsrin romanı insanın daxili-ruhi təkamülünün ideal göstəricisi səviyyəsində bir hadisəyə çevrilmişdir. Bu əsrdə və ondan öncəki dövr və mərhələlərdə həmin janrın əsas missiyası dünyanın özünün bütövlükdə mahiyyət və mənasını açmaq, onun amançız həqiqətlərini insanın gücü qarşısında canlandırmaq və bu yolla, insana dünyada yaşamağın fəlsəfəsini aşkarlamaqdır. Bütün başqa janrlar da bu və ya başqa dərəcədə həmin missiyanı yerinə yetirir, lakin roman (eləcə də epopeyada) janrında bütövlük var, romanın məğzində dünyanın yeni mənasının axtarışına çıxmaq var, -roman-dünyanı, ayrı-ayrı janrlar və hissələri, zərərləri əks etdirir (tənqidçi-ədəbiyyatşünas V.Yusifli)

## Siyasi tarix elmi ilə məşğul olan alimlərin fikrinə görə,

***Azərbaycanın XV əsri bütövlükdə tarixin siyasi mənzərəsində köklü, ciddi və mürəkkəb hadisələrin baş verməsi ilə və fərqli özəldlikləri ilə səciyyələnə bilər. Bir həqiqətdir ki, Sovet dönəmində bu məsələlər həm tarix kitablarında, həm də bədii ədəbiyyatda öz əksini düzgün tapa bilməmsiş, yazılanlarla o vaxtkı həyat, baş vermiş hadisələr arasında ciddi fərqlər görünmüşdür, əsl həqiqət isə xalqdan gizlədilmişdir.***

Müasir insanın görmədiyi, şahidi olmadığı dövr kifayət qədər dərk edilməmiş, milli ənənənin təsvirinə yer ayrılmamışdır. Yazıçı bu hadisələri mötəbər mənbələrdən oxuyaraq bədiiləşdirmişdir.

Tahir Kazımov bu günümüzə qədər mühüm dövləti işlərlə məşğul olmaqla yanaşı, həm də bir-birindən mövzusu-ideyası ilə, tarixiliyi, müasirliyi ilə çox yüksək səviyyələrdə dayanan romanlar, povestlər, hekayələr, gündəliklər, məktublar, ssenarilər və s. yazmışdır. Həmin çoxsaylı əsərlərdə o, maraqlı, yadda qalan obrazlar, tarixi təfərrüatlar yarada bilmişdir.

***Tarixi faktlar göstərir ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin sosial bazasını eyni bir milli maraq ətrafında birləşmiş müxtəlif oğuz tayfaları təşkil edir. Təbii ki, həmin tayfalar bir-birindən o qədər də fərqlənmirdilər. Onlar bir-birilə siyasi ittifaqda olmuş, xüsusilə Qaraqoyunluların, Ağqoyunluların dövründə daha sıx birləşmişdilər. Və bu baxımdan Səfəviləri hətta özündən əvvəlki Azərbaycan dövlətlərinin bilavasitə varisi saymaq olar. XV yüzillikdə Azərbaycan türk tayfaları hakimiyyət uğrunda mübarizədən əl çəkməmişdilər. Bu dövrdə yerli hakimlər-tayfa başçıları həm bir-biri ilə münaqişəyə girir, müxtəlif ittifaqlarda fəal iştirak edirdilər. Bu kitabları oxuduqca görmək olur ki, "dövlətin əsasını qoyanlar da, onun yüksəlişini təmin edənlər də Azərbaycanda yerli və köçəri türk tayfaları idilər; Qaraqoyunların, ağqoyunlarının dövlətçilik düşüncəsi, inzibati idarə sistemi bütünlükdə qədim türk dövlətçilik ənənələrindən irəli gəlirdi. XV əsr, əslində Türkiyə türklərinin bir xalq olaraq təşəkkülü tarixinin ilk mərhələsi idi. Azərbaycan ərazisində türklərin çəkisi sürətlə artdı. Onlar Azərbaycan cəmiyyətinin mütləq əksəriyyətini təşkil etməyə, müxtəlif dövlətlər qurmağa, mərkəzləşməyə (konsentrasiyaya) başladılar" (Akademik N.Cəfərov)***

Tahir Kazımovun təsvir etdiyi bu dövrdə Azərbaycanda (və həmhüdud regionlarda) oğuz türklərinin (türkmanların) etnosiyasi mövqeyi bir qədər də güclənir.

Tahir Kazımov bir fikir adamı kimi bu kitablarında tarixi həqiqətləri əks etdirə bilmişdir. Bu əsər həqiqətin carçısıdır. Tarixi keçmişdən bu günümüzə varmağa və sabaha çatmağa ən sağlam və köklü, ən doğru olaraq daha güvənilən "bəbii tədqiqat"dır.

Biz Tahir Kazımovu, onun çoxsaylı kitablarını dəyərləndirərkən özünəməxsus düşüncə tərzi ilə romançılığını bir-birindən ayırmırıq, ayrılmamış da mümkün deyildir. Bu kitablar XV yüzilliyin tarixi ictimai-siyasi proseslərini bütöv şəkildə inikas etdirir. XV yüzillik tarix səhnəsində aşağıdakı məzmunu şərtləndirir:

"XV əsr Azərbaycan tarixində təlatümlü və mürəkkəb bir dövr kimi yadda qalmışdır. Bu dövr öz mərhələləri ilə bir çox tarixi şəxsiyyətlər yetişdirmiş, istər siyasətdə, istərsə də ədəbiyyatda. Həmin şəxsiyyətlər nə qədər paradoksal olsa da, yenə də dövrün dövlətçilik ənənələrini öz birlikləri ilə, bilikləri ilə qoruyub saxlaya bildilər. Dövlət xadimləri, sərkərdələri Qara Yusif, Uzun Həsən, Həsən Padşah, Şirvanşah I İbrahim, Sara xatun və b.




Tarixi qaynaqlarda olduğu kimi, bu əsərlərdə də Sara xatunun Azərbaycan dövlətçiliyinin möhkəmlənməsindəki mühüm rolu, diplomatçılıq fəaliyyəti, hər hansı bir məsələnin çözülməsindəki başlıca fəaliyyəti; dövlət xadimi, şair, hürufi fəlsəfəsinin tanınmış şəxsiyyəti Cahanşah ("Həqiqi" təxəllüslü şeirlər yazan) haqqındakı yanaşmaları, baxışları bədii təfərrüatlarla sırf həqiqətə uyğun, inandırıcı təsir olunur.

## Dövrün bəzi siyasi prosesləri

***belə baş vermişdir: Teymurilər arasındakı nifaq onların hakimiyyətini zəiflədir. Bundan istifadə edən Azərbaycan feodalları ölkənin istiqlaliyyətini bərpa etməyə, müstəqil milli hakimiyyət yaratmağa nail olurlar. XV əsrin əvvəllərindən hakimiyyət başına gələn qaraqoyunlular Cənubi Azərbaycan torpaqları ilə yanaşı, Gürcüstan, Ermənistan və Ərəb İraqında da hakim idilər. Qaraqoyunluların paytaxtı Təbriz şəhəri sürətlə inkişaf edir. Əsrin ortalarına doğru zəifləyən qaraqoyunlu hakimiyyətini ağqoyunlular əvəz edirlər. Ağqoyunlu Uzun Həsən qaraqoyunlu mülkləri ilə bərabər, İranın bir sıra vilayətlərini də öz hakimiyyəti altında birləşdirir. Düzdür, ağqoyunlularla qaraqoyunlular arasındakı toqquşmalardan ölkə müəyyən ziyanlara məruz qalırdı. Ancaq bununla belə ölkə xarici basqınlardan, yad qoşunların tapdağı olmaqdan xilas olmuşdu. Həm də qaraqoyunlu və ağqoyunlu hərəkatlarının ümumi məqsədi mərkəzləşmiş vahid Azərbaycan dövləti yaratmaq olduğundan bu ixtilaflar ölkənimn yüksəlişində xüsusi ləngimə yaratmırdı. Həmin istiqaməti XV əsrin sonlarından ərsəyə gələn Səfəvilər davam edirdilər və nəhayət, XVI əsrin əvvəllərində buna nail oldular.***

T.Kazımovun epopeyasından aydın olur ki, Qaraqoyunlularla Ağqoyunlular arasındakı münaqişə və savaşlara baxmayraq hər iki sülalə və onların yaratdıqları dövlətlər eyni ənənəyə əsaslanırdı - məhz həmin ənənənin varisi kimi bir qədər sonra mərkəzləşmiş Azərbaycan dövləti tarix səhnəsinə çıxır. Qaraqoyunlu hökmdarı Qara Yusif hələ XV əsrin əvvəllərində müstəqil olan Şirvanı özünə tabe etməyə çalışmış, Şirvanşah İbrahimi və onun müttəfiqlərini əsir almış, lakin çox keçmədən Şirvan yenidən müstəqilliyini bərpa etmişdir. Ağqoyunlu hökmdarı Uzun Həsən də eyni məqsədi izləmiş, lakin hərbi yolla deyil, sülh yolu ilə Azərbaycanın həm şimalındakı, həm də cənubundakı müstəqil hökmdarları öz ətrafında birləşdirmişdir. "Həqiqətən, ağıllı olan Uzun Həsən bütün azərbaycanlıların hörmətini qazanmağa can atmış, Azərbaycan hökmdarı olmuş və ömrünün axırına kimi Şirvanşah və Ərdəbil şeyxi ilə ittifaq saxlamışdır"

***Bu cür çox mühüm və aktual hadisələrin ənənəvi olaraq bədii ədəbiyyata gətirilməsi və mövcud tarixi faktların xüsusi bir emosional dildə təqdimi sevindirici haldır. Və oxucu sevinir ki, hələ indiyə kimi həmin dövrün bədii təlatümləri, bədii obrazları Azərbaycan oxucularına təqdim olunmamışdır. Bu şərəfli iş tanınmış yazıçı, çoxsaylı romanların müəllifi Kazımov Tahirə qismət olmuşdur.***

## Birinci kitab

"Hiylə və zəka" adlanır. Bu kitab 508 səhifədən ibarətdir. XV yüzilin 50 illik bir mərhələsi bu səhifənin əsasını təşkil edir.

Burada iki tayfa - Qaraqoyunlu və Ağqoyunlu dövlətləri arasındakı münasibətlər, əlaqələr, bu tayfalararası uzun sürən əqidə, məslək və dini çarpışmalardan, varislərin taxt-tac uğrunda apardığı ixtilaflardan söhbət gedir.

***Birinci kitabın əsas obrazı Türkman elinin qəhrəmanı Qara Yusifdir. Qaraqoyunlu dövlətini yaradan igid sərkərdə. Hərtərəfli bir insan, bütün invani keyfiyyətlərə sahib Qara Yusif yazıçı tərəfindən təkcə tarixi şəxsiyyət kimi deyil, eləcə də kamil və bütöv bir obraz kimi canlandırılır. Əmir Teymurun hücumlarının qarşısını uğurla alan və onun qoşunlarını ustalıqla məhv etmək bacarığı Qara Yusifin mübarizliyini, siyasi nüfuzunu, əzmini nümayiş etdirir.***

Yazıçı gənc şahzadə Uzun Həsən kimi dövlətçiliyimiz tarixində az tanınan xadimi lazım olan səviyyədə təqdim edir, oxucuya tanıdır. Həsənin gəncliyindən hökmdar səviyyəsinə gedən yolu olduğu kimi əks etdirə bilir.

Kitablarda Şərqin ilk diplomat qadını Saray Xatun daha cazibəli və əsl Azərbaycan xanımına xas olan cəhətləri ilə verilir.

Ağqoyunlu-Məmlük münasibətləri tarixi həqiqətə uyğun olaraq bədiiləşir.

**Qeyd edək ki, I kitabın "giriş əvəzi" çox mənalı hissədir, insanın yer üzündə törəməsi, yurd yerləri salması, sonra torpaqların qədr-qiymətinin bilinməsi, sevilməsi, torpaq uğrunda mübarəzə, müharibələr… hər şey topaqdan ötrü. Bizə elə gəlir ki, bütün bu müaribələrə, qırğınlara səbəb torpaqdır, "torpaq günahkardır". Torpaq elə əzəldən nə qədər şirinimiş. "Qurani-Kərim"dəki törəniş, insan, torpaq haqqında fikirlərin "Hiylə və zəka" romanının önünə gətirilməsi bizə elə gəlir ki, harda-olur olur insan allahını tanımalıdır, Allah təkdir, ona iman gətirmək, o nə buyurursa onunla durub oturmaq, əməl etmək…**

**(ardı var)**

**Möhsün NAĞISOYLU,**
**akademik**
**İsmayıl KAZIMOV,**
**professor**



# Sözünü sulara, sirrimi ləpələrə pıçıldayan dənizçi şair

**Ömrünün 75-ci baharını yaşayır Hüseyn müəllim. İnşallah hələ çox baharlar yaşayacaq, sərt qışlar yola salacaq, yaşayacaq, yaradacaq...**

Çox az adam olar ki, onunla tanış olmasın; nəğmələri, şeiryyəti və insanlığı ilə çox qəlblərdə dost olaraq, şair olaraq, bəstəçi olaraq ünvanlanıb.

Dünyaya paytaxtdan uzaq bir diyarda, dağlarla əhatələnmiş bir yerdə, Naxçıvanda - Şərur rayonunun Şəhriyar kəndində göz açıb. Burda dili söz, ayaqları yer tutub. Əlifbanı, qələm tutmağı, oxumağı, yazmağı öyrənib. Körpəlikdən söz onu özünə çəkib, sözünün bütövlüyü, dürüstlüyü ilə tanınıb. Və çox sonralar onun yazdıqlarını oxuyublar, sözünə sənətinə hörmət ediblər. Elə özünə Sözlü ləqəbini də bu üzdən götürüb, Söz onun ömür yolunun bələdçisi olub.

Əlbəttə ki, şair-bəstəkar Hüseyn Sözlüdən, mənim az qala 30 il olacaq dostluq etdiyim qələm adamından danışıram, bəhs edirəm.

## Kimdir Hüseyn Sözlü?

***Heç bilmirəm bu suala ehtiyac varmı? Amma olsun, hər kəs tanısa da mən də öz tanıdığım Hüseyn Sözlüdən bəhs edim.***

***Öz təbirincə desək, şeirlərinin birində oxucuya "dənizin oğluyam" deyir. Və sözün mənəvi məqamında həqiqəti yazır. Dənizdən uzaq bir məkanda dünyaya göz açsa da, həyata şair-bəstəkar, dənizçi kimi doğuluşu dənizin qoynunda olub.***

***İlk dostu, həmdəmi də elə dəniz olub. Təhsilini də bu sahə üzrə alıb, uzaq səfərlərdə olub və insanlara deyə bilmədiyini sulara deyib. Bu əminlik məndə ona görə var ki, o həyatı, həm də mən yaşamışam. Mən də Hüseyn Sözlü kimi sözümü, sirrimi ləpələrə pıçıldamışam.***

Ömrünü dalğalar qoynunda keçirən dənizçi şairin həyat yolunu dənizçilərin "Suraxanı" gəmi muzeyinin guşələrindən birində asılan şəkli də təsdiqləyir. Veteran dənizçi olaraq onun da bir vaxtlar işlədiyi, indiki gəmi-muzeydə gənc nəsillər onun həyatı ilə tanış ola biləcəklər.

Bu il aprelin 15-də şair dostumun 75 yaşı tamam olur. Əlbəttə ki, yuxarıda dediyim kimi, çox yaşasın, xoş yaşasın. Elə bu məqamda, Yubiley yaşın mübarək, əziz dost, çox yaşa. Xoş yaşa, deyirəm.

***Mən Hüseyn Sözlünün yaradıcılığına yaxından bələd olan birisi kimi birmənalı şəkildə deyə bilərəm ki, dostumun şeir və qəzəlləri həm də onun vizit kartıdır. Oxucuları ilə 11 kitabla görüşə gələn Hüseyn Sözlü özünün söz dünyası ilə yanaşı musiqi dünyasını da zənginləşdirməklə neçə - neçə ünvanlarda - qəlblərdə özünə ünvan tapıb. Bir vaxtlar onun haqqında yazmışdım: Onun sözlərinə tanınmış bəstəçilərin müraciət etməsi şairin poezyasının poetik yüklülüyündən xəbər verir. Şairin musiqi duyumu yaradıcılığında da əks olunmaqdadır. Onun istənilən şeirində həzin bir musiqi var. Hansı mövzuda yazırsa yazsın, hansı mövzuda bəhs edirsə etsin, bu hiss olunmaqdadır. Bu da heç təsadüfü deyil. Hüseyn Sözlünün özünün təqdir ediləcək bəstəkarlıq qabilyyəti var ki, bu da onun yaradıcılığında özünün dolğun əksini tapır.***

Yuxarıda qeyd etdiyim kimi, şair ədəbiyyata, bədii yaradıcılığa dənizdən gəlib. Həyatının müəyyən məqamlarını mavi dalğaların qoynunda keçirən Hüseyn Sözlünün yaradıcılığı da elə dəniz kimidir; gah mülayim olur, lirika ilə "yüklənir", gah da təlatümlü. Ətrafda baş verən naqisliklər də şairin müşahidələrindən kənarda qaqlmır və qələminin "istehsalı" kimi oxuculara təqdim edilir. Çoxlarının gördüyünü, duyduğunu şair həssaslığı ilə qələmə almaq hər kəsə nəsib olmaz.

Hüseyn Sözlü sözün həqiqi mənasında xoşbəxt şairdir. O, bütün mövzularda olduğu kimi lirikasında da səmimidir. Şairi bir mənalı olaraq sevgi şairi də adlandırmaq olar. Yuxarıda dediyimiz kimi, şair nədən bəhs edirsə, ədəbi qabiliyyətini nədə sınayırsa orda bir sevgi var, bir istək var. Bu sevgini ürəyində gəzdirib, qələmindən ağ vərəqlərə köçürmək şairin yurda, vətənə bağlılığından xəbər verir.

*"Həsrət hopur sözlərimə,*
*Vətən, sənsiz üşüyürəm" -*

misraları ilə başlayan "VƏTƏN, SƏNSİZ ÜŞÜYÜRƏM" şeirində olduğu kimi bu mövzuda yazılan bütün şeirlərdə, şair əsl vətənpərvərlik mövqeyi sərgiləyir. "VƏTƏN TORPAĞININ ÇIXIB SEYRİNƏ, BƏHRƏLİ ÇÖLLƏRDƏN YAZACAĞAM MƏN" - deyən şair, sanki yaradıcılığında bu müqəddəs mövzunu zaman-zaman davam etdirməyinin səbəblərinə aydınlıq gətirir. Elə, şairin doğulub boya-başa çatdığı Şərur rayonun Şəhruyar kəndinə olan nastolji hissləri də poetik çalarlarla oxucuya təqdim olunur; "MƏNİ, TƏMƏNNASIZ SEVƏN ELİMƏ, QAYTARIN BİR ANLIQ, QAYTARIN MƏNİ" deyərək əzəli ilkinliyə dönmək istəyir.

Onunla bütün mövzularda söhbət etmək maraqlıdır. Həyatın bütün anlarını, fəsillərini yaşayıb; Ömrünün çətin, kəşməkeşli anları da olub, xoş günləri də. Ötən günlərinin heç birinə biganə deyil, nə sərt, məhrumiyyət dolu uşaqlıq, nə yeniyetməlik, nə aşıb-daşan, dəli-dolu gənclik illərinin, nə də indiki müdrük anlarını özündən, duyğusundan bir addım da olsa uzaq saxlamır. Bütün sadaladıqlarım onun yaradıcılığında öz əksini tapmaqdadır.

O, harda olursa olsun, hansı şəraitdə yaşayır yaşasın, insani hisslər, duyğular bir an da olsun belə onu tərk etməyib.

Hüseyn Sözlü səyyah şairlərimizdəndir. Azərbaycanımızın bir çox bölgələrini demək olar ki, qarış-qarış gəzib, gözü tutan, könlünü oxşayan yerlərə qələmi ilə sığal çəkib, misralara köçürüb, ürəklərə yol tapdırıb . "Dağların" adlı şeirində olduğu kimi:

*Elə ki seyrinə çıxdım bu səhər,*
*Məni gördü, güldü üzü dağların.*
*Könlümü oxşadı mənzərəsiylə,*
*Yamyaşıl yamacı, düzü dağların.*

Yaxud,

*Günəş baş qaldırır öz yatağından,*
*Çiçəklər düzülür yola bir daha.*
*Bülbül güllər üçün nəğmə oxuyur.*
*Dönür qarşısında qula, bir daha.*

"Bundan o tərəfə daha gücüm yox" şeirində Vətən sevdalısı olmasını, yuru-yuvanı qarış-qarış gəzməsini belə poetik bir dillə açıqlayır:

*Dənizlər adladım, dəryalar keçdim,*
*Bundan o tərəfə daha gücüm yox.*
*Tufanlar adladım, boranlar seçdim,*
*Hələ bu şerimin sonu deyildi.*

*Diyar-diyar gəzdim eli, obanı,*
*Çox insanlar gördüm doğma, yabanı,*
*Başa düşdüm qocaları, cavanı*
*Hələ bu şerimin sonu deyildi.*

Qeyd etdiyim kimi Hüseyn Sözlü Vətən mövzusunda yazmaqdan usanmır. Yaradıcılığında dönə-dönə bu mövzuya müraciət edir. Yurdun təkrarolunmaz gözəlliklərindən bəhs edir. Bu, şeirdə olduğu kimi,

*Təbiət seyrinə çıxdım bu səhər,*
*Könlümü çiçəkli bağlar oxşadı.*
*İlahi, gözəllik varmış nə qədər,*
*Ruhumu əlçatmaz dağlar oxşadı.*

Yenə də ötənlərdə onun haqqında yazdığım bir fikrin üstünə gəlirəm: H. Sözlünün vətəndaş şair olduğu qənaətinə, indi bir bəndini misal gətirəcəyim elə tək bu şeirini oxumaqla gəlmək olar.

*Həyat özü çox yaşatdı sərtləri,*
*Həsrət uddu neçə-neçə mərdləri.*
*Taleyimin şimal-cənub dərdləri,*
*Məni çəkib Araz üstə gətirir.*




Hüseyn Sözlü ürəyinə müraciət edərək, "HƏMİŞƏ MƏN SƏNƏ ARXALANMIŞAM" deyir.

"Ürəyimlə söhbət" adlanan, haqqında bəhs etdiyim şeirdə şair özünün həyatının cizgilərini də cızır. Həyatının çox hissəsini dənizlərdə keçirən şairin şeirlərindəki yaşam da elə gördükləri, yaşadıqlarıdır:"HƏYATIM DƏNİZLƏR YOLÇUSU OLUB, DÜŞÜB FƏLAKƏTƏ, GƏMİ ÜRƏYİM".

## Dalğalar qoynunda

gəminin necə dözümlü olması, necə ağır yüklərin mənzil başna çatdırılması göstərdiyim iki misrada necə də düzgün ifadə olunub.

***Yaradıcı insanın ürəyi də elə həmin gəmi kimidir. Nə qədər ağrı, acı, tufan, qasırğa, kədər, qəm, iztirab görür və onları daşımaqda davam edir.***

Bəlkə də elə buna görədir ki, bir neşə il bundan qabaq şairin gəmi ürəyi bu qədər yükə tab gətirmədi, çat verdi və açıq ürək əməliyyatına bsəbəb oldu.

Hüseyin Sözlünün ibrətamiz məsəllərlə yüklənmiş çoxlu sayda şeirləri də var ki, zamanı gəldikdə zərb -məsəl kimi səslənir:

*"Hər şeyi varında görmə, a dostum,*
*Eşşəyin qiyməti çulunda deyil"*

- misraları ilə başlanan "İnsanlıq satılımır" şeiri dediklərimə əyani sübutdur. Şairin, "Daha nəyin qaldı ki", "Sına", "Sözünü de" və başqa şeirləri bu qəbildən olan şeirlərdir.

Bəzən pərişanlıq, yorğunluq, giley-güzar da şair ürəyindən süzülərək qələmindən vərəqlərə köçürülür. Sanki həyatın təzadlarından tıncıxıb, tükənib, ağ bayraq qaldırmaq, təslim olmaq istəyir,

*Mənimtək yoxdu biri, halı pərişanam bu gün,*
*Sevgidən ayrı düşən, tənha qəribanam bu gün.*

*Gecələr yatammıram, getmir yuxu gözlərimə,*
*Çox yuxusuz qalmışam, gözləri al qanam bu gün.*

*Bir zamanlar gördüyün o şuxluqdan yoxdur əsər,*
*Səhrada dəvələri ölmüş bir sarvanam bu gün*

- deyir. Amma, anındaca, həmin küskünlük, yorğunluq aradann qalxır. Şair, heç də tükənmək, geri çəkilmək olmaz, anlamında yazır:

*Elin dərdlərini qələmə aldım,*
*Pislik, alçaqlığı tələmə saldım,*
*Hüseyn Sözlütək doldum, hey doldum*
*Hələ bu şerimin sonu deyildi*

Hüseyn Sözlü həm də lirik bir şairdi. Onun lirikasında insanın qəlbini oxşayan, duyğulandıran, oxucunu sehrində saxlayan misralar yetərincədir. Şairin adı çəkilən bu şeirlərində olduğu kimi:

"O gül səni xatırladır", "Daha gözləyə bilmirəm", "Sənə deyəcəyim sözün xətrinə", və digər şeirlərində saf bir sevidən, bu sevginin böyüklüyündən, ilahiliyindən söz açılır.

H.Sözlünün digər şeirlərin də də bunları hiss etməmək olmur.

*Çəkilib buludlar, gülür göy üzü.*
*Axşamdır, ulduzlar bizi izləyir.*
*Təbiət susubdur, dayanıb sanki,*
*Sənə deyəcəyim sözü gözləyir.*

Yaxud nakam bir sevgidən yazılan, ürəkləri riqqətə gətirən aşağadakı misralara nəzər salaq:

*Nə qismətdi, tale yazıb adıma,*
*Tək qalmışam, kimsə çatmır dadıma.*
*Pərvanələr görüb yanır oduma*
*Göz yaşlarım sənsiz axır gecələr.*
*Çatmadım vəslinə, ahu-zardayam*
*Əlacsız bimaram, bir bax, dardayam*
*Axıb qurumaqda olan bir çayam*
*Göz yaşlarım sənsiz axır gecələr.*

Hüseyn Sözlü həm də ənənəvi şairlərimizdəndir. Onun yaradıcılığında klassik şeir nümunələri ilə yanaşı ədəbiyyatımız da son vaxtlar o qədər də geniş yayılmaya qəzəl janrına da yazıb, yaradır. Bu da düzdür ki çağdaş ədəbiyyatımızda bu janra müraciət edən onlarla şairlərimiz var. Laikin ümumilidə götürəndə əruz vəzninin imanlarından yetərincə istifadə olunmur. Bu baxımdan Hüseyn Sözlü istisna təşkil edir.

*"Qoyubdu bizlərə irs, "sevgili-cananı" Füzuli,*
*Sevdim səni mən, sevgili canan kimi sevdim"*

- deyən Hüseyn sözlü bu qəzəldə özündən qabaq yazıb yaradan şair babamızın adını əziz tutmaqla yanaşı, əruz vəzninin incəliklərindən də məharətlə istifadə edir və misralarda sözləri cilalamağı bacarır. O, 400-dən çoz qəzəlin müəllifidir...

**Artıq ömrün 75-ci pilləsini də arxada qoydu. Qarşıda hələ çox illər var ki, onun ömür arxivinə xoş anları ilə yazılacaq. Hüseyn müəllim bir insan, dost olaraq da nümunə göstərilәsi, öyrənilәsi bir ziyalımızdır. Xarakterindəki özgürlük, daima irəliyə baxış, bacardığı qədər insanlara kömək etmək fitrəti olan dostuma uzun ömür, can sağlığı, yaradıcılıq uğurları arzulayırm və deyirəm: Əziz dost, dünyaya gəliş günün mübarək, çox yaşa, xoş yaşa.**

**Faiq Balabəyli**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist, "Məmməd Araz" və "Şahmar Əkbərzadə adına ədəbi ödüllərin, "Qızıl Qələm" mükafatçısı. Prezident təqaüdçüsü. Müstəqil.Az saytının baş redaktoru, Dənizçilərə Sosial Dəstək İctimai Birliyinin sədri**

№ 40 (2221) 15 aprel 2021-ci il


Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# GƏDƏBƏYİ TURİSTLƏRƏ TƏQDİM EDƏK

**Müstəqil Azərbaycanın iqtisadi-siyasi durumu təkcə ölkə sərhədləri daxilində deyil, onun hüdudlarından kənarda da həm diqqəti çəkmiş, həm də təsdiq olunmuşdu. Yəni dünyanın aparıcı dövlətləri, iqtisadçı alimləri, maliyyəçiləri, hətta Dünya bankı və beynəlxalq banklar ayrı-ayrılıqda Azərbaycanda cərəyan edən hadisələrə diqqətlə yanaşır və onun uğurlarını nəzərə alıb ölkəmizə sərmayə yatırtmaqda böyük maraq göstərirlər. Təbii ki, bu da ölkənin daxili sabitliyi və iqtisadi göstəricisinin yaratdığı məntiqi nəticədi.**

Bu gün təkcə paytaxta və digər iri şəhərlərimizdə deyil, Azərbaycanın regionlarında da inkişaf səviyyəsi, eləcə də ümumi mənzərə ilk baxışdan adamı özünə çəkir. Istənilən bölgəyə üz tutanda oradakı yeniliyin şahidi olmaq mümkündü. Bu mənada dağlar qoyunda yerləşən Gədəbəy rayonuna yolu düşən hər kəs bu rayon mərkəzi ilə yanaşı, onun qəsəbə və kəndlərində də həyatın müsbət aurasını ilk baxışdan hiss edir. Burada iki xüsusi məqam var. Onlardan biri təbii ki, coğrafiyamızdı. Yəni Gədəbəy elə bir coğrafi ərazidi ki, burada Allah özü insan üçün böyük yaşam imkanları yaradıb. Buradakı meşə zolaqları, çaylar, bulaqlar, mineral sular, adamla canlı şəkildə təmas quran bitki örtüyü, yəni flora və fauna, yeraltı, yerüstü sərvətlər, abidələr, bir sözlə, bu coğrafi ərazinin bütövlüyü öz aurası ilə Azərbaycan insanına həyat eşqi bağışlayır, yaşamağa yaratmağa həvəsləndirir...

Son zamanlarda Gədəbəyin iqtisadi mənzərəsində baş verən iqtisadi dəyişiklilər, burada aparılan tikinti-quruculuq işləri göstərir ki, ölkə prezidenti cənab İlham Əliyevin imzaladığı Regionların İnkişafına Daiq Dövlət Proqramına uyğun olaraq yerli icra hakimiyyətində aidiyyəti qurumların əlbir fəaliyyətini qovuşduran mərkəz fəaliyyət göstirir. Rayon icra hakimiyyəti başçısının rəhbərlik etdiyi həmin mərkəz də rayonun bütün mənzərəsi, inkişaf prespektivləri, çatışmazlıqlar, zəruri olan məqamlar öyrənilir və planlı şəkildə də bu məsələlər öz həlini tapır. Belə ki, Gədəbəy rayonun mərkəzində aparılan tikinti-abadlıq işləri artıq rayonun ümumi mənzərəsində köklü dəyişikliklərin olduğunu göstərir. Çəkilən yollar, döşənən asfalt örtüyü, eləcə də səkilərin qaydaya salınması, su, qaz xətlərinin nizamlı çəkilişi artıq Gədəbəydə işlərin planlı şəkildə gerçəkləşdiyini təsdiq edir.



Bütün dünyanı bürüyən pandemiya təhlükəsinin Azərbaycanda da at oynatdığı məqamda Gədəbəy sakinləri rayonun əsas inkişaf xətti olan əkinçiliyi bir an da olsun yaddan çıxarmırlar. Istər fermer təsərrüfatları, eləcə də sahibkarlar və ayrı-ayrı vətəndaşlar rayonda əkin-biçin işlırinə, maldarlığa xüsusi diqqət yetirirlər. Məhz bu səbbədəndir ki, Gədəbəydə ət, süd istehsalı, kartof, digər dənli bitkilər, ümumilikdə isə kənd təsərrüfatı məhsullarının istehsalı ilbəil kəmiyyət və keyfiyyətcə yüksəlir, artır. Bu da Gədəbəyin hər bir sakininə öz bazar zənbilini, ailə büdcəsini idarə etməkdə geniş imkanlar yaradır. Yəni yerli sakinlərin sosial durumu ilbəil yüksəlir. Təbii ki, ölkə prezidentinin və ümumilikdə Azərbaycan hökumətinin qarşıya qoyduğu məqsəd də Azərbaycan insanının sosial rifah halının yüksəldilməsidi. Deməli, Gədəbəydə müşahidə etdiyimiz sosial rifah onu göstərir ki, ölkəmiz uğurlu inkişaf yolundadı.

***Regionlarımızın inkişafı ilə bağlı mövzunu işləyərkən Gədəbəy rayonuna dair bilgiləri gözdən keçirməli oldum. Həmin materiallar arasında ən çox diqqətimi çəkən rayonda təhsilə, səhiyyəyə göstərilən diqqət oldu. Pandemiya şəraitində yaşasaq da, Gədəbəy rayonunda həm rayon mərkəzində, həm də kəndlərdə fəaliyyət göstərən məktəblərdə, xəstəxana və tibb məntəqələrində demək olar ki, müasir texnikanın verdiyi imkanlardan yararlanaraq böyük işlər görülməkdədi.***

Respublikamızın hər bir bölgəsində, hətta ən ucqar kəndlərində olduğu kimi, Gədəbəy rayonunda da məktəblərin, tədrisin, internet şəbəkələrilə əlaqələndirilməsi, yəni onlayn dərslərin keçirilməsi, şagird və müəllimlərə internet imkanlarından istifadə edilməsinə şərait yaradılması bu gün Gədəbəyin reallıqlarındandı. Ona görə də rayonda təhsil işçilərinin öz vəzifə borclarını yerinə yetirmək məsələsində, yəni pandemiyanın yaratdığı problemlərdən yan keçərək tədrisi Təhsil Nazirliyinin tələbləri səviyyəsində qurmaları ürəkaçandı. Bu da onu göstərir ki, rayon rəhbərliyi, xüsusilə təhsil sahəsinə cavabdeh olan şəxslər bu məsələni prioritet kimi gündəmdə saxlamağı bacarırlar. Ona görə də son illərdə Gədəbəydə orta təhsilini başa vurub ali məktəblərə daxil olanların sayında xeyli artım var. Bu uğurlu təhsil göstəricisi onu deməyə əsas verir ki, digər dağlıq bölgələrimizdə də təhsilə cavabdeh olanlar vəzifələrinə ciddi yanaşarlarsa, onda həmin bölgələrdə də uğurlar qazanmaq mümkün olar.



Gədəbəy rayonunda aparılan tikinti-abadlıq işləri bu bölgəmizə turist axını üçün də müəyyən imkanlar yaradır. Belə ki, Gədəbəydə mövcud olan Namərdqala, Çarekvəng monastrı, Koroğlu qalası, Böyük Qaramurad vəngi, Çaldaş məbədi, Altıbulaq qalası, Qarabağ qalası, Pir qalası, Qrex qalası və mövcud olan kifayət sayda abidələrimiz imkan verir ki, bu bölgəyə turistlərin diqqətini çəkək. Yəni Mədəniyyət Nazirliyinin aidiyyəti qurumu və digər aidiyyəti təşkilatlara Gədəbəyin əsl turist məkanına çevirmək imkanı verir. Sadəcə olaraq, bu işə planlı şəkildə yanaşmaq və bölgədə turistlərin yerləşməsi, ehtiyaclarını təmin etməsi üçün şərait yaratmaq lazımdı. Bütövlükdə götürəndə isə Gədəbəylə yanaşı, digər bölgələrimzdə də bu işi köklü şəkildə qurmaq ölkə iqtisadiyyatına böyük fayda gətirə bilər.

**Bu gün Gədəbəy rayonunda görülən işlərin içərisində işıq, rabitə, telekommunikasiya, həmçinin səhiyyə, mədəniyyət sahələrində aparılan uğurlu işlər deməyə əsas verir ki, dağlar qoynunda yerləşən, təbii gözəlliyi özündən olan Gədəbəydə kənd təsərrüfatının, sənayenin inkişaf etdirilməsi ilə paralel olaraq turistlər üçün şəbəkələrin qurulması da bölgəyə böyük yatırımların qoyulmasına yol açar. Bu isə öz növbəsində Gədəbəyin, həm də ətraf bölgələrin turist diqqətini cəlb etməsində əsas şərtlərdən biridi. Düşünürəm ki, yaxın gələcəkdə Gədəbəy şəhərində və onun müvafiq ərazilərində tikiləcək otellər, yaradılacaq sosial şərait Gədəbəyi daha da şöhrətləndirəcək. Yəni bu bölgəyə səfər edənlər oradan xoş təəssüratlarla ayrılacaqlar. Buna isə həm mənəvi baxımdan, yəni maddi mənədəniyyət baxımından, həm də coğrafi baxımdan bizim haqqımız çatır.**

*Əbülfət MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ

# Gül balam, öyrətmə gülə könlümü

**... Ömrünün 55 ilini arxada qoyan gözəl şair Xəqani Həbiboğlunun əvvəlcə sözünü sevdik, sonra özünü... Daha sonra da Kəlbəcər həsrətini sevdik onun. Bu ƏLLİ BEŞin otuz ili Kəlbəcər ağrısının, Kəlbəcər həsrətinin ağuşunda keçdi. Kimin ağlına gələrdi ki, hansısa bir zaman kəsiyində Vətənin bir parçasını uzaqdan-uzağa, bir az da xəyali sevməyə məhkum olacağıq.**

Xəqani Həbiboğlu da uzun illər sözünün şəhdini, şirəsini çəkən, hər misrasının nüvəsində dayanan Kəlbəcəri beləcə uzaqdan-uzağa sevdi (elə hamımız kimi)



... Kəlbəcərin səmasında əsən küləyini, çöllərinə yağan yağışını, şaxtada donan taleyini sevdi. Ruhunu, könlünü gülə, çiçəyə öyrəşdirmədi. İstəsə də bacara bilməzdi. Çünki düşmənin soyuq nəzərləri altında illərlə o torpaqlara yaz gəldimi, biləmmədik:

*Hansı bənövşəni şoran gözləyir...*
*Sanma Xaqanini aran gözləyir!*
*Dəlidağda dəli boran gözləyir,*
*Gül balam, öyrətmə gülə könlümü!*

Dünyanın işdəklərinə bax... Bir zamanlar o taylı, bu taylı Azərbaycanın həsrətini yazan şair ürəyi indi Vətəndə Vətən həsrətinin yazırdı:

*Ürəyimdən yeyər, gözümdən içər,*
*Qaranquşla dönər, durnayla köçər.*
*Dünən Təbriz idi, bu gün Kəlbəcər,*
*Dəyişir ünvanı, adı həsrətin.*

Bu həsrətin içində Xəqani Kəlbəcərdə xəyali boş qəbirinin olduğunun da fərqində idi.

İnsan ömrünün ölüm-qalım fərmanının Yaradanın əlində olduğunu bildiyindən, yerdən-göydən onun sorağını gözləyirdi:

*Daş da çatlayır səbrimə,*
*Dayanıb,durub xətrimə.*
*Girimmi doğma qəbrimə,*
*Allahdan əmr necədi?*

Hər şey otuz il beləcə qaldı... Ta 44 günlük zəfər savaşına kimi. O savaşa ki, Azərbaycanın igid əsgərlərinin sorağını bütün dünyaya car çəkdi.

O savaşa ki, bir qolu da savaşa bərabər danışıqlardan keçdi və Kəlbəcər də bu uğurların sayəsində öz sahibinə qovuşdu.

Bir dəfə onun haqqında demişdim ki, Xəqani Həbiboğlu gözlə görünməyən, rənglərlə çəkliməyən bu mücərrəd duyğunun - sevginin şəklini SÖZlə çəkir... O, yaxşı bilir ki, bütün mücərrədlərin sözlə ifadə olunan bir izahı var. İllah da ki, sevgi kimi mücərrədin... Dünyanı ayaqda, aşiqi bəlada, Vətəni ürəkdə saxlayan SEVGİnin...

**O sevgidir Xəqani Həbiboğlunu əlli beş ilin o başından bu günə kimi gətirib və otuz ildən çoxdur ki, bizlərə sevdirir. Və həmişə də sevdirəcək...**

**Vasif SÜLEYMAN**

*Xəqani HƏBİBOĞLU*

## DAĞLARI

*Solur dolu vurmuş çiçək dənizi,*
*Gəl ömrüm, gəl gülüm, bəzə dağları!*
*Demişəm qoynuna gələcək o qız ,*
*Aldadıb gəlmişəm təzə dağları!*

*Bulaqlar buzunu qıranda gəlmə,*
*İldırım palıdı yaranda gəlmə,*
*Lalələr donunu cıranda gəlmə,*
*Bədnəzər gətirər gözə dağları!*

*Nə qədər sən varsan, nə qədər dağ var,*
*İlhamım çağlardı, dodaqlarım tar!*
*Dağların vurğunu a sevdiyim yar,*
*Gəl bizə,köçürüm bizə dağları!*

## BƏNÖVŞƏ

*Ay utancaq gözəl, həyalı gözəl,*
*Nə tez soldun, gözüm doldu,bənövşə!*
*Taleyi kəmlərin,gözü nəmlərin,*
*Kədəri,möhnəti boldu, bənövşə!*

*De,danış dərdini duyaram səni,*
*Solsan qanım ilə boyaram səni,*
*Qıysam bir o qıza qıyaram səni,*
*O eşq də vədəsiz soldu,bənövşə!*

*Ürəyim ağrıdan aram olmadı,*
*Mənim heç sağalan yaram olmadı,*
*Dikbaş gözəllərlə aram olmadı,*
*Xəqani qanana quldu,bənövşə!*

## KÖNLÜMÜ

*Sanırsan ki, gözəllikdən küsübdü...*
*Gül ilə tutursan dilə könlümü.*
*Kərəm Ərzurumda borana saldı,*
*Sara Arpaçayda selə könlümü.*

*Sərtlikdə zəriflik-fikrin yarğanı!*
*Bu yarğanda neçə arzu doğranır...*
*Bənövşə-yastığı,nərgiz-yorğanı,*
*Lalənin ovcunda bələ könlümü!*

*Qismətim olmadı ağacdan çətir,*
*Şeiri yazıram,kül olur sətir.*
*Buzdan kar aşmadı,bir sal duz gətir!*
*Ərit göz yaşında,çilə könlümə!*

*Hansı bənövşəni şoran gözləyir...*
*Sanma Xaqanini aran gözləyir!*
*Dəlidağda dəli boran gözləyir,*
*Gül balam, öyrətmə gülə könlümü!*

## AYRILIQ

*Görən niyə qarğıyırıq,görəsən,*
*Eşq sərgisi,qəm xırmanı-ayrılıq.*
*Olmasaydı sevgi aclıq çəkərdi,*
*Məhəbbətin dəyirmanı-ayrılıq.*

*Baxma ki göz yaşı belə sellənir,*
*Sevda quşu ayrılıqla dənlənir,*
*Kitablarda qalaqlanır,çinlənir,*
*Eşq gözəldir,güllü donu-ayrılıq.*

*Ay Xəqani,nədir səni göynədən,*
*Dünyanı tutası deyildi dədən,*
*Doğuldun-Allahdan, öldün-bəndədən,*
*Əzəli-ayrılıq, sonu-ayrılıq.*



*Adil Qasımlı*

## ZAMANSIZ MƏKAN

*Daddım, bu həyatın daddım tamını,*
*Sınadım, dişimə vurdum hamını.*
*Yoldan saxlamayın yol adamını,*
*Ta şələ-şüləmi yığıb gedirəm.*

*Gördüklərimközdü gözüm içində,*
*Yanıram bir yanar közün içində.*
*Gedirəm hər sirrim, sözüm içimdə,*
*Dilimi dişimə sıxıb gedirəm.*

*Dünya başdan-başa dolub günahla,*
*Arayıb, axtardım haqqı çıraqla.*
*Barışa bilmədim zamanla, vaxtla,*
*Zamansız məkana çıxıb gedirəm.*

## GƏLİRƏM

*Səndən ayrılmışdım, çıxıb getmişdim.*
*Hər şeyi dağıdıb, yıxıb getmişdim.*
*Sanki, boğulurdum, sanki ölürdüm,*
*getmişdim bir qədər hava almağa,*
*getmişdim hardasa tənha qalmağa…*
*Tənhalıq qəribə baxtmış, qədərmiş,*
*tənhalıq adamı dəli edərmiş…*
*Burnumun ucunda tütürdün mənim*
*hər yerdə, hər yanda tutiyə kimi.*
*Necə olmuşdu ki, sənin qədrini*
*Bilə bilməmişdim indiyə kimi?..*
*…Çıxmışam yollara, yollar çiçəkli,*
*Qoxunu güllərdən alıb gəlirəm.*
*Əzəlki o qürur dağından enib,*
*başımı aşağı salıb gəlirəm.*
*Yamanca peşimanam, sınıb gəlirəm.*
*O əzəl mehrinə, məhəbbətinə*
*Sığınıb gəlirəm, sinib gəlirəm.*

## GECİŞMİŞ ETİRAF

*Yatdım mən də çoxu kimi,*
*Günlər keçdi yuxu kimi.*
*Sulara tökdüm içimi,*
*olsun yuxum çin, danışdım.*

*Özümə bir qapı açdım,*
*həsrətin əlindən qaçdım,*
*gəlib sənə yaxınlaşdım,*
*nə sən, nə də mən danışdım.*

*Səni bir də görməliydim,*
*Sevirdim, eşqdən dəliydim.*
*O sözü ki, deməliydim,*
*ömrümün sona yetdiyi*
*axırıncı gün danışdım.*

## APARIR

*Yaşamayaq qoyun kimi.*
*Ömür dediyin, yun kimi*
*didilir, daranır hər gün,*
*hər yel bir əlçim aparır.*

*Əzrail nə görüb bizdə?*
*Dolaşır yan-yörəmizdə.*
*Hansımızı alıb getsin?-*
*arayır, seçim aparır.*

*Hamı qalıb can hayında...*
*Girdiyimiz hər oyunda*
*yüz ağıllı baş sındırır,*
*yenə ağlıkəm aparır.*

*Bu dünyaya göz açandan*
*hər kəs həyat ağacından*
*istəyir ki, sevinc dərə,*
*amma, sonda qəm aparır.*

## AĞLAMAQ YOX

*Dost dalınca daş sıxanda,*
*Ümidlərin puç çıxanda,*
*Gözlərindən yaş çıxanda,*
*qəhrini boğazda boğ,*
*ağlamaq yox!*

*Çəkən əyib tərəzini,*
*göstərirsə qərəzini,*
*içində boğma hirsini*
*barmağını gözünə sox,*
*ağlamaq yox!*

*Düşəndə dara, zillətə,*
*qorxutmasın heç bir hədə.*
*Güvən içində qeyrətə,*
*ildırım ol, başında çax,*
*ağlamaq yox!*

*Bütün buzlaqlar ərisə,*
*sel-su üstünə yerisə,*
*bir addım atma geri sən,*
*cəsarətlə qabağa çıx,*
*ağlamaq yox!*

*Göstərmisən nəsil-nəsil*
*at oynadan kimdi əsl.*
*Hay önündə tir-tir əsir.*
*Haydı-haydı, əhdini kəs,*
*zirvələrdən zirvəyə qalx.*
*Şan-şöhrətin dalğalansın*
*Ucalarda bayraq-bayraq.*

## DÜNYA

*Hər kəs keçən yoldu dünya,*
*Hey boşaldı, doldu dünya.*
*Biz ağladıq, güldü dünya,*
*dil tapıb, yola getmədik.*

*Əlinin suyunu daddıq,*
*neçə günahına batdıq.*
*Dərinlərdə əl-qol atdıq,*
*dayazda zilə getmədik.*

*Qələm çəkdi yazımıza,*
*qar yağdırdı yazımıza.*
*Oynamadı nazımıza,*
*bizlə qol-qola getmədi.*

*Olmadı gül dərən ondan,*
*Bəla gördük hər an ondan,*
*Qaçdıq, qaçdıq haramından,*
*Şirəyə, bala getmədik.*

*Hər bir işdə tərsdi bizə,*
*Çox dayandı qəsdimizə.*
*Yerisə də üstümüzə*
*bir addım dala getmədik.*

## OLMADI

*Mavi göylər çilçıraqdı.*
*Gecənin bir gecə vaxtı*
*baxtımın ulduzu axdı.*
*Olmadı, baxtım, olmadı.*

*Boynuma çox günah aldım.*
*Gördünmü nə günə qaldım?!..*
*Özüm özümə şah oldum,*
*Nə olsun, taxtım olmadı.*

*Kimsə çəkdi dərdə sarı,*
*dedi: "yeri, dərdə sarıl".*
*Nə ucaymış dərd hasarı,*
*Üzərindən aşmaq uçun*
*ha qalxdım, qalxdım, olmadı.*

*Getdi yüzlərcə yaşıdım.*
*Mən dəmir, yoxsa, daşıdım?..*
*Niyə bu qədər yaşadım,*
*Ölməyə vaxtım olmadı?!..*

# "Tanrının özü də bir baxımdan psixoloji sadisdir"

*Həmsöhbətimiz "Cumhuriyət" qəzetinin əməkdaşı, şair Əli Bədirdi.*



### *Bu gün jurnalistikanın qanun və qaydalarının təxminən 95 faizini qəzetlər qoruyub saxlayır*

**-Həm saytçün işləyirsən, həm də qəzet. Aradakı fərqlər nədir?**

- Əvvəla suala görə təşəkkür edirəm, Emin bəy! Bəlkə də bu imkanım olduğu üçün şanslıyam. Çünki eyni vaxtda iki məktəb keçirəm. Həm sayt, həm də qəzetçilik. Sayt operativlik sevdiyi üçün, zamanla yarışanlara daha çox uyğundur. Burada kiçik və texniki səhvlərə yol verilməsi də, hardasa anlaşılandır. Yetər ki, məlumat əsaslı və təhrifsiz olsun. Saytda bir cümləni də xəbər kimi verə bilərsiniz. Əsas onun xəbər yükünün olmasıdır. Lakin qəzet həm zəhmət, həm dərin məlumat, həm də məsuliyyət tələb edir. Çünki qəzet bu günün sənədi, sabahın arxivi, gələcəyin məxəzidir. Bu gün jurnalistikanın qanun və qaydalarının təxminən 95 faizini qəzetlər qoruyub saxlayır. Hansısa məlumatı dəqiqləşdirərkən əsas olaraq qəzetlərə istinad edilir, saytlara deyil. Onun üçün də, yazının müəllifi daha məsuliyyətli olmağa, detalları dəqiq və əsaslı verməyə, məlumatı oxucuya aydın şəkildə çatdırmağa məcburdur. Eyni zamanda, qəzet hər kəs üçün əlçatandır, xüsusən də yaşlı nəsil üçün, sayt isə yox. Şəxsən mənim üçün bir qəzet yazısı yazmaq, on sayt yazısı yazmaqdan daha ağırdır.

**-Bizdə qəzetçilik anlayışı hələ də qala bilibmi?**

- Bəzi qəzetlərdə qəzetçilik anlayışı kobud şəkildə pozulsa da, amma bunu bütün mətbu orqanlara aid edə bilmərik. Bu gün həqiqətən qəzetçilik anlayışına hörmət edib, onun haqqını verən qəzetlər də var. Hesab edirəm ki, ad çəkməyə gərək yoxdur, onsuz da oxucu özü saf-çürük edir. Lakin qəzetlər şəxsi maraqlar müstəvisinə çevrildikcə, qəzetçilik də bayağılaşmağa, öz uca minarəsindən pillə-pillə enməyə başlayır. Ən əsası, qəzetlər təfəkkürün çırağı, dilin mühafizəçisi və yalnız doğru meyarların istinadçısı olduğu müddətcə, qəzetçilik yaşayacaq.

**-"Cümhuriyət" qəzeti bir oxucu üçün nə verə bilər? Və ya öhdəsinə düşəni edə bilirmi?**

- "Cümhuriyət" qəzeti özündə 103 il öncə Şərqdə ilk dəfə əldə etdiyimiz müstəqilliyimizin ruhunu daşıyır. Bu gün bu qəzetdə işləmək, təkcə iş deyil, həm də jurnalistin çiyinlərinə ona layiqlik, o dəyəri yaşatma məsuliyyəti qoyur. "Cümhuriyət"in öhdəsinə düşənləri nə qədər yerinə yetirə bildiyini anlatmaq üçün bir hadisəni danışacam. Öncə saytda işləyərkən qəzetlərin sadəcə rəsmiyyət xatirinə nəşr olunduğunu və ona cəmiyyətin marağı olmadığı qənaəti vardı içimdə. Bir gün "Cümhuriyət" qəzetinin nəşri texniki səbəblərlə bağlı bir neçə gün dayanmalı oldu. Səhər vaxtı idi, redaksiyanın daxili telefonuna zəng gəldi. Yaxınlıqda olduğum üçün dəstəyi qaldırdım: Cümhuriyət" qəzeti, Cəbhə.info saytı, buyurun! Yaşlı bir kişi səsi, salamsız və əsəbi şəkildə: "Ay bala üç gündür "Cümhuriyət" qəzeti çıxmır deyirlər. Mən bircə onu oxuyurdum. Nə istəyirsiz, yaşamayaq bu xarabada?"-deyib dəstəyi asdı. O an "Cümhuriyət" qəzetinin oxucunu məmnun edəcək qədər öz üzərinə düşənləri edə bildiyini anladım. Bu qəzetin oxucu üçün nə verə bildiyini isə xalq daha yaxşı bilər. -

### *Direktorumuz şeirimi öz adıyla çap etdirmişdi*

**-Yaradıcılıq məhsullarını dərc etdirməkdə elə də maraqlı deyilsən...**

- Haqlısınız, kənardan da elə görünür. Lakin daha çox yazdıqlarımın naşirin əlinə çatanadək olan prosesdə bir az çəkingən insan olduğum üçün, özüm bu işin arxasınca düşməmişəm. Mənim şeirlərimi hər zaman təsadüfi eşidən və ya məni tanıyan kimsələr mətbuata çatdırıb. Hər zaman, "Mətbuata apararam, naşir də iş çoxdur, ver qalsın zamanımız olanda baxarıq deyər və yazdıqlarıma etinasız yanaşar"- kimi fikirlər olub içimdə. Ona görə həm orta məktəbdə, həm universtetdə şeirlərimi kimlərsə mətbuata verib. Hətta orta məktəbdə şeirimi qəzetə verən direktorumuz, iki şeirimdən birini öz adına, birini də mənim adıma nəşr etdirmişdi.

**- Səhv etmirəmsə, ilk dəfə Əsəd Cahangir təqdim etdi səni. Haqqında kiçik təqdimatla. Ola bilsin, səhv edirəm.**

- Səhv deməyək, burada kiçik yanlışlıq var. Mənim haqqımda ilk təqdimatı yazan və şeirlərimdən də nümunələr verən, Biləsuvar rayonundan jurnalist Müşfiq Mirzə olub. O zaman hələ məktəbli idim. Rayon Mədəniyyət Evində keçirilən bir şeir müsabiqəsinə öz şeirimlə qatılmışdım. Müşfiq müəllim məni salondan dinləyib və şeirlərim onun marağını cəlb edib. Bunu sonra özü mənə dedi. Həmin təəəssüratları mənim haqqımda yazdığı məqaləsində də bölüşmüşdü. İndi də onunla dostluğumuz davam edir, Allah ona can sağlığı versin! Ondan sonra da, şerilərim müxtəlif mətbuat orqanlarında dərc olunub. Əsəd bəy də "Ulduz" jurnalında gedən bir şeirimi götürmüş və ədəbi cameəyə təqdim etmişdi. Bir xeyli ədəbiyyat insanı fikir bildirmişdi, elə siz də. Doğrusu, həmin şeir haqqında çox gözəl fikirlər səslənmişdi. Hətta özüm belə o qədərini gözləmirdim. Əsəd bəy həmin şeiri bəyəndiyini bildirmişdi. Lakin bir məqamla razılaşmırdı. Şeirdə belə bir bənd var:
Nə suç ola, nə cəhənnəm, nə cənnət

*Nə din ola, nə bölgü, nə təriqət*
*Bircə ola Allah adlı həqiqət*
*Ölüm səni qonaq kimi istəyə*
*Hamı səni böyük kimi düşünə*
*Hamı səni uşaq kimi istəyə*

Əsəd bəy dördüncü misradakı "ölüm" kəliməsinin işlənməsinə etiraz etmişdi ki, bu yaşda cavan niyə ölümdən danışır? Bir tərəfdən baxsaq, Əsəd bəy haqlı idi o baxımdan ki, gənc nəslin formalaşdıracağı ədəbiyyatın pessimizlə yüklənməsini istəmirdi. Bu da anlaşılandır. Çünki tənqidçidir və ən əsası gənc nəslin qələmindən çıxan nümunədə işıq gördüyü üçün, onun içində "ölüm" kimi bir ifadənin gələcək nəslə ötürülməsini istəmir. Lakin mənim şeirdə demək istədiyim ölmək deyil, ölümdən qorxmamaq, ölümün özünün belə, səni qonaq kimi qarşılayacağını və bunun keçid olacağı fikrini aşılamaqdı. Həmin şeirin də ictimaiyyətə təqdim edilməsində zəhmətinə görə, Əsəd Cahangirə təşəkkür edirəm.

**-"Kasıb uşaqlarını yada düşməsi üçün şəhid olması lazımdır" demişdin şeirlərində...**

- Şəhidlik hər bir xalq üçün ən uca zirvədir. Bu zirvə nə pulla, nə malla alınır. Bu zirvəyə yalnız sevgi və cəsarətlə yüksəlmək mümkündür ki, bunların da hər ikisi mənəvi keyfiyyətlərdir. Ona görə də, pulla alınması mümkün deyil.

Ola bilər kimsə varlı olsun, pulu ilə tanınsın, yad edilsin. Lakin ya pulu, ya da ömrü bitəndə yaddaşlardan silinib gedəcək. Şəhidlik isə yaddaşlara elə həkk olunur ki, onu heç bir şey silə bilmir. Bu Vətənin qəhrəmanlıq tarixini yazan Mübariz İbrahimov, Polad Həşimov, Şükür Həmidov və neçə-neçə belə qəhrəmanlarımızdır ki, onların heç biri zəngin ailədə doğulmayıblar. Tarixin yaddaşında da elə bu cür qəhrəmanlar qalır. Çünki onlar qəhrəmanlıqları ilə yada düşürlər. Əgər onların həmin qəhrəmanlığı olmasaydı, həmişə yada düşməzdilər və bugün heç torpaqlarımız da azad olmazdı.

**-Nağıllar bitib almanın da qiyməti bahalaşıb. bəs, nə olacaq?İndiki uşaqlara nə danışaq?**

- "Daha nağıllar bitib, alma da bahalaşıb, Tanrının xurcunundan üçü birdən sürüşməz"- bu misralar mənim "Bu qatar çox uzaqdır..." adlı şeirimdən bir parçadır. Sualınıza gəldikdə isə, şeirin hərfi mənasında, həqiqətən indiki uşaqlar bizim inandığımız nağıllara inamırlar. Hətta onlara nağıl danışarkən, gülüş obyekti də oluruq.

Bəlkə də bu onların böyüdüyü mühit, zamanın mövcud vəziyyətdəki real çağırışları, izlədikləri televiziya verlişləri ilə bağlıdır. Yeri gəlmişkən, hesab edirəm ki, uşaqlar üçün həqiqətən də onların xəyal dünyasını əhatə edə biləcək nağılların yazılmasına ehtiyac var. Bu artıq özünü qabarıq şəkilə büruzə verir. Almanın bahalaşmasına gəldikdə isə, indiki uşaqlara "Göydən üç alma düşdü" sözünü bəxşiş kimi sıraya bilməzsiniz. Amma biz zamanında mütləq o almaların birinin bizə düşməsini həsrətlə gözləyərdik. Sözdə olsa belə... Amma beytdəki əsl mənaya gəldikdə isə, yəni sözlə başaldatmalar, nağılçılıq, kimlərinsə bizi uşaq yerinə qoyma dövrü bitib. Artıq insanlar reallıq axtarışındadır. Onun üçün onları ucuz yalanlarla aldatmaq olmaz.

**-Allah əzablarımızdan həzz alır? Bu Tanrını sadizmdə ittiham etmək deyilmi?**

- Mən buna sadizm deməzdim. Çünki sadizm geniş anlayışdır və məzmununda alçaltmadan zövqalma var. Tanrının verdiyi əzabda isə sınama, sadələşdirmə var, lakin alçaltma yoxdur.

Yəni sadizmin bir növü mənəvi alçaltmadırsa, Tanrının əzabı yalançı ucalıqdan endirib, həqiqi ucalığa qaldırmaq yoludur. Bir də onun sonu mükafatla bitir(Allahın Qurani-Kərimdəki vədinə görə). Sadistlər insanların ən zəif yerini tapar və oradan alçaltmağa çalışar, özləri də bundan həzz alarlar. Yəni heç bir məqsəd olmadan. Lakin Tanrının çəkdirdiyi əzabda mütləq bir məqsəd var. Üstəlik bir sınaq da əsas məsələdir. Əgər sadizmdəki mənəvi, məqsədsiz və nəticəsiz alçaltmanı istisna etsək, Tanrının özü də bir baxımdan psixoloji sadisdir.

**Söhbətləşdi:**
**Emin Piri**

*İBRAHİM TIĞ,*
*Türkiyə*



## *Öncə adəm sevişdi xəndəklərdə!*

### İKİ DİL

*öncə gecəni soy üzərindən, sonra məni!*
*bədən səhra istisi, gülüşün tumurcuq*
*"mən"ini çıxar başından, lutu unut!*
*gözəl adamları var dar küçələrin*
*dar küçələrin gözəl insanları*
*qaranlıqda göz qırpma mənə, görmərəm*
*ağuşuna bağlayıram ağzını axıntıların*
*beş duyğumuzla sarılsın gövdəmiz o an*
*bədənini, bədənimlə geyindirim, utanma*
*iki dilin bir insan etdiyi yerdəyik*
*söndürmə sehrli çırağını ələddinin*
*ən utandığımız yerlərimizlə*
*bütövləşirik qələbəliyi sağaldırıq*

### ARXA BAĞÇA

*yarım qalmış bir nağıldır bədənin*
*əxlaqsız gecənin qoynunda yandığım*
*qışa bənzərdi bu şey!, bir az da əksik və qızğın bir dua*
*dar ətək, boy-buxun, əndam*
*təpədən dırnağa gövdəmizdə*
*gizlətdiyimiz qəbir, cəhənnəm artığı qəribsəmiş şəhərlər,*
*yanlışlığa meyl etmiş kitab!,*
*peyda qələbəliklər, pul, hiləgərlik və əda!*
*ayaqların xatirinə, əsa ağacı, yanıqlı musiqisi*
*Nalanın büdrədikcə kimliyimizə girir, oxşarlıqlar*
*tapırıq bir-birimizdə. solğun bir çiçək səsini!*
*bir yanım səhər qəhvəsi, bədənim ağır bir sığınacaq*
*şəhərin ürəyinə axardı tarixi keçmiş antik yaralar*
*doğ məni, böl və gizlət!, ziddiyyətli quşlar fəslidir*
*həyat. Kədərin dəfn edildiyi bağçada soyundum.*
*bir gecəlik ölümdürsə sevgi iqlim dolu öpülər,*
*dəli atlar çapar qəlbimdə, daralan göy!,*
*gövdəmiz qanadsız qorxunun uşaqlığı!*
*xəyalına dolanır o sarmaşıq bədən*

### DESPİNA

*mən bu acıyı iki cahana həsr etdim*
*insan özünə bənzədikcə qanayar*
*üzündeki sevgi!*
*öyrəndim üstünə düşərkən*
*uzun bir yolun qaçağan atları*
*ikiyə bölərdi iyulu*
*ərdahana uzanırdı ardınca, qəlbim*
*ah, necə böyüyür, adımı daşıyan*
*küçə və şeir, sizi xatırlayıram despina*
*soyuk bir gecənin ulduzuna*
*qonmuşdu parabüzənimiz*
*ah, mənim roman istəklim*
*bədənimiz bir-birinə qarışmışdı*
*xatirlərimizdən başqa*

### ADI MÜƏLLA DA OLSA...

*Nə zaman içimizi soyunsaq tənbəllik!*
*albalı çürüyü dul bir fəslin, dayanacağı yox*
*ayrılıqtan başqa. Küçədə unudulan uşaqlığı,*
*dodağımın yarası üç şair:*
*rüştü, müzəffər və kamal*
*-suyu suyla öpərdi!*
*tənhalıq şəhla bir at, kor quyu, çalınan fit*
*öncə adəm sevişdi xəndəklərdə!*
*unutdun sonra mən də tənhalığın çılpaq*
*adı müəlla da olsa...*

*Dilimizə uyğunlaşdıran:*
*Rövşən Məmmədov*

# Xalq artisti yeni dodağı və bahalı geyimləri ilə "dodaq uçuqlatdı"





**Pərəstişkarlarının qarşısına hər ay yeni bir imicdə çıxan 50 yaşlı Xalq artisti Aygün Kazımova növbəti dəfə də dəyişiklikləri ilə hər kəsi özünə heyran buraxa bilib.**

Haqq üçünə deyim ki, xarici görünüşündə, xüsusən dodaqlarında etdirdyi plastik əməliyyatın nəticəsi də uğurlu alınıb. Beləki, tanıdığımız xalq artistinin yerində sanki çox gənc bir başqası durub. 50 yaş üçün, əlbəttə, çox gənc görünüm qazanan müğənni də halından məmnun görünür. Odur ki, o məmnunluğun sayəsində ən bahalı geyimlərə ən yüksək miqdarda pullar xərcləyir.

### *Mart ayının qarderobu*

Adalet.az xəbər verir ki, ötən ay mediaya sızan məlumatlara görə, Aygün Kazımovanın bahalı geyimi onu izləyənlərin "dodağını uçuqladıb". Yəni, Kazımova "od qiymət"inə olan "Dolce & Gabbana" brendinin pencəyini və çəkməsində poz verib. Geyimin qiymətlərini öyrənən sosial şəbəkə izləyiciləri geyimin qiymətini dəqiqləşdiriblər. Sən demə, sinəsi güllərlə bəzədilən pencəyinin qiyməti 4 972 dollar, təxminən 8 452 manatdır. A.Kazımovanın seçdiyi qara rəngli sözügedən brendin çəkməsi isə 1 195 dollar, təxminən 2 031 manatdır. İfaçı pencək və ayaqqabısına birlikdə 10 483 manat ödəyib.

Məşhur müğənni bu geyimi və paylaşımı ilə uzun sürən koronavirus pandemiyasının kapantin günlərində sıxıntı yaşayan soydaşlarının həyatına rəng qatıb, onların üzünü - gözünü sevindirib, hamısını xöşbəxt edib - deyə düşünürük .

### *Aprel ayının qarderobu*

Aprel ayı üçün onu Xalq artisi edən xalqını necə sevindirdiyi ilə maraqlandıq.

Araşdırdıq ki, aprel ayı üçün, yəni dünən xalq artisti yenidən onu sevənləri möhkəmcə sevindirə bilib. sosial şəbəkədə yayımladığı fotosundakı geyimi ilə gündəmə növbəti dəfə gündəmə gəlib. Deməli, məlum olub ki, Kazımovanın botlarının markası "Valentino"dandır, qiyməti isə 1145 dollar, təxminən 1946 manatdır. "Louis vuitton" markasından olan çanta 2720 dollar, təxminən 4624 manatdır. İfaçının taxdığı eynək isə "Dolce Gabbana" brendindəndir və qiyməti 170 dollar, təxminən 289 manatdır. A.Kazımova buaksesuarlarına təxmini 6859 manat xərcləyib. Ümumiyyətlə, Aygün Kazımova alda geyinir yaraşır, şalda geyinir yaraşır. Mən şəxsən onun Səfərbərlikvə Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qarşısında hərbi geyimdə çəkdirdiyi fotolara baxanda kövrəlmişdim də!

***P.S.*** *Yazını əlimdə başa vurmaq istəyirdim ki, bir dost zəng vurdu. Dedim işim var, yazı hazırlayıram. Sonra da yazımı bəh-bəhlə dostuma oxudum! Qayıdıb nə desə yaxşıdır? Deyir araşdır gör, xalq artistimiz neçə qazinin səhhətinin, sosial şəraitinin yaxşılaşmasına pul xərcləyib? Neçə şəhid ailəsində qonaq olub, maddi demirəm, elə mənəvi dayaq olub?! Paaah! Nətər əsəbləşdim! Ay qardaş, bax mənim nə işimə qalıb, kim harda, kiminlə nağayrır? Heç gör mən narahat oluram, soruşuram? Belə maraqlısan, odey, oturub "limuzin"ində get özün soruş!*

*Hə, orda qaldım axı, hərbi paltar yaman gözəl yaraşırdı. Səfərbərlikvə Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qarşısında çəkdirdiyi fotonu deyirəm! Məncə, elə buna görə, ona Vətən Müharibəsi Qazisi adı vermək olar!*

**Əntiqə Rəşid**

# Rəmişin qardaşı qızı jurnalistləri qınadı: "Niyə eşitdiyinizi öz bildiyiniz kimi yazırsınız?"



**Mərhum Xalq artisti Rafiq Hüseynovun (Rəmiş) həyat yoldaşı Gülşən Hüseynovanın (Gülü) açıqlamasının jurnalistlər tərəfindən reytinq xatirinə dəyişdirilərək konteksdən çıxarılması Rəmişin ailə üzvlərini narahat edib və təəssüfləndirib.**

Sənətkarın yaxınları saytımıza zəng vuraraq bildirdilər ki,, onları narahat edən mövzunun mediada getdiyi kimi olmaması və yanlış yazılmasıdır.

Bizimlə bağlantı quran Rəmişin qardaşı (Sabir Hüseynovun - red.Ə.R) qızı Günel Hüseynova müxtəlif saytlarda gedən "Rəmişin həyat yoldaşından gözlənilməz addım: "Rəmişin qardaşı qızını övladlığa götürdüm" adlı yayılmış xəbərlərə fikir bildirib:

"Maraqlıdır , axı jurnalistlər həyat yoldaşı yenicə dünyasını dəyişmiş dərdli-yaralı bir qadının yanğı ilə dediklərini konteksdən çıxararaq öz bildikləri kimi yazması nəyə lazım idi? Bunu həm ailəmizə . həm də mərhum sənətkarın xatirəsinə sayğısızlıqdı. Jurnalist Gülşən xanıma sual verdi ki, sizin övladınız olmadı , indi kiminlə qalacaqsınız?O da dedi ki, Rəmiş də, mən də Rəmişin qardaşı balalarının xətrini çox istəmişik. Onları öz balamız bilmişik. Sonra da qeyd etdi ki, tək niyə qalıram, Xəyyam da, Günel də mənə baladırlar.

Həmin cavab belə oldu. Amma bu cavabı saytlardan başqa formada oxuduq :"Mərhum Xalq artisti Rafiq Hüseynovun (Rəmiş) həyat yoldaşı Gülşən Hüseynova (Gülü) deyib:

"Rəmişlə ailə quranda 23 yaşım var idi. Heç zaman övladım olsun deyə düşünmədim. Mən Rəmişi o qədər sevirdim ki, bala düşünmürdüm. Rəmişi sevirdim, yenə sevirəm, ölənə qədər də sevəcəyəm. Mən onu özümə övlad bilirdim. İndi Rəmiş yoxdur, onun qardaşı qızı Güneli övladlığa götürmüşəm. Elə körpəlikdən Günel mənim əlimdə böyüyüb. Günel artıq mənim övladımdır. Onu mən övlad kimi qəbul etmişəm".

G. Hüseynova fikirlərinə bu sözləri də əlavə edib:" Əmimin həyat yoldaşı, əmimin bizə yadigarıdır. Onun qayğısını çəkmək bizim borcumuzdur və biz bu borcumuzu hər zaman yerinə yetirəcəyik. Amma artıq mənim 41 yaşım var və övladlığa götürüləcək yaşda deyiləm. Xahiş edirəm yazdığınız yazını bir dəfə də özünüz diqqətlə oxuyub, analiz aparın".

**Qeyd edək ki, Azərbaycanda gitara ustası kimi tanınan, fenomen qabliyyətə malik mərhum Rəmişin həyat yoldaşı Gülü xanımın açıqlaması sənətkarın ailəsində narazıçılıq yaradıb.**

**Əntiqə Rəşid**

# *Neymar:* "Çempionlar Liqasının qalibini nokauta saldıq"

**PSJ-nin futbolçusu Neymar Çempionlar Liqasında "Bavariya"nı mübarizədən kənarlaşdıraraq yarımfinala adlamalarını şərh edib.**



Qol.az xəbər verir ki, 29 yaşlı hücumçu deyib: "Bu oyunda məğlub olmağımıza baxmayaraq, mən xoşbəxtəm. Biz çox gözəl komandaya qarşı oynayırdıq. Həmçinin biz də əla komandayıq və biz bu gün bunu göstərdik. Biz Çempionlar Liqasının son qalibini nokauta saldıq. Öz hədəfimizə nail olduq. İndi biz yarımfinalda daha güclü mübarizə aparmalıyıq. Mən xoşbəxtəm ki, biz yarımfinala çıxdıq. PSJ əla komandadır".

Qeyd edək ki, PSJ ilk oyunda 3:2 hesablı qələbə qazanıb. Komanda cavab matçında 0:1 hesabı ilə uduzsa da, iki görüşün cəmində yarımfinala adlayıb.

# *Dedi-qodular səngimir: Məşhur cütlüyün ayrılmasında "biznesmen" müəmması ...*



**Hər şey 2 il əvvəl başlamışdı.Maneken Dəfnə Samyeli ilə münasibətinə son qoyan,Türkiyənin məşhur komediya aktyoru Cem Yılmaz ilk dəfə jurnalistlərə aktrisa Serenay Sarıkaya ilə sevgili olmasından danışıb. Xəbər yayılandan həmən sonra hətta aktrisanın şoumeninin evinə köçüb, onunla birlikdə yaşadığı məlumatı da mediaya sızdı. Sevgi münasibətləri bu ilin yanvarına qədər davam edən sevgililərin anidən və heç bir açıqlama verilmədən ayrılması ağıllarda sual işarəsi yaratdı. 2020-ci ilin ən populyar cütlüyünün ayrılmasının şok səbəbi nə?**

### *Səbəb biznesmenmi?*

Adalet.az xəbər verir ki,Türkiyəli aktrisa Serenay Sarıkayanın iş adamı Haldun Demirhisarla eşq yaşadığı barədə xəbər şou-biznes aləmində gündəm yaradıb. Onların Göçekdə birgə dincəldiyi ilə bağlı dedi-qodular səngimək bilmir. Aktrisa "Instagram" hesabından iddialara cavab verib: "Bu gün haqqımda çıxan və çox çirkin üsulda yazılan xəbərlər əsassızdır. Haqqında danışılan şəxs dostumdur. Bir qadının yalnız güclü bir kişi ilə sevgili olacağı təqdirdə istədiyi həyatı yaşaya biləcəyinə dair eyhamları və dostuma ünvanlanan çirkin şərhləri qınayıram". Qeyd edək ki,məşhur aktrisa Serenay Sarıkaya Cem Yılmazdan əvvəlsevgilisi olmuş aktyor Kerem Bursindən də anidən ayrılmış və birdaha o mövzuda olan suallara cavab verməmişdi.

**Əntiqə**

Aqil Abbas **Orxan Fikrətoğluna** qardaşı

**Günəlin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İnqilab İsaq və Fəxrəddin Əsəd

**Orxan Fikrətoğluna**

qardaşı Günəlin vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vaqif, Firudin, Vilayət, Səlim, Mirzə, İlyas və Əbülfət tələbə yoldaşları

**RƏŞİD HÜSEYNOVUN**

qəfil ölümündən kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 84
Çapa imzalanmışdır: 14.04.2021